METODİK VƏSAİT

# ÜMUMİ TARİX 11



KƏRİM ŞÜKÜROV, PƏRVİZ AĞALAROV, NİYAMƏDDİN QULİYEV
HAFİZ CABBAROV, ELNUR HÜSEYNOV, RAMİL TANRIVERDİ

*Ümumi təhsil müəssisələrinin* **11***-ci sinifləri üçün*

# ÜMUMİ TARİX

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ - QƏRB






# MÜNDƏRİCAT


Dərslik və müəllim üçün metodik vəsait haqqında....4
Tarix fənninin tədrisinin müasir tələbləri. Ümumi müddəalar....5
Ümumi tarix fənninin tədrisinin məqsədləri....6
Ümumi tarixlə bağlı ümumi təlim nəticələri....6
XI sinif Ümumi tarix fənni üzrə məzmun standartları....8
Fəndaxili və fənlərarasi inteqrasiyanin zəruriliyi....10
XI sinif ümumi tarix fənni üzrə alt standartlarin inteqrasiya imkanları....12
Şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi....14
Qiymətləndirmənin üsul və vasitələri....15
Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr....16
İnteraktiv tədris forması....20
Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair tövsiyələr....26
Fəal dərsin quruluşu. Planlaşdırma....26
Motivasiya qurmaq üçün tövsiyələr....29
Fəal dərsin planlaşdırılmasına dair tövsiyələr....29
Dərslərin icmalı və tövsiyələr....33

| DÜNYA ÖLKƏLƏRİ XIX YÜZİLLİK–XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ | | |
|---|---|---|
| 1 | ABŞ və Böyük Britaniya | 34 |
| 2 | Fransa və Almaniya | 38 |
| 3 | Rusiya | 43 |
| 4 | Osmanlı imperiyası. Qacarlar dövləti | 47 |
| 5 | Hindistan, Çin və Yaponiya | 52 |
| 6 | Dövlətlərarası münasibətlər | 58 |
| 7 | Birinci dünya müharibəsi | 62 |
| 8 | Mədəniyyət | 65 |









| DÜNYA ÖLKƏLƏRİ 1918–1945-Cİ İLLƏRDƏ | | |
|---|---|---|
| 9 | Versal-Vaşinqton sistemi | 69 |
| 10 | ABŞ, Böyük Britaniya və Fransa | 73 |
| 11 | Almaniya və SSRİ | 76 |
| 12 | Türkiyə və İran | 80 |
| 13 | Hindistan, Çin və Yaponiya | 84 |
| 14 | Dövlətlərarası münasibətlər | 88 |
| 15 | İkinci dünya müharibəsi | 91 |
| 16 | Mədəniyyət | 98 |
| DÜNYA ÖLKƏLƏRİ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA | | |
| 17 | ABŞ | 101 |
| 18 | Böyük Britaniya, Fransa və Almaniya | 105 |
| 19 | SSRİ. Rusiya müasir dövrdə | 108 |
| 20 | Türkiyə və İran | 112 |
| 21 | Hindistan, Pakistan və ərəb ölkələri | 115 |
| 22 | Çin, Yaponiya və Koreya | 118 |
| 23 | Dövlətlərarası münasibətlər | 121 |
| 24 | Mədəniyyət | 128 |

Xəritələr ........................................ 132
Testlər ........................................ 148
İtifadə olunmuş ədəbiyyat ........................................ 152

***Metodik vəsaitdə verilən bu və ya digər tövsiyələr müəllimin vasitəsilə şagirdlərin tarixi bilik və bacarıqlarının formalaşdırılıb inkişaf etdirilməsinə hesablanmışdır.***

## DƏRSLİK VƏ MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT HAQQINDA

Sizə təqdim etdiyimiz XI sinif üçün Ümumi tarix dərslik komplekti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) əsasında hazırlanmışdır. Dərslik komplekti özünün funksiyasına, məzmun və strukturuna görə fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış, nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izahı verilməklə təqdim olunmuşdur.

Dərsliklərin komplekt şəkildə nəşr olunması təhsil prosesində müəllim-şagird fəaliyyətinin tam təsəvvür olunmasını və üzvi şəkildə əlaqələndirilməsini təmin edir, müəllimin planlaşdırmadan qiymətləndirməyə qədər bütün fəaliyyətini istiqamətləndirir, təlim prosesində şagirdlərin müstəqilliyinin və tətbiq bacarıqlarının genişlənməsinə imkan yaradır. Bu baxımdan şagirdlər məlumatlar əldə etmək üçün axtarışlara cəlb olunur, müstəqil surətdə tədqiqatlar aparır, bunun üçün onlara fəal təlim şəraiti yaradılır. Şagirdlərin fərdi marağı nəzərə alınmaqla onlarda zəruri həyati bacarıqların formalaşdırılmasına, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə imkan yaradılır, təlimə maraq artırılır.

Ümumi tarix fənni üzrə XI sinif dərsliyi şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün, sadədən mürəkkəbə doğru inkişafın, fənnin tədrisində yeni texnologiya və kommunikasiya vasitələrinin tətbiq olunması bacarıqlarının inkişafını ön plana çəkir. Dərslik şagirdlərdə tədqiqatçılıq bacarığı, fikirlərini ümumiləşdirərək təqdimatlar etmək, qanunauyğunluqlara əsasən proqnoz vermək, müxtəlif hadisə, proses və təzahürlərlə bağlı oxşarlıq və fərqli cəhətləri özündə əks etdirən cədvəllər, qrafiklər hazırlamaq, esse yazmaq, kontur xəritələr üzərində işləmək, tarixdə baş verən hadisə və prosesləri təhlil edib qiymətləndirmək bacarığı formalaşdırır.

Dərslik komplektində Ümumi tarix üzrə təhsil proqramında (kurikulumunda) nəzərdə tutulmuş bütün məzmun standartları reallaşdırılmış, faktların dəqiqliyi, əyaniliyi, müasirliyi, qrammatik qaydaların gözlənilməsi ön plana çəkilmişdir. Təlim materiallarında sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmışdır. Dərslikdə öz əksini tapmış təlim materiallarının yaş səviyyəsinə uyğunluğu və anlaşıqlı olması diqqətdə saxlanılmışdır.

Ən zəruri informasiyalar, tapşırıq, sual və çalışmaları özündə əks etdirən 11-ci sinif Ümumi tarix dərsliyi istiqamətverici, yönəldici, düşündürücü funksiyaları özündə birləşdirir. Dərslikdə artıq informasiya yükünə yer verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuşdur. Sadədən mürəkkəbə, xronoloji və məntiqi ardıcıllığı nəzərə almaqla, dərslik 24 paraqrafı özündə birləşdirən 3 bölmədən ibarət tərtib edilmişdir. Paraqraflar tərtib olunarkən standartlar və onların reallaşdırılması üçün mənbələr, xəritələr, illüstrasiyalar, sxemlər, cədvəllər, sual və tapşırıqlar və s. vasitələr nəzərə alınmışdır. Metodik vəsaitin hazırlanmasında standartlar, inteqrasiya cədvəli, dərslərin icmalı, interaktiv dərs nümunələri, qiymətləndirmə və qiymətləndirmə vasitələri öz əksini tapmışdır.

Bununla yanaşı, sizə dərslik və metodik vəsaitin hazırlanmasında istifadə edilmiş mənbə və ədəbiyyatlar, internet resurslarının siyahısı təqdim edilmişdir. Tərtib edilmiş paraqrafla-

rın hər biri qruplaşdırılmış, forma və üsullar təqdim olunmuş, işin texnologiyasına aydınlıq gətirilmiş, dərslikdən istifadənin bütün mexanizmləri işıqlandırılmışdır. Metodik vəsaitdə həmçinin istifadə edilmiş resursların, eləcə də istifadəsi mümkün olan resursların siyahısı göstərilmişdir. Bir sözlə, dərslik komplektinə daxil olan dərslik və müəllim üçün metodik vəsait dövlətin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təhsil siyasətinin həyata keçirilməsi istiqamətində tələbləri maksimum səviyyədə gözləməklə tərtib olunmuşdur.

**Şərti işarələr**

S — **Sual**
T — **Tapşırıq**
A — **Araşdırma**

## TARİX FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ
## ÜMUMİ MÜDDƏALAR

Müasir dövrdə dünyada bir çox sahələrdə olduğu kimidir, təhsil sahəsində də yeni çağırışlar aktualdır. Təhsil sahəsi də yeni dövrlə ayaqlaşmalı və texnologiyalara adekvat qurulmalıdır. Digər fənlər kimi tarixin tədrisində də yeni dövrün tələbləri nəzərə alınmalıdır. Tarix hadisə və proseslərin, tarixi şəxsiyyətlərin fəaliyyətinə aid faktların yadda saxlanılması deyil, onların müqayisə edilməsi, təhlili və dəyərləndirilməsidir. Ona görə də Tarix fənninin tədrisinin müasir tələblərə uyğunlaşdırılması zəruridir. Bu istiqamətdə ən vacib amillərdən biri də tədris prosesinin əsas resurslarından biri olan dərsliklərin məzmun və forma baxımdan təkmilləşdirilməsi, onların yalnız bilik mənbəyi deyil, həmçinin bacarıq və dəyərlər aşılamaq üçün vasitə olması diqqətdə saxlanılmışdır. Bu modelin əsasını tarixi hadisə, təzahür və proseslərə aid məlumatları, anlayışları və dəyərləri qazandırmaqla yanaşı, şagirdlərə lazım olan və həmişə istifadə edə biləcəkləri müqayisə, təhlil, ümumiləşdirmə və nəticəyəgəlmə bacarıqları qazandırmaq təşkil edir. Beynəlxalq təcrübə şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırmağı hədəfləyir:

- tarixi hadisə, proses və təzahürləri araşdırmaq, nəticələrini təqdim etmək;
- tarixi mənbələri təsnif etmək, orada verilən məlumatları anlamaq, analiz etmək, sintez etmək və dəyərləndirmək
- tarixi hadisələri müvafiq dövrün tarixi şərtləri əsasında dəyərləndirmək və bu günü anlamaqda ondan istifadə etmək
- müəyyən tarixi hadisə və proseslə bağlı məlumatları sistemləşdirmək, yəni səbəb-nəticə əlaqəsini təsbit etmək
- təhlil və sintezə əsaslanan şifahi və yazılı təqdimat hazırlamaq

# ÜMUMİ TARİX FƏNNİNİN TƏDRİSİNİN MƏQSƏDLƏRİ

Ümumi tarix fənninin ümumtəhsil məktəblərində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, dünya xalqlarının adət-ənənələrinə, bəşəri dəyərlərə əsaslanan, dünya tarixinin keçmişinə, dünəninə və bu gününə dərindən yiyələnən, beynəlxalq münasibətlərdən düzgün qiymətləndirən vətəndaş tərbiyə etməyə xidmət edir.

Ümumi tarix fənni şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarığının formalaşmasına xidmət edir. Ümumi tarix fənni üzrə təhsil proqramının (kurikulumun) əsas cəhətlərindən biri kimi nəticəyönümlülük şagird fəaliyyətinin ardıcıl izlənilməsini, onun nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini təmin edir, şagirdlərə gündəlik həyatda lazım olan zəruri bacarıqların aşılanmasını və onun ardıcıl olaraq inkişaf etdirilməsini ön plana çəkir, təlim prosesi ilə gözlənilən nəticə arasında qarşılıqlı əlaqə üçün zəmin yaradır.

Bu məqsədlərin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi vacib hesab edilir:

- tarixi hadisələrin, həmçinin müasir həyatda baş verən ictimai hadisələrin dərk, təhlil və təsnif edilməsi;
- milli-mənəvi dəyərlərdən, mədəni irsdən istifadə etməklə daxili potensialın zənginləşdirilməsi və onların gələcək nəsillərə ötürülməsi;
- dövlətçilik ənənələrinə istinad olunması, ölkəmizin müstəqil dövlət quruculuğunda şüurlu və məsuliyyətli vətəndaş kimi iştirak etməsi;
- dünya tarixində baş vermiş hadisələr nəzərə alınmaqla milli mənafenin və maraqların qorunması;
- müxtəlif mənbələri təhlil etməklə onlardan nəticələrin çıxarılması, sosioloji məlumatlar üzərində işin təşkili, sosial, iqtisadi, mədəni problemlərin tarixi baxımdan inkişafının digər fənlərlə əlaqədə izlənilməsi;
- tarixi hadisələrin qarşılıqlı əlaqələrini təhlil etməklə məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi.

## ÜMUMİ TARİXİLƏ BAĞLI ÜMUMİ TƏLİM NƏTİCƏLƏRİ

Tam orta təhsil səviyyəsi üzrə Ümumi tarixlə bağlı ümumi təlim nəticələrini aşağıdakı kimi formalaşdırmaq olar:

1. Qədim insan məskənlərinin yaranma zamanını və yerini bilir. Dövlət və dövlətçiliyin inkişafının tarixi mərhələlərini, dünya tarxinin inkişafına təsir göstərən hərbi-siyasi hadisələri, tarixi şəxsiyyətləri, ümumdünya mədəni-tarixi proseslərə təsir göstərən

kəşfləri və naliyyətləri, insanların, sivilizasiyaların yarışına dair əsas elmi nəzəriyyələri, ümumdünya tarixi ilə bağlı ümumiləşdirilmiş elmi əsərləri sadalayır;

2. Tarixin müxtəlif dövrlərində yaranmış sivilizasiyaların xarakterik cəhətlərini, dövlətlərin və onların həyatlarında baş verən önəmli hadisələrin mahiyyətini izah edir. Dövlət və dövlətçiliyin formalarını, sivilizasiyaların inkişafına təbii-coğrafi şəraitin təsirini, dünya tarixinin inkişafında mühüm rol oynamış hərbi-siyasi hadisələri, ümumdünya tarixi-mədəni proseslərə təkan verən tarixi kəşfləri və naliyyətləri, tarixin müxtəlif mərhələlərində ictimai-siyasi, sosial-iqtisadi və mədəni dəyişikliklərə səbəb olan daxili və xarici amilləri, tarixi inkişafa şəxsiyyətlərin təsirini, dünyada sülhün və əmin-amanlığın qorunması üçün bəşəri dəyərlərin əhəmiyyətini anlayır;
3. Tarixin müxtəlif dövrlərində dünyada yaranmış sivilizasiya ocaqları, dövlətin formaları və baş verən hadisələri öyrənərək tarixi təfəkkürün formalaşmasında istifadə edir. Dünya sivilizasiyalarının xarakterik cəhətlərini, müxtəlif tarixi zamanda dünyada baş verən ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafının xüsusiyyətlərini və bu inkişafda tarixi şəxsiyyətlərin rolunu müəyyənləşdirib tarixi paralellər apararaq tətbiq edir;
4. Ümumdünya tarixinin müxtəlif inkişaf yollarını, onun oxşar və fərqli cəhətlərini müqayisə edir. Tarixin müxtəlif dövrlərində ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafa, tarixi hadisə, proses və təzahürlərə müxtəlif amillərin təsirini, səbəb və nəticə əlaqələrini, tarixi şəxsiyyətlərin fəaliyyətini təhlil edir;
5. Tarixin müxtəlif dövrlərində yaranmış dövlətlərin inkişafına, tarixi-coğrafi, ictimai-siyasi, sosial-iqtisadi və mədəni faktorların təsirini qiymətləndirir. Dünya tarixinin inkişafına təsir göstərən hərbi-siyasi hadisələri, tarixin inkişafında xüsusi rolu olmuş şəxsiyyətləri, mədəni və elmi nailiyyətləri tarixi mənbə və elmi əsərlərdən dəlillər gətirməklə dəyərləndirir;
6. Tarixi inkişafın qanunauyğunluqlarını, özünəməxsusluğunu sintez edir. Tarixin müxtəlif dövrlərində yaranan ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslərin formalarını, tarixi şəxsiyyətləri, tarixi-mədəni tərəqqiyə təsir göstərən naliyyətləri müqayisə edib plan tərtib edir.

Beləliklə, bu konsepsiyanın yazılmasında əsas məqsəd yeni təhsil proqramının (kurikulum) tələblərini nəzərə almaqla yuxarıda sadalanan məsələləri özündə əks etdirən, şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə yönəlik və faktoloji materialların daha az olduğu yeni bir dərslik layihəsi hazırlamaqdır.

**Tam orta təhsil səviyyəsinin sonunda şagird:**

- mənbələr əsasında müxtəlif tarixi hadisələri təhlil edir, onların arasındakı oxşarlıq və ziddiyyətlərin səbəblərini izah edir, konkret tarixi hadisələrə dair əlavə məlumat toplayır, onları sistemləşdirir və təqdim edir, şəxsi mülahizələri əsasında referat, məruzə və tezislər hazırlayır;
- dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə tarixi kontekstdə müqayisə edir, təhlillər aparır və öz mülahizələrini bildirir;

- tarixi mövzulardakı dialoqlarda, keçmiş və müasir dövrün hadisə və proseslərinin müzakirəsində öz mövqeyini bildirir və əsaslandırır;
- cəmiyyətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirir, onlara öz münasibətini bildirir;
- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə edir, onların xarakterik cəhətlərini izah edir;
- tarixi proseslər və hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirir;
- müasir dövrün qlobal problemlərini şərh edir, onların aradan qaldırılması ilə bağlı öz fərziyyələrini bildirir.

## XI SİNİF ÜMUMİ TARİX FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**XI sinfin sonunda şagird:**

- ölkədə baş verən siyasi, sosial-iqtisadi və mədəni faktları onun inkişafının müəyyən dövrü ilə əlaqədə dəyərləndirir;
- dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir;
- ölkə və xalqların həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir;
- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində dövlətin rolunu qiymətləndirir;
- tarixi şəxsiyyətləri mənsub olduqları ölkənin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir;
- aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində mədəniyyətin inkişafını və mədəniyyətlərarası münasibətləri qiymətləndirir.

### Məzmun xətləri üzrə əsas və alt-standartlar

### 1. Tarixi zaman

***Şagird:***

*1.1. Tarixi faktları tarixi zamanla əlaqədə qiymətləndirir.*

1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.

## 2. Tarixi məkan

***Şagird:***

*2.1 Məkanda baş verən hadisə, proses və təzahürlərlə bağlı bilik və bacarıqlarını nümayiş etdirir.*

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl, diaqram) təqdim edir.

## 3. Dövlət

***Şagird:***

*3.1. Dövlətlərin inkişafını siyasi, sosial-iqtisadi münasibətlərin xarakterinə görə qiymətləndirir.*

3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri (Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, ərəb ölkələri) siyasi quruluşuna, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat və tezislər hazırlayır.

## 4. Şəxsiyyət

***Şagird:***

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Tarixi şəxsiyyətləri (I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napoleon, I Aleksandr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev) mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında araşdırmalar aparır, təqdimatlar edir.

## 5. Mədəniyyət

***Şagird:***

*5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətin inkişafına təsirini izah edir.

5.1.2. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.

5.1.3. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair referat və tezislər hazırlayır.

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ZƏRURİLİYİ

İnteqrasiya müasir təlimin əsas prinsipi kimi öz aktuallığını qoruyub saxlamaqdadır. Tarix fənninin tədrisində də fəndaxili və fənlərarası əlaqələrin tətbiqi əsasdır və təlimin interaktivliyini təmin etmək üçün başlıca amildir.

Ənənəvi təlimdə daha çox şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunurdu. Nəticədə şagirdlər həyatda onlara lazım olmayan məsələləri də öyrənməli olurdular. İnteqrativ tədris isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlama, birbaşa şəxsi iştirak daxildir. Bu cür yanaşma şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyyəsində dəyərli əlaqələr yaratmaqda köməklik göstərir.

İnteqrasiya necə həyata keçirilməlidir? İnteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında həyata keçirilir. Burada bir fakt haqqında biliyə həmin fakt haqqında başqa fənlərdə verilən məlumat əlavə olunur. Müasir dövrdə inteqrasiyaya tamamilə başqa cür yanaşılır. Digər fənlərdə olduğu kimi, tarix fənn kurikulumunda da inteqrasiya fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Belə ki ümumi orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlarla tam orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlar məzmun etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

Tarix fənninin tədrisi prosesində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə fənn daxilində (şaquli və üfüqi) inteqrasiya, ikinci tipə isə fənlərarası (şaquli) inteqrasiya daxildir. Birinci tip inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

- ✓ fraqmentləşdirilmiş (hissələrə bölünmüş) inteqrasiya;
- ✓ əlaqəli inteqrasiya;
- ✓ sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) inteqrasiya.

Kurikulumun ənənəvi planlaşdırma və təşkili modeli olan fraqmentləşmiş inteqrasiya digər fənlərdə olduğu kimi, Ümumi tarixin də müstəqil tədris sahəsidir. Ümumi orta və tam orta təhsil pillələrində Ümumi tarix ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentlənmə olmasına baxmayaraq, Ümumi tarix fənni daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzularının, bacarıqların və konsepsiyaların sıra ilə qeyd olunması və dəyərləndirilməsi ilə başlana bilər. Məsələn, 11-ci sinifdə SSRİ dövlətləri mövzusu bu qəbildəndir. Belə ki müxtəlif tarixi dövrlərdə Azərbaycanın bir sıra əraziləri bu imperiyaların tərkibində olduğundan o dövlətlərdə baş vermiş hadisə və təzahürlərdə oxşarlıq çoxdur. Bu mövzuların inteqrasiyası şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı,

hadisə və təzahürlər arasında oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə imkan verir. Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər.

Əlaqəli inteqrasiya modeli Ümumi tarixi fənni daxilində diqqəti mövzulara, bacarıqlara və konsepsiyalara yönəldir. Bu modeldə fənn daxilindəki mövzular, bacarıqlar və konsepsiyalar arasındakı əlaqələr aydın şəkildə qurulur. Məsələn, insanlar arasında bərabərsizliyin yaranmasının nəticəsi olaraq sosial qrup və təbəqələrin meydana çıxması ilk dövlət qurumlarının və dövlətlərin yaranması ilə, onlar da xalqın fiziki və mənəvi varlığının qorunması üçün tariximizin bütün mərhələlərində müstəqil dövlətçiliyə malik olmaq və s. ilə əlaqələndirilir. Bu modelin üstünlüyü ondadır ki, hər bir sinifdə, hər bir təhsil mərhələsində dövlətçilik və onun qorunması konsepsiyası əlaqələndirilir, sistemləşdirilir və genişləndirilir. Bu isə fənn daxilində mövzuların və bacarıqların əvvəlkilərə istinad olunaraq yenidən nəzərdən keçirilməsinə və mənimsənilməsinə gətirib çıxarır.

Sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) modelə çox vaxt “yuva” modeli də deyirlər. Ümumi tarixin inteqrativ kurikulumunda bu modeli açıq şəkildə əlaqələndirmələrin və ya kombinasiyaların qurulması yolu ilə tətbiq etmək mümkündür. Bu modelin tətbiqi əsas diqqətin fənnin daxilində çoxşaxəli bacarıqlara *(sosial bacarıq, düşünmə bacarığı və məqsədyönümlü bacarıq)* yönəldilməsinə şərait yaradır. Məsələn, müəllim Qərbi Avropada və Rusiyada təhkimli kəndli əməyindən istifadəni şagirdlərin diqqətində saxlamaqla yanaşı, onlara “mərkəzləşdirilmiş dövlətlə digər dövlətlərin fərqi” mövzusunda esse yazılmasına nail ola bilər. Bu modelin tətbiqi eyni vaxtda müxtəlif sahələrə diqqətin yönəldilməsinə, əhatəli və məqsədyönümlü bilik əldə olunmasına şərait yaradır.

İnteqrasiyanın ikinci tipi fənlər arasında tətbiq olunur. Bu zaman Ümumi tarix fənninin ümumi orta və tam orta təhsil səviyyəsində Azərbaycan dili, Azərbaycan tarixi, Coğrafiya, Ədəbiyyat, Xarici dil və s. fənlər ilə inteqrasiyası mümkündür. Ümumi tarixinin inteqrativ kurikulumunda fənlər arasında inteqrasiyasının aşağıdakı modellərini tətbiq etmək mümkündür:

- ardıcıl (sıralanmış model);
- ümumi (ortaq model);
- zəncirvari (hörülmüş) model.

Ümumi tarix fənninin Azərbaycan tarixi fənni ilə inteqrasiyası daha çox ardıcıl *(sıralanmış)* modelin tətbiqi nəticəsində mümkündür. Bu fənlərdə çoxlu oxşar bölmələr və mövzular vardır ki, onlar ayrı-ayrılıqda tədris olunur. Lakin onları elə planlaşdırmaq olar ki, *(bunun üstün cəhəti həmin fənlərin eyni müəllim tərəfindən tədris olunmasıdır)* əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar eyni çərçivədə yaransın və eyni vaxtda öyrənilsin.

Ümumi model iki müxtəlif fənni vahid istiqamət üzrə bir araya gətirir. Ümumi model üzrə yanaşmaya əsasən inteqrasiya apara bilmək üçün fənn müəllimləri təlim prosesinə fənlərarası mövqedən yanaşaraq fənbirləşmə yığıncaqlarında əsas konsepsiyaları, bacarıq və dəyərləri müəyyənləşdirirlər. Bu daha çox Tarix və Ədəbiyyat fənlərinin tədrisində mümkündür.

Zəncirvari model tarixin tədrisində inteqrasiya kurikulumun tələbinə görə fənlərarası standartların üst-üstə düşən konsepsiyaları və onların məlum olan xüsusiyyətləri əsasında tətbiq olunur. Bu model ortaq (ümumi) modellə oxşardır. Lakin model elm sahələri üzrə üst-üstə düşən bacarıqlar, konsepsiyalar və dəyərlər üzərində qurulur. Bu model fənn sahələrini sinergetik birləşdirir, yəni bir fənn üzrə biliklər digər fəndən ayrılmır, bölünmə yalnız fərqləndirilən məzmunun və ya anlayışın tədrisində baş verir. Bu model inteqrasiyaedilən fənlərinin məzmunundan əlaqəli fikirləri seçib ayırmaq nəticəsində yaranır.

## XI SİNİF ÜMUMİ TARİX FƏNNİ ÜZRƏ ALT STANDARTLARIN İNTEQRASİYA İMKANLARI

| Tarixi zaman | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir. | Azərbaycan tarixi (Az.t.) 1.1.1.<br>Azərbaycan dili (A.d.) 1.1.2.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Xarici dil (X.d.) 1.1.2. |
| 1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir. | Azərbaycan tarixi (Az.t.) 1.1.2.<br>Azərbaycan dili (A.d.) 1.1.2.<br>Ədəbiyyat (Əd.) 2.1.1.<br>Xarici dil (X.d.) 2.1.1.<br>İnformatika (İnf.) 3.2.4. |
| 1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir. | Azərbaycan tarixi (Az.t.) 1.3.1.<br>Azərbaycan dili (A.d.) 1.2.2.<br>Ədəbiyyat (Əd.) 2.2.1. |
| 1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir. | Azərbaycan tarixi (Az.t.) 2.1.2.<br>Coğrafiya (Coğ.) 1.3.2.<br>İnformatika (İnf.) 2.2.2. |
| **Tarixi məkan** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir. | Azərbaycan tarixi (Az.t.) 2.1.1.<br>Azərbaycan dili (A.d.) 1.1.1., 1.2.2.<br>Ədəbiyyat (Əd.) 1.1.3.<br>Coğrafiya (Coğ.) 3.2.2.<br>Xarici dil (X.d.) 3.1.3. |
| 2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda *(xəritə, sxem, cədvəl, diaqram)* təqdim edir. | Azərbaycan tarixi (Az.t.) 2.1.2.<br>Coğrafiya (Coğ.) 3.2.2. |

| Dövlət | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri *(Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, ərəb ölkələri)* siyasi quruluşuna, aqrar *(ənənəvi)*, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir. | Azərbaycan tarixi (Az.t.) 3.1.1.<br>Azərbaycan dili (A.d.) 1.1.2., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 1.1.5.<br>Coğrafiya (Coğ.) 1.2.1.<br>Xarici dil (X.d.) 3.1.3. |
| 3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir. | Azərbaycan tarixi (Az.t.) 3.1.2.<br>Azərbaycan dili (A.d.) 1.2.4.<br>Ədəbiyyat (Əd.) 1.2.4.<br>Xarici dil (X.d.) 2.1.1. |
| 3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat və tezislər hazırlayır. | Azərbaycan tarixi (Az.t.) 3.1.3.<br>Azərbaycan dili (A.d.) 2.2.3.<br>Xarici dil (X.d.) 4.1.4.<br>İnformatika (İnf.) 2.2.2. |

| Şəxsiyyət | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 4.1.1. Tarixi şəxsiyyətləri (I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napoleon, I Aleksandr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev) mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir. | Azərbaycan tarixi (Az.t.) 4.1.1.<br>Azərbaycan dili (A.d.) 2.1.2.<br>Ədəbiyyat (Əd.) 1.2.2.<br>Xarici dil (X.d.) 2.1.1. |
| 4.1.2. Tarixi şəxsiyyətlər haqqında araşdırmalar aparır, təqdimatlar edir. | Azərbaycan tarixi (Az.t.) 4.1.2.<br>Azərbaycan dili (A.d.) 1.2.2.<br>İnformatika (İnf.) 3.1.2.<br>Xarici dil (X.d.) 2.1.2. |

| Mədəniyyət | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 5.1.1. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətin inkişafına təsirini izah edir. | Azərbaycan tarixi (Az.t.) 5.1.1.<br>Azərbaycan dili (A.d.) 1.2.3.<br>Ədəbiyyat (Əd.) 1.1.5.<br>Xarici dil (X.d.) 3.1.3. |

| | |
|---|---|
| 5.1.2. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır. | Azərbaycan tarixi (Az.t.) 5.1.2.<br>Azərbaycan dili (A.d.) 1.2.1., 1.2.2.<br>Ədəbiyyat (Əd.) 1.1.4.<br>Xarici dil (X.d.) 1.1.2. |
| 5.1.3. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair referat və tezislər hazırlayır. | Azərbaycan tarixi (Az.t.) 5.1.3.<br>Azərbaycan dili (A.d.) 1.2.4.<br>İnformatika (İnf.) 3.1.2.<br>Xarici dil (X.d.) 2.1.2. |

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu üzə çıxaran ən etibarlı mənbədir. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan bir prosesdir. Təlim prosesinin təkmilləşdirilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində də qiymətləndirmə bir mexanizm kimi əvəzolunmaz mövqeyə malikdir. Bu sistem hüquqi cəhətdən “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1633 nömrəli Fərmanının 3-cü hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının *(məktəbdaxili qiymətləndirmənin)* aparılması Qaydası" ilə tənzimlənmişdir.

Qiymətləndirmənin ən əhəmiyyətli növü məktəbdaxili qiymətləndirmədir. Məktəbdaxili qiymətləndirmə məzmunca öyrənənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir, şagird irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi); təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir.

### Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:

- təlim nəticələrinin və standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- şagirdlərin təlimə marağını yüksəltmək;
- şagirdlərin güclü və zəif cəhətlərini müəyyən etmək;
- şagirdlərin nailiyyətlərini dəyərləndirmək;
- şagirdlərin nələrə nail olduğuna əmin olmaq;
- şagirdlərin gələcək uğurlarının maksimallaşdırılması.

**Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:**

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

**Prosesin tamlığı üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi biri digərinin mövcudluğunu təmin edən və aparılmasına zəmin yaradan üç növü üzrə həyata keçirilir:**

- diaqnostik *(ilkin səviyyənin qiymətləndirilməsi)*;
- formativ *(irəliləmə və geriləmələrin izlənməsi)*;
- summativ *(yekun)*.

## QİYMƏTLƏNDİRMƏNİN ÜSUL VƏ VASİTƏLƏRİ

Hər bir fənn kurikulumunda məzmun standartları və onların mənimsənilməsi üçün istifadə edilən startegiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə olunur.

Fənn kurikulumlarında təyin edilmiş standartlar olmadan şagirdlərin kurikulum üzrə fəaliyyətini qiymətləndirmək üçün tələb olunan vasitələri hazırlamaq mümkün deyil. Fənlərin məzmun standartlarının təsis edilməsində əsas məqsəd bu standartların tələbinin hər bir şagird tərəfindən mənimsənilməsi istiqamətində təlim məqsədlərinin təyin edilməsidir.

Xüsusi qeyd etmək lazımdır ki, qiymətləndirmə vasitələri *(eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, yardımçı tədris materialları)* nümunələrə və müvafiq təlimatlara əsasən müəllimlər tərəfindən hazırlanır, məktəbin rəhbərliyi tərəfindən təsdiq edilir. Qiymətləndirmə vasitələrinin hazırlanması zamanı əvvəlcə qiymətləndirmənin hansı növünün aparılması müəyyənləşdirilməlidir, yalnız bundan sonra prosesi icra etmək olar. Vasitələr qiymətləndirmənin hər bir növü üzrə *(diaqnostik, formativ, summativ qiymətləndirmə)*, onların məzmununa uyğun aparılmalıdır ki, nəticədə qarşıya qoyulmuş məqsədə çatmaq mümkün olsun.

Hörmətli müəllimlər! 6-7 və 10-cu sinif Ümumi tarix metodik vəsaitlərinin (Elnur Hüseynov, Niyaməddin Quliyev, Pərviz Ağalarov, *Ümumi tarix 6, Metodik vəsait, Bakı, "Şərq-Qərb" 2021., Elnur Hüseynov, Niyaməddin Quliyev, Pərviz Ağalarov, Ümumi tarix 7, Metodik vəsait, Bakı, "Şərq-Qərb" 2022, Elnur Hüseynov, Niyaməddin Quliyev, Pərviz Ağalarov, Ümumi tarix 10, Metodik vəsait, Bakı, "Şərq-Qərb" 2022*) yazılması zamanı məktəbdaxili qiymətləndirməni üsul və vasitələrindən olan qrup qiymətləndirmə vərəqi, şagirdin özünüqiymətləndirmə vərəqi, şagirdlərin qarşılıqlı qiymətləndirmə vərəqi, diskussiyanın qiymətləndirilməsi, dəyərlərin qiymətləndirilməsi, qısa cavablı tapşırıqlar, çoxseçimli

(test) tapşırıqları, uyğunlaşdırma *(qarşılaşdırma)* tapşırıqları, doğru-yanlış cavablı tapşırıqlar, açıq cavablı tapşırıqlar, şifahi sual-cavab, müşahidə, müşahidə vərəqləri, yoxlama vərəqləri kimi nümunələr, eləcə də diaqnostik, formativ və summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr haqqında sizə kömək məqsədilə bir sıra tövsiyə məlumatlar vermişik. Dərslərinizi quran zaman bu məlumatlar sizə kömək edə bilər.

## TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmə istedadına malik olmalıdır.

Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

- təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;
- məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;
- məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;
- məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi *(deklarativ, prosedural, kontekstual)*;
- məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi *(idraki, emosional, psixomotor)*;
- hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçülə bilən olması;
- təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvari, iyerarxiya üzrə inkişafı əks etdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri qruplaşdıran zaman sadədən mürəkkəbə prinsipi nəzərə alınmalıdır. Təlim məqsədlərinin, standartların *(məzmun və qiymətləndirmə)* və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

- idraki (təfəkkür, koqnitiv);
- emosional (hissi, affektiv);
- psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxik – pilləli, əlaqəli və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir.

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

| Bilmə | Şagird |
|---|---|
| Bu kateqoriya öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsi, yada salınmasıdır. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | istifadə olunan terminləri bilir;<br>konkret faktları bilir;<br>proseduru və metodları bilir;<br>əsas anlayışları bilir;<br>prinsipləri və qaydaları bilir. |
| **Anlama** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş biliyin əhəmiyyətini başa düşməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata *(nəticənin izahı)* keçməkdir. Tədrisin belə nəticələri dərs materialının yadda saxlanılmasından üstündür. | prinsipləri, qaydaları və faktları başa düşür;<br>materialı öz sözləri ilə izah edir;<br>sxemləri, diaqramları izah edir;<br>materialın sözlərlə izahını başqa anlayışlarla əvəz edə bilir;<br>əldə edilmiş biliklərdən istifadə etməklə gələcəkdə əldə edilə bilən nəticəni təsvir edir. |
| **Tətbiqetmə** | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura prinsip, qanun, metod və üsulların tətbiqi daxildir. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun daha yüksək səviyyədə nəticələrindən istifadə etmək qabiliyyətidir. | yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |
| **Təhliletmə** | **Şagird** |
| Bu kateqoriya tədris materialını əsas hissələrə ayırmaq, onun strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması, bütövün təşkili prinsiplərinin başa düşülməsidir. Bu zaman tədrisin nəticələri, sadəcə, başa düşmək və tətbiq etmək deyil, daha yüksək intellektual səviyyəyə uyğun olur. | gizli, gözə görünməyən təsəvvürləri açıqlayır;<br>məntiqi izahatda səhvləri və unudulmuşları görür;<br>faktlar və nəticələr arasında fərqi üzə çıxarır;<br>dəlillərin əhəmiyyətini qiymətləndirir. |
| **Sintez** | **Şagird** |
| Bu kateqoriya elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq, yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | kiçik yaradıcı xarakterli inşa yazır;<br>eksperimentin həyata keçirilmə planını təklif edir;<br>müəyyən problemin həllində plan hazırlamaq üçün müxtəlif bilik sahələrindən istifadə edir. |

| Dəyərləndirmə | Şagird |
|---|---|
| Bu kateqoriya bu və ya digər materialın əhəmiyyətini qiymətləndirmə, əsaslandırma və onun izahı bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyalar şagirdin özü tərəfindən və ya müəllim tərəfindən müəyyənləşdirilə bilər. | materialın məntiqi quruluşunu qiymətləndirir: nəticələrin faktlara əsaslanmasını qiymətləndirir; bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

| İdraki bacarıqlar | Təfəkkürün inkişaf mərhələləri |
|---|---|
| BİLMƏ | xatırlamaq, tanımaq, göstərmək, sadalamaq, adlandırmaq |
| ANLAMA | izah etmək, nümunə göstərmək, öz sözləri ilə təsvir etmək, fərqləndirmək |
| TƏTBİQETMƏ | həll etmək, istifadə etmək, cümlə qurmaq |
| TƏHLİLETMƏ | hissələrə ayırmaq, struktur müəyyənləşdirmək, müqayisə etmək |
| SİNTEZ | yaratmaq, plan tutmaq, tərtib etmək |
| DƏYƏRLƏNDİRMƏ | münasibət bildirmək, qərar qəbul etmək |

Praktika göstərir ki, indiyə qədər də müəllimlər formativ qiymətləndirmə zamanı çox vaxt şagirdləri səviyyələr üzrə qiymətləndirərkən çətinlik çəkirlər.

Hörməli müəllimlər! Deyilənləri nəzərə alaraq sizlərə taksonomiyalar əsasında aşağıdakı formada şagirdlərin dərs prosesində səviyyələr üzrə qiymətləndirilməsi üçün bir neçə nümunə təklif edirik. Onu da deyək ki, mövcud olan standartlar heç də həmişə aşağıdakı nümunə formasında şagirdləri qiymətləndirməyə imkan vermir. Bununla belə inanırıq ki, təqdim etdiyimiz nümunə sizə, dərs proseində şagirdləri formativ qiymətləndirən zaman kömək edəcəkdir.

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsini tanıyır. | Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə nümunə göstərir. | Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə müqayisə edir. | Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə ***dəyərləndirir***. |

Cədvəldən görünür ki, IV səviyyədə 1.1.1. standartını nümunə olaraq vermişik. Əslində, bu yerdə sizin keçəcəyiniz dərsiniz üçün standarta əsaslanan məqsədiniz olmalıdır.

IV səviyyə taksonomiyanın DƏYƏRLƏNDİRMƏ səviyyəsini özündə əks etdirir. Belə olan halda, biz taksonomiyaya əsaslanaraq şagirdləri TƏHLİLETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun qiymətləndirməni tövsiyə olaraq təqdim edirik.

11-ci sinif Ümumi tarix fənninin 1.1.2. standartının qiymətləndirilməsinə aid nümunə:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından izah edir. | Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından həll edir. | Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsinin strukturunu müəyyənləşdirir. | Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından ***qiymətləndirir***. |

Cədvəldən göründüyü kimi IV səviyyədə 1.1.2. standartı əsasında nümunə vermişik. IV səviyyə taksonomiyanın DƏYƏRLƏNDİRMƏ səviyyəsini özündə əks etdirir. Belə olan halda biz taksonomiyaya söykənərək şagirdləri TƏHLİLETMƏ (III səviyyə), TƏTBİQETMƏ (II səviyyə), ANLAMA (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirməyi məqsədəmüvafiq hesab etmişik.

11-ci sinif Ümumi tarix fənninin 3.1.3. standartına aid nümunə:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dövlətlərin tarixinə dair mənbələri tanıyır. | Dövlətlərin tarixinə dair mənbələrdəki məlumatları öz sözləri ilə təsvir edir. | Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referatın strukturunu müəyyənləşdirir. | Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat ***hazırlayır***. |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 3.1.3. standartına uyğun nümunə vermişik. Bu nümunədə də şagirdləri taksonomiyanın BİLMƏ (I səviyyə), ANLAMA (II səviyyə), TƏHLİLETMƏ (III səviyyə) və SİNTEZ səviyyəsinə uyğun qiymətləndirməyi məqsədəmüvafiq bilmişik.

11-ci sinif Ümumi tarix fənninin 4.1.2. standartına aid nümunə:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tarixi şəxsiyyətləri adlandırır. | Tarixi şəxsiyyətləri nümunə göstərir. | Tarixi şəxsiyyətləri müqayisə edir. | Tarixi şəxsiyyətlər haqqında araşdırmalar aparır, ***təqdimatlar edir***. |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 4.1.2. standartına uyğun nümunə vermişik. IV səviyyə taksonomiyanın DƏYƏRLƏNDİRMƏ səviyyəsini özündə əks etdirir. Belə olan

halda biz taksonomiyaya söykənərək şagirdləri TƏHLİLETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirməyi məqsədəmüvafiq hesab etmişik.

## İNTERAKTİV TƏDRİS FORMASI

İnteraktiv (fəal) təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsilə yanaşı, eyni zamanda kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas əlamətlərindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

İnteraktiv təlim şagirdlərin diqqət mərkəzində olduğu bir pedaqoji təcrübədir. Burada şagirdlərin yalnız nə öyrəndiklərinə deyil, necə öyrəndiklərinə diqqət yetirilir. Müəllim olaraq biz şagirdləri passiv məlumat almağa deyil, "yaxşı düşünməyə" təşviq etməliyik. Aktiv öyrənmə şagirdləri məktəbdə və ondan kənarda özünə inamlı olmağa həvəsləndirir və onların müstəqil öyrənmələrinə məsuliyyətli olmağı dəstəkləyir.

Tədqiqatlar göstərir ki, şagirdlərə, sadəcə, nəyi bilməli olduqlarını izah etməklə anlayışları ötürmək mümkün deyil. Biz onlara fikirlərini formalaşdırmaq, düşüncələrini inkişaf etdirmək üçün şərait yaratmalıyıq. Aktiv öyrənmə, dəyərləndirmə, qiymətləndirmə, təhliletmə, sintez kimi daha mürəkkəb idraki prosesləri inkişaf etdirir. Bununla yanaşı bəzi şagirdlər passiv alınan məlumatlardan öz şəxsi qənaətlərinə də gələ bilərlər. Aktiv öyrənmə yaradılan imkanlar daxilində bütün şagirdlərə bilik və bacarıqlar əldə etməyi təmin edir.

### Tarixin tədrisində interaktiv öyrənmə

Çox zaman tarixə ağır məzmunlu, çoxsaylı fakt və xronologiyanın əzbərlənməsini tələb edən fənn kimi baxılır. Məlumatlar şagirdlərə nələri bilmələri lazım olduğunu izah etməklə, ibrətamiz bir yolla, eləcə də stimullaşdırıcı vasitələrlə də öyrədilə bilər.

Özünüzə sual verin:

- Şagirdlərimə, sadəcə, faktlar təqdim etməyib, onların düşüncəsinə çağırış etdiyimə necə əmin ola bilərəm?
- Şagirdlərə tarixi məlumatları müxtəlif formatlarda təqdim edə bilərəmmi?

- Öyrənənləri əyani vasitələrə, dinləyib anlamaya, müzakirə və ya bir-biri ilə söhbət etməyə necə təşviq edə bilərəm?
- Şagirdləri aktiv iştirakçı olmağa və öyrənmələri üçün üzərlərinə daha çox məsuliyyət götürməyə, onlara məktəbi bitirdikdən sonra müvəffəq olmaları üçün lazım olacaq müstəqil bacarıqları inkişaf etdirməyə necə sövq edə bilərəm?

### Müəllimə məsləhət

Mövzu şagirdlərə maraqlı olduqda onlar daha dərindən öyrənirlər. Aktiv öyrənmə strategiyaları buna şərait yarada bilər. Öyrənənlərin mövzuya marağını və həvəsini artırmaq üçün dərsə əlavə "rəng" qatın. Şagirdlər müşahidə və ya sorğu aparmaqla fəal şəkildə öyrənirlər. Onlara öyrənmək üçün bir mövzu vermək əvəzinə "İsgəndər niyə Qavqamel döyüşündə qalib gəldi?", "Nəyə görə Qədim Misirdə vahid dövlətin yaranması ölkənin inkişafını şərtləndirdi?" kimi tədqiqata yönəlik suallar verin. Öyrənənlərin tədqiqatçılıq bacarıqları olmadığından ilk əvvəl bu çətin görünə bilər. Onlardan bir tarixi film izləmələrini istəyə bilərsiniz. Növbəti dərsinizi filmin nə qədər dəqiq olub olmadığını müzakirə etməklə başlayın. Bu, dəyər və problemlər haqqında daha geniş debatlara gətirib çıxara bilər.

Şagirdləri etibarlı internet saytlara yönəltməyiniz lazım ola bilər. Bu cür tədqiqatlar öyrənənə tarixçi üçün vacib bir bacarıq olan məlumat topladıqları məkanı tənqidi qiymətləndirməyə imkan yarada bilər. Onlar internet saytları, eləcə də digər informasiya qaynaqları haqda –"Mövcud veb saytı kim yaradıb?" və "Bu veb saytı yaratmağa onları motivasiya edən nə idi?"– düşünə bilərlər.

### İnteraktiv öyrənmə strategiyaları

Bəzən bir sorğu təqdim edərkən mövzu ilə bağlı bütün siniflə müzakirə etmək lazım gəlir. Məsələn, dərsinizi müzakirə ediləcək mövzunu əhatə edən Powerpoint təqdimatı ilə başlaya bilərsiniz. Şagirdlərə uzun bir mühazirə oxumaq nadir hallarda effektli olur, çünki onlar öyrənmə prosesində fəal iştirak etmir, əksinə, passiv dinləyici rolunda çıxış edirlər. Buna baxmayaraq, siz onların öyrənmə keyfiyyətini qiymətləndirə bilərsiniz. Buna görə, siz şagirdlərə tarixi mövzular barədə təkcə "nəql etməyi" deyil, onların öyrənmələrinə kömək edəcək aktiv mühit yaratmalısınız. Bu yaradıcı yanaşmanızı nümayiş etdirmək şansınızdır! İnteraktiv öyrənmə strategiyaları o halda yaxşı işləyir ki, öyrənənlər məlumatları fərqli bir formaya çevirirlər: məsələn, yazılı mətni götürüb afişaya çevirmək. Ən yaxşı birgə işləməkdir: indi öyrənənlərin sizə daha az ehtiyacları olduğu zaman bir-birinə dəstək olurlar.

### Vizual metafora yaratmaq üçün məsləhətlər

Mətni daha parlaq və daha duyğulu etməyə imkan verən ədəbi bir texnika olan metaforadan dərs ideyası kimi istifadə edin. Bir əşya, varlıq və hadisəyə məxsus əlamətin başqa bir əşya, varlıq və ya hadisə üzərinə köçürülməsi yolu ilə düzələn metaforadan

mətn tərtib edərkən, dərsi planlaşdıranda, müqayisələr aparanda, bənzətmələr edəndə istifadə edin.

### Debatlar qurmaq üçün məsləhətlər

Şagirdləri müzakirəyə cəlbetmənin aktiv bir yolu onlardan əsas bir məsələni müzakirə etmələrini istəməkdir. Müzakirələr şagirdləri bir yerdə işləmək, müxtəlif nəzəriyyələri eşitmək və öz şəxsi qərarını formalaşdırmaq üçün onları sintez etmək imkanı verir. Şagirdləri debata həvəsləndirmək üçün seçəcəyiniz mövzu geniş müzakirələr aparmaq üçün yararlı olmalıdır.

Bunun üçün şagirdlərinizə aşağıdakı formada müzakirə mövzusu təklif edin: "İbtidai icma cəmiyyətinin çökməsinin ən vacib səbəbi tayfa başçısının varlanmasıdır". Bu ifadə ilə nə qədər razısınız?

### Rollu oyunlar qurmaq üçün məsləhətlər

Rollu oyunlar şagirdlərə  tarixi hadisələri daha rahat öyrənə biləcəyi bir vasitədir. Tarixdən səhnələşdirilmiş rollar öyrənənlərə əsas hadisələri başa düşməyə yaxından kömək edə bilər. Əgər ağır bir mətn qavramanı çətinləşdirirsə, bu mətnin vizual hala gətirilməsi şagirdlərə qavramada kömək edə bilər.

Bunun üçün hər bir şagirdə dərsin əvvəlində əsas hadisə barədə oxumağı tapşırın. Sonra onlarda əsas obrazlar haqqında təəssürat yaradıb onlara bir ssenari yazmalarını, daha sonra bunu sinif üçün səhnələşdirilmiş bir oyuna çevirmələrini tapşırın. Bu zaman məhkəmə formatından istifadə edə bilərsiniz: bir tərəf müdafiə rolunu oynayır və digəri mühakimə edən; hər biri məhkəmyə dəlil və ya şahidlər təqdim edə bilər. Dərsin sonunda qərar qəbul edilir.

### Viktorinalar və oyunlar yaratmaq üçün məsləhətlər

Oyun oynamaq öyrənənləri həvəsləndirmək üçün əyləncəli bir yoldur. Komandalarla şagirdlərin ev tapşırığını başa düşməsini yoxlamaq üçün sürətli bir yol kimi dərsin əvvəlində söz axtarışı kimi oyunlardan, viktorinalardan, krosvordlardan istifadə edin. Bu dərsi tamamlamadan əvvəl hər hansı bir səhv düşüncəni düzəltməyə imkan verir. Eləcə də dərslərin sonunda əsas məsələləri dərk etməkdə çətinlik çəkən şagirdləri müəyyən etmək, onların öyrənmə dərəcəsini yoxlamaq üçün əla üsuldur.

Bu zaman şagirdlərdən viktorina oyunları və ya suallar hazırlamalarını xahiş edə bilərsiniz. Yaradıcı və effektli yolla öz həmyaşıdlarının biliyinin sınanması onları öyrənməyə təşviq edər. Bu viktorinalar sizi gələcəkdə gərgin işləməkdən xilas edə bilər. Bu üsuldan keçirilən dərsin təkrarı kimi növbəti dərsin başlanğıcında istifadə edilə bilər.

### Bir-birini öyrətmək üçün məsləhətlər

Unutmayın ki, dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birlərinə öyrətmələrini istəmək önəmli nailiyyət əldə etmək yoludur.

Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bu zaman şagirdlərə tədqiqatçılıq xarakterli tapşırıq verin. Sonra onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamağı öyrədin. Əgər şagirdlər, bu barədə digərinə öyrədərlərsə onda həqiqətən mövzunu mənimsəmiş olublar. Həmyaşıdları tərəfindən öyrədilmiş şagirdlərdən sinifdə nə öyrəndiklərini izah etmələrini istəyə və ya onların düzgün öyrədilməsini yoxlamaq üçün viktorina kimi qısa bir qiymətləndirmə tapşırığından istifadə edə bilərsiniz.

### Filmlər çəkmək üçün məsləhətlər

Smarfonlar və planşetlər kimi yeni texnologiyalar sinifdə filmləri çox əlçatan, sürətli və effektiv bir öyrənmə vasitəsinə çevirib. Şagirdlər tarixi bir hadisəni, səhnələşməni,  siyasi iclası və ya debatı yaddaşa köçürə bilərlər ki, bu da, onlara sonradan "tarixi zamana çevrilmiş" bu hadisənin yenidən canlandırılmasına imkan yaradar.

### Afişaların yaradılması üçün məsləhətlər

Şagirdlərdən mətni vizual görüntülərə çevirmələrini istəyin. Bu onların dərsin əsas məqamlarını nə qədər dərk etdiklərini yoxlamaq üçün çox faydalı bir yoldur. Əgər şagirdlər afişa yaratmağın şəxsi versiyasını təklif edirlərsə, deməli,  belə dərs daha yaxşı işləyir. Məsələn; quldarlığın ləğv edilməsinin vacibliyini təsvir etmək, siyasi partiyanı təbilğ etmək, sosial bərabərsizliklə mübarizə aparmaq, yeni bir ixtiranı reklam etmək, tibbi nailiyyəti və ya əsgərlərin müharibəyə çağırışı kimi məsələlərə dair plakat hazırlamaq.

### Diaqramların, qrafiklərin hazırlanması üçün məsləhətlər.

Əsas hadisələrin xronoloji ardıcılıqla yerləşdirilməsi, bir hadisənin nə vaxt baş verdiyini, niyə baş verdiyini anlamaqda çox faydalı ola bilər. Müharibələr, siyasi nəzarətin artırılması və ya azalması, iqtisadi inkişafın təsiri kimi əsas məqamları qeyd etmək üçün fərqli rəng kodlaşmasından istifadə şagirdə dərsi başa düşməkdə əlavə bir dəstək ola bilər. Bu zaman diaqramlardan istifadə etmək olar.

Şagirdlərə tarixi dəyişiklik və inkişaf qanunauyğunluqlarını başa düşməkdə vizual cəhətdən kömək etmək üçün diaqramlara əlavələr kimi qrafiklər yaradın. Qrafiklərdə xronoloji inkişafı, həmçinin əsas hadisələrin təsirini göstərmək olar. Məsələn, qrafikdə bir ölkədə immiqrasiyanı, azalda və ya artıra biləcək müharibələrin və ya digər hadisələrin təsirini vermək olar.

### Sinifdənxaric öyrənmə üçün məsləhətlər

Şagirdlər sinifdən kənarda da fəal şəkildə öyrənə bilərlər. Aktiv təlimin əsas hissəsi onlara öyrənmələri üçün daha çox məsuliyyətli olmağı aşılamaqdır. Tədqiqat layihəsi üçün muzeyə, sənət qalereyasına və ya maraqlı tarixi yerə səyahət etmələri tövsiyə edilə bilər.

Mövzu ilə duyğusal bir əlaqənin olması şagirdlərin marağına səbəb olur. Onlar tarixi hadisəni xatırlayan bir ailə üzvündən müsahibə götürə və ya bu tədbirin özündə iştirak edə bilərlər. Şagirdlər ünsiyyət qurduqda və emosionallığa qapandıqda, öyrəndiklərində daha çox dəyər və aktuallıq görürlər. Tədrisə daha çox maraqlanır və bağlanırlar.

### İnteraktiv təlim prosesində müəllimin rolu

Dərs prosesində fasilitator rolunu oynayan müəllim dərslikdə verilən materialla yanaşı, keçiləcək mövzu ilə bağlı əlavə maraqlı məlumata da malik olmalıdır. Qəbul etmək vacibdir ki, aktiv öyrənmə strategiyalarından istifadə müəllim rolunu kökündən dəyişdirir. "Müəllim yönümlü" tədris əvəzinə müəllim şagirdlər üçün  bələdçi rolunu oynayır.

Bunun uçun müəllim  aşağıdakıları etməlidir:

- Şagirdlərə dərsdə yeni materialı necə öyrənmənin faydalı olduğunu xatırlatmalı;
- Müxtəlif növ mənbələrdən tarixi məlumatların əldə edilməsi yollarına dair göstərişlər verməli;
- Şagirdlərin dərsin ümumi məqsədini bilmələrinə əmin olmalıdır. Bunun üçün fəaliyyətə başlamalarından əvvəl şagirdlərə bəzi təlimatları, əsas anlayışları, hədəfləri, meyarları xatırlamaq məqsədəmüvafiqdir.
- Tədrisi “dəyişmənin” yollarını tapmalıdır. Şagirdlərə kitablar, məqalələr, veb saytlar yaratmaq və ya onları təqdim etmək tapşırığı vermək yaxşı olardı. Bu zaman onlar (səviyyəsindən asılı olmayaraq) daha yüksək səviyyəli təfəkkürə söykənməklə yeni dərsi əvvəlcədən öyrənə və dərsə hazır gələ bilərlər. Bunun üçün çox diqqətli düşünmək lazımdır: şagirdlər nə araşdırmalı olduğuna dair konkret bir təlimat almalıdırlar. Əgər şagirdlər müəllimindən lazımi qədər dəstək almazlarsa, onların araşdırmaları məqsədsiz və yöndəmsiz olar.
- Tarixi mövzuda tədqiqatların aparılmasının, tezislərin, proyektlərin və təqdimatların hazırlanmasının və s. yollarını öyrətməyə, bu sahədə şagirdlərə lazımi dəstək verməyə hazır olmalı;
- Birgə öyrənmə üçün münasib şərait yaratmağa kömək etməlidir. Əgər müəllim şagirdlərin yaradıcı yanaşmada və fikir mübadiləsində özlərini inamlı və rahat hiss etməsini istəyirsə, onda dinləmənin və bölüşmələrin qarantı kimi sinifdə dəstəkləyici davranış qaydaları qurmalıdır. Fəal öyrənmə mühiti şagirdləri risk etməyə və mülahizələrini sürməyə sövq edir. Bu zaman onların özlərini rahat hiss etmələrinə əmin olmaq lazımdır. Əgər şagirdlər nədənsə çəkinsələr və ya özlərini təzyiq altında hiss etsələr, effektiv öyrənmə alınmayacaq.
- Şagirdlərin marağını stimullaşdıran cəlbedici öyrənmə mühiti yaratmalıdır. Öyrənənlər onu yeni bir formaya salmaq imkanı olan materialla fəal çalışırlar. Bunun üçün çox diqqətli bir planlaşdırma lazımdır.
- Ayaq üstə düşünün: şagirdlərdən yaradıcı olmağı xahiş etdiyiniz zaman bəzən onların yanaşmalarına təəccüblənirsiniz! Bu mürəkkəb olsa da, lakin onların öyrənmələrinin qiyməti risk etməyə dəyər.

- Sinfin bütün üzvlərinin öyrənmə ehtiyaclarını diqqətdə saxlamaq lazımdır. Fərqləndirilmiş ehtiyaclara cavab verən aktiv öyrənmə strategiyaları hazırlanmalıdır.
- Dərsi həssas bir mövzuya yönəltmək, yanlış təsəvvürləri və ya faktiki səhvləri düzəldə bilmək üçün  lazımi məlumatlara malik olmalıdır.
- Sinfin bütün üzvlərinin uğurlu nəticələr göstərməsinə yardımçı olmaq üçün şagirdlərin işləri yoxlanmalıdır. Dərsdə şagirdlərin bilməsini və anlamasını qiymətləndirmək üçün imkan tapmaq lazımdır.
- Şagirdləri müzakirəyə, təhlil etməyə, səbəb və nəticə əlaqələrini müəyyənləşdirməyə, müqayisələr aparmağa, tarixi şəxsiyyətlərin fəaliyyətini qiymətləndirməyə, sual verməyə sövq etməli;
- Əməkdaşlıq fəal öyrənmənin vacib bir tərəfidir. Sadəcə, müəllimi dinləmənin əvəzinə, şagirdlər fikirlərini bir-biri ilə bölüşəcəklər. Buna kömək etmək üçün müəllim sinfin quruluşu barədə düşünməlidir. Şagirdlərin həmyaşıdları ilə fikirlərini bölüşmək, həm də müəllimin  göstərişlərini dinləmək imkanları olmalıdır. Bəzi şagirdlər fikirlərini bölüşməkdə çətinlik çəkirlər. Hansı şagirdin necə işlədiyini, onların birlikdə çalışıb çalışmadığını onlara aydın şəkildə necə çatdıracağınızı anlamaq üçün diqqətlə düşünmək lazım gələcəkdir.
- Qruplaşdırma çox vacibdir. Bu zaman müəllim daha az idarəedici kimi çıxış etməli, şagirdlər həmyaşıdları tərəfindən dəstəkləndiklərini hiss etməlidirlər.

**Qrup işi zamanı fikir verin:**

– Hansı şagirdlər başqalarını qorxuda bilər?

– Kim yaxşı dinləyir və daha sakit və ya özünə daha az güvənən şagirdlərin öyrənməsini dəstəkləyə bilər?

– Hansı biri öz biliklərinə arxayın olaraq daha az qabiliyyətli şagirdlərə yaxından yardım edə bilər?

### Müəllim məsləhəti

Davamlı peşə inkişafı, müəllimlər üçün olduğu kimi şagirdlərimiz üçün də təlimin və tədrisin keyfiyyətinin artırılmasına yönəlmiş uzunmüddətli bir prosesdir. Bu, tez-tez yeniliyi və əməkdaşlığı inkişaf etdirməklə həyata keçirilir. Müxtəlif tipli məlumatların əldə edilməsi məktəbinizdə və ya daha geniş yerli və ya milli səviyyədə öyrənməyinizə fayda gətirəcəkdir. Məktəbinizdə peşəkar şagird birliyini inkişaf etdirilməsi sizə uğurlu təcrübələri bölüşmək və öyrənmə yanaşmalarını, fərqli mövzu sahələrində araşdırmalar aparmağa imkan verə bilər.

Tarixin səmərəli tədrisi üçün fəal-interaktiv metodların tətbiqi şəxsiyyətin formalaşmasına və inkişafına kömək edir. Hazırda tarixin tədrisində əsas məqsəd ondan ibarətdir ki, dərs şagirdyönümlü, standartlara və məqsədə uyğun olsun.

İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakı prinsipləri gözləməyiniz yaxşı olardı:

1. fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi;
2. fəal dərsin mərhələləri;
3. fəal dərsin strukturu.

İnteraktiv metoda müxtəlif növ üsullar, iş formaları daxildir. Fəal-interaktiv üsullara rollu oyunlar, modelləşdirmə, diskussiyalar, debat, akvarium, xəritə üzərində iş və s. daxildir. Üsullarla yanaşı iş formaları, fərdi, cüt, qrup və kollektiv iş formalarının da müasir təlimdə tətbiq olunması zəruri hesab olunur. Bu cür metodlar şagirdlərdə nəinki dərsə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsini və demokratik dəyərlərə bağlılığı təmin edir. İnteraktiv metodikanın tətbiqi nəticəsində müasir dərs şagirdlərdə araşdırma və nəticəçıxarma bacarığını formalaşdırır.

## MÜƏLLİMİN TƏLİM FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Dərslikdə həm gündəlik, həm də illik planlaşdırmanı aparmaq üçün müəllimə kifayət qədər material və resurs verilmişdir. Planlaşdırma müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi, eyni zamanda hər fəslə ayrılacaq vaxt göstərilir. Müəllimlər üçün perspektiv plan nümunəsi vəsaitdə verilsə də, onun müstəqil tutulma qaydası ilə tanış olmaq üçün fənnin planlaşdırılması ardıcıllığı daxil edilmişdir. Bu ardıcıllıq aşağıdakı kimidir:

1. **Tədris vahidlərini dəqiqləşdirmək, ardıcıllıq prinsiplərini müəyyənləşdirmək.** Məzmunun ardıcıllığı *(asandan çətinə doğru)*, xronoloji ardıcıllıq *(zaman ardıcıllığı)*, məntiqi ardıcıllıq *(əvvəlcə o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır)* nəzərdə tutulur.

2. **Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq.** Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı nəzərə alınır. Hər tədris vahidinə onun əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt ayrılır.

3. **Dərsliklə əlaqəli şəkildə işləmək.** İllik planlaşdırma apararkən müəllim mütləq məzmun standartları, qiymətləndirmə standartları, tədris planı, dərslik *(istifadə olunacaq mətnlər və digər materiallar)*, müəllim üçün vəsaitə istinad etməlidir. Dərs ilinin həftələri, tədris ilinə təsadüf edən mühüm hadisələr *(tarixi günlər)*, tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilməlidir.

## FƏAL DƏRSİN QURULUŞU. PLANLAŞDIRMA

Planlaşdırmanın iki növü vardır: gündəlik və perspektiv. Müasir təhsil islahatının tələblərinə uyğun olaraq gündəlik və perspektiv planlaşdırma mahiyyətini əvvəlki formasından xeyli dəyişmiş interaktivliyə və nəticəyönümlülüyə şərait yaradan formada tərtib edilir.

Fəal – interaktiv təlimdə gündəlik dərsin mərhələləri aşağıdakı kimidir:

### Dərsin birinci mərhələsi: motivasiya, problemin qoyulması

Motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvədir. Fəal dərsdə təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığını artıran motivasiya qismində ortaya qoyulmuş problem və onun həlli tələbatı ilə çıxış edir.

### Dərsin ikinci mərhələsi: tədqiqatın aparılması

Bu mərhələdə problemin həlli üçün irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. Bunun üçün də tədqiqat müxtəlif iş formalarında aparıla bilər.

### Dərsin üçüncü mərhələsi: məlumatın mübadiləsi

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Məhz bu mərhələdə yeni bir tələbat – həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

### Dərsin dördüncü mərhələsi: məlumatın müzakirəsi və təşkili

Bu ən mürəkkəb mərhələdir və bütün zehni vərdişlərin, təfəkkürün müxtəlif növlərinin **(məntiqi, tənqidi, yaradıcı)** səfərbərliyini tələb edir. Müəllim fasiltasiya əsasında *(yönəldici, köməkçi suallardan istifadə etməklə)* əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və təşkilinə kömək edir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir.

### Dərsin beşinci mərhələsi: ümumiləşdirmə və nəticə

Şagird nəinki təkcə əldə olunan bilikləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə *(onların arasında düzgün olanı varmı?)* tutuşdurmalıdır. Bu, çox mühüm məqamdır. Dərsin kulminasiyasını isə bilikləri özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

### Dərsin altıncı mərhələsi: yaradıcı tətbiqetmə

Məlum olduğu kimi, biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, şagirdə onun praktiki əhəmiyyətini açıb göstərir. Buna görə müəllim imkan daxilində şagirdlərə təklif edə bilər ki, onlar müəyyən məsələlərin həlli üçün, yaxud hansısa yeni suallara cavab tapmaq üçün qazanılmış bilikləri tətbiq etməyə çalışsınlar. Əgər yaradıcı tətbiqetməni dərhal həyata keçirmək mümkün deyilsə və əvvəlcə biliklərin mənimsənilməsi yolunu sona qədər keçmək tələb olunursa, buna əməl etmək lazımdır. Lakin son nəticədə yaxşı olar ki, şagirdlərə onların kəşf etdikləri biliklərin yaradıcı surətdə tətbiqinə dair çalışma verilsin. Bu halda həmin

bilik həmişəlik onların şüurunda həkk olunar. Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərs saatı ilə məhdudlaşdırılmaya da bilər, yəni onun realizəsi sonrakı dərslərdə də mümkündür.

### Dərsin yeddinci mərhələsi: qiymətləndirmə və ya refleksiya

Yuxarıda göstərildiyi kimi, fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təhsil *(öyrətməyi öyrənmək)* və müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır. Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və öz məziyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir.

Buna görə dərs başa çatdıqda göstərilmiş proseduralardan birini qiymətləndirmə və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar, bunun özü də təlim prosesinin daha uğurla həyata keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formalarda həyata keçirilə bilər. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin şagirdə onları yeni biliklərin kəşfinə gətirib çıxarmış təlim hərəkətlərinin alqoritmini izləməyə kömək edə biləcək bir neçə sual verməsi kifayətdir. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini və ünsürlərini dərk edəcəkdir.

### Refleksiya üçün verilə biləcək suallar

Adətən, dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə etmək olar:

- *Dərsdə hansı yeniliyi öyrəndiniz?*
- *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
- *Sizə nə aydın olmadı?*
- *Hansı suallarınız var?*
- *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*
- *Dərsdə qarşıya qoyulan hədəfə çatdınızmı?*
- *Yeni mövzu üzərində necə işlədiniz?*
- *Hansı mənbələrdən istifadə etdiniz?*
- *Sizə görə, hansı mənbələr daha inandırıcı və ya hansı mənbələr daha maraqlı idi?*
- *Dərsdə informasiya əldə etmənin hansı yeni üsulunu öyrəndiniz? və s.*

## MOTIVASIYA QURMAQ ÜÇÜN TÖVSIYƏLƏR

Hörmətli müəllimlər! Sizə təqdim olunan dərsliyin elə paraqrafı var ki, onun tədrisinə iki saat vaxt verilmişdir. Bir paraqrafın ayrı-ayrı saatlarına motivasiyanın qurulması müəllimin mövzuya yanaşmasından, dərsini necə qurmasından asılıdır. Yeni dərsə motivasiyanın qurulması təkcə eyni mövzuya verilən çoxsaylı saatlar zamanı deyil, səhnələşdirilmiş, ekskursiya, disput və s. tipli dərslərin keçirildiyi vaxt, "oyunlar" keçirilən zaman da ixtisar edilə bilər.

Bəzən müəllimlər motivasiyanı quran zaman müxtəlif çətinliklərlə üzləşirlər. Texniki imkanların və ya lazımi vəsaitin olmaması, bunlardan istifadənin mümkünsüzlüyü zamanı müəllim hekayə qurmaq yolu ilə də dərsə giriş edə, şagirdləri hansısa formada dərsə maraqlandıra bilər.

Bu məqsədlə də, hörmətli müəllimlər, sizlərə hər bir dərsə motivasiya qurmaq üçün, 6-cı siniflər üçün 2021-ci ildə "Şərq-Qərb" nəşriyyatında nəşr olunmuş Ümumi tarix dərsliyinin Müəllim vəsaitində yeni dərsə giriş kimi dialoq formasında **"Motivasiya qurmaq üçün hekayə qurmaq modeli"** təqdim etmişik. Siz müəllim olaraq dərsliyin ilk paraqraflarından etibarən müvafiq olaraq ən sonuncu mövzusuna qədər (hətta tədrisinə bir neçə saat ayrılan paraqrafın hər bir saatı üçün də) bu **"Motivasiya qurmaq üçün hekayə qurmaq modeli"** ndən motivasiya kimi istifadə edə bilərsiniz. Təbii ki, müvafiq mövzulara suallar qoymaq yolu ilə.

## FƏAL DƏRSİN PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Hər bir dərsin yeddi mərhələdən ibarət olması mütləq deyil. Ümumi götürdükdə dərsi üç əsas mərhələyə ayırmaq olar:

1. şagirdi dərsə maraqlandırmaq;
2. araşdırma;
3. nəticəçıxartma.

Dərsin neçə mərhələdən ibarət olması bir neçə amildən asılıdır. Təkcə dərsin məqsəd və vəzifələri, eləcə də forma və üsulundan asılı olaraq dərsin mərhələlərini azaltmaq *(mərhələləri birləşdirmək və ya hər hansı bir mərhələyə müraciət etməməklə)* mümkündür. Məsələn, ümumiləşdirici dərsdə motivasiya, yaradıcı tətbiqetmə, refleksiya kimi dərs mərhələlərindən istifadə etməyə ehtiyac yoxdur.

Dərsin neçə mərhələdən ibarət olmasına öyrəniləcək materialın həcmi, şagirdlərin paraqrafdakı məlumatlarla tanışlıq səviyyəsi, mənbələrin sayı, inteqrasiya imkanları, xəritə və ya kontur xəritə ilə işləmək imkanı, standartı *(və ya standartları)* reallaşdırmaq imkanı, şagirdlərin fəallıq səviyyəsi, dərs əsnasında diaqnostik qiymətləndirmənin aparılıb-aparılmamasının nəzərə alınması və s. də təsir göstərə bilər.

## Perspektiv planlaşdırma

Perspektiv planlaşdırma hazırlanarkən tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparılmalı, standartların reallaşdırılması üçün lazımi imkanlar müəyyən edilməli, tədris vahidlərinin və mövzuların ardıcıllığı müəyyənləşdirilərkən sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmalıdır. Ümumi tarix fənni üçün bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə alınmalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından məntiqi və xronoloji ardıcıllıq prinsipidir.

İnteqrasiya imkanları müəyyən edilməli və planlaşdırılmada qeyd olunmalıdır. MV-də sizlərə təqdim olunmuş illik planlaşdırma cədvəlində məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir.

Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra aparılmalıdır. Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühüm bacarıqlardan biridir. Tədris planına əsasən 11-ci sinifdə Ümumi tarix  fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib, eyni zamanda şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz.

## DƏRSLƏRİN İLLİK PLANLAŞDIRILMASI

| № | Standart | Mövzunun adı | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|
| **I bölmə; Dünya ölkələri XIX yüzillik–XX yüzilliyin əvvəllərində** | | | | |
| 1. | 1.1.1., 1.1.2., 2.1.2. | ABŞ və Böyük Britaniya | formativ | 1 |
| 2. | 3.1.2., 3.1.3., 4.1.1. | Fransa və Almaniya | formativ | 1 |
| 3. | 1.1.4., 2.1.1. | Rusiya | formativ | 1 |
| 4. | 1.1.2., 1.1.3., 3.1.1. | Osmanlı imperiyası. Qacarlar dövləti | formativ | 1 |
| ***Kiçik summativ qiymətləndirmə*** | | | | 1 |
| 5. | 3.1.1., 3.1.2. | Hindistan, Çin və Yaponiya | formativ | 1 |
| 6. | 3.1.2., 4.1.1. | Dövlətlərarası münasibətlər | formativ | 1 |
| 7. | 2.1.2., 3.1.2., 3.1.3. | Birinci dünya müharibəsi | formativ | 1 |
| 8. | 5.1.1., 5.1.3. | Mədəniyyət | formativ | 1 |
| ***Kiçik summativ qiymətləndirmə*** | | | | 1 |
| **II bölmə; Dünya ölkələri 1918-1945-ci illərdə** | | | | |
| 9. | 2.1.1., 3.1.2. | Versal-Vaşinqton sistemi | formativ | 1 |
| 10. | 1.1.1., 4.1.2. | ABŞ, Böyük Britaniya və Fransa | formativ | 1 |
| 11. | 1.1.2. | Almaniya və SSRİ | formativ | 1 |
| 12. | 1.1.4., 4.1.1., 4.1.2. | Türkiyə və İran | formativ | 1 |
| ***Kiçik summativ qiymətləndirmə*** | | | | 1 |
| 13. | 2.1.2., 4.1.1. | Hindistan, Çin və Yaponiya | formativ | 1 |
| **Böyük summativ qiymətləndirmə** | | | | 1 |
| 14. | 2.1.1., 3.1.2. | Dövlətlərarası münasibətlər | formativ | 1 |
| 15. | 1.1.4., 2.1.1., 3.1.2. | İkinci dünya müharibəsi | formativ | 2 |
| 16. | 5.1.2., 5.1.3. | Mədəniyyət | formativ | 1 |
| ***Kiçik summativ qiymətləndirmə*** | | | | 1 |
| **III bölmə: Dünya ölkələri İkinci dünya müharibəsindən sonra** | | | | |
| 17. | 1.1.3., 4.1.1. | ABŞ | formativ | 1 |
| 18. | 1.1.3., 3.1.1. | Böyük Britaniya, Fransa və Almaniya | formativ | 1 |
| 19. | 1.1.1., 3.1.1. | SSRİ. Rusiya müasir dövrdə | formativ | 1 |
| 20. | 1.1.1., 3.1.3. | Türkiyə və İran | formativ | 1 |
| ***Kiçik summativ qiymətləndirmə*** | | | | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 21. | 1.1.2., 1.1.3. | Hindistan, Pakistan və ərəb ölkələri | formativ | 1 |
| 22. | 2.1.1., 3.1.1. | Çin, Yaponiya və Koreya | formativ | 1 |
| 23. | 2.1.2., 3.1.2., 2.1.1. | Dövlətlərarası münasibətlər | formativ | 2 |
| ***Kiçik summativ qiymətləndirmə*** | | | | 1 |
| 24. | 5.1.1., 5.1.2. | Mədəniyyət | formativ | 1 |
| **Böyük summativ qiymətləndirmə** | | | | 1 |
| | CƏM | | | 34 |

## DƏRSLƏRİN İCMALI VƏ TÖVSİYƏLƏR

*Hörmətli müəllimlər, təqdim edilmiş mövzuların icmalı tövsiyə xarakterlidir. Siz 11-ci sinif Ümumi tarix fənn kurikulumunun standartlarına uyğun olaraq qarşıya qoyduğunuz məqsədlərinizi mövzular vasitəsilə reallaşdıra bilərsiniz. Siz forma və üsulların seçilməsində, eləcə də inteqrasiya imkanlarının reallaşdırılmasında sərbəstsiniz. İnteqrasiya üçün mövzuya uyğun fənn standartının (və ya standartları) seçilməsində sizə Metodik vəsaitin 12-ci səhifəsində verilmiş "XI sinif ümumi tarix fənni üzrə alt standartların inteqrasiya imkanları" cədvəli kömək edəcəkdir.*

*Tədris peşəsi üçün resursların seçilməsi sizin dərsə yanaşmanızdan, planlaşdırmağınızdan asılıdır. İstənilən resursun Azərbaycanın hər bir guşəsində eyni formada əlçatan olmadığını nəzərə alaraq dərs icmalı zamanı istifadə olunacaq resursları qeyd etməyi məqsədəmüvafiq hesab etmədik. Bununla da keçəcəyiniz dərsə uyğun olaraq resursların seçilməsini öhdənizə buraxdıq.*

*Bütün gündəlik dərslərin vaxt bölgüsü və planlaşdırılması da sizdən asılıdır. Tələblərə uyğun olaraq gündəlik planlaşmanın aparılması və qiymətləndirmənin həyata keçirilməsi sizin şagirdlərin xüsusiyyətinə və metodunuza uyğunlaşmış şəkildə reallaşdırılarsa, daha səmərəli nəticə əldə oluna bilər. Təqdim olunmuş icmalların sonunda qiymətləndirmə səviyyələrin verilməsini məqsədəuyğun hesab etmədik. Çünki sizə hazır şəkildə təqdim edilmiş səviyyələr sizin sinfinizdə keyfiyyətin düşməsinə səbəb ola bilər.*

*Hörmətli müəllimlər, kitabın fəal dərsin quruluşu hissəsində biz fəal təlimdə gündəlik planlaşdırma zamanı dərsin yeddi mərhələsini ardıcıllıqla versək də, mövzuların icmalı zamanı biz bu ardıcıllığa demək olar ki, riayət etməmiş və çox zaman dərsin üçüncü və dördüncü mərhələlərini birləşdirib məlumatın mubadiləsi ilə müzakirəsi mərhələsi kimi vermiş, bəzən motivasiyaya, bəzən isə yaradıcı tətbiq etməyə yer ayırmamış, dərsin yeni bir mərhələsi kimi ev tapşırığını qeyd etmişik. Yuxarıda qeyd etdiyimiz kimi, dərs, ümumilikdə, üç əsas mərhələdən – şagirdi dərsə maraqlandırma, araşdırma və nəticəçıxartma mərhələsindən ibarət olduğundan hər bir müəllim şəraitinə, sinfinin səviyyəsinə, əldə etdiyi materiala, ən əsası, seçdiyi standarta və qarşısına qoyduğu məqsədə uyğun olaraq dərsini planlaşdıra və keçə bilər.*

*Əsas odur ki, müəllim bir 45 dəqiqə ərzində seçdiyi standartı və qarşısına qoyduğu məqsədi reallaşdırsın.*

*Hörmətli müəllimlər! İnanırıq ki, sizə təqdim etdiyimiz tövsiyələr köməyinizə çatacaq və dərslikdən istifadənizi asanlaşdıracaqdır.*

# ABŞ VƏ BÖYÜK BRİTANİYA

Tomas Cefferson, vətəndaş müharibəsi, Homstedlər, ilk dəmir yolu, parlament islahatı




6-7

**Standartlar:**

1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda *(xəritə, sxem, cədvəl, diaqram)* təqdim edir.

**Təlim məqsədləri:**

1. ABŞ və Böyük Britaniyadakı sosial-iqtisadi və siyasi həyat faktlarını onun iqtisadi və siyasi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.
2. ABŞ və Böyük Britaniyanın müasir dövründə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda *(xəritə, sxem, cədvəl, diaqram)* təqdim edir.

**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, İNSERT

**Dərsin mərhələləri**
**Motivasiya.** Mövcud dərs üçün sizə motivasiya qurmağın bir neçə yolunu təklif edirik:

**Motivasiya qurmağın birinci yolu.** Motivasiya qurmaq üçün "Vətənpərvər" filmindən bir kadr *(məs: ABŞ və Böyük Britaniya arasındakı döyüş səhnəsi və ya hər hansı qarşıdurmanı, toqquşmanı özündə əks etdirən kadrlar)* nümayiş etdirə və şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz.

Nümunə üçün suallar:

– *Gördüyünüz kadrlardan sizə nə aydın oldu?*
– *Sizcə, seyr etdiyiniz kadrlar kimlərə (hansı dövlətlərə) aiddir?*

"ABŞ" və "Böyük Britaniya" cavablarını alandan sonra növbəti sualı səsləndirə bilərsiniz:

– *Bu dövlətləri bir-birinə bağlayan nədir?*

**Motivasiya qurmağın digər yolu**

Mövcud dərs üçün sizə motivasiya qurmağın ən rahat yolu əvvəlki biliklərə söykənməklə ola bilər. Bunun üçün "Boston çay məclisi", ilk konstitusiya, ilk prezidentli respublika, burjua inqilabı, "Lord-protektor", "Stüartlar sülaləsi" və s. sözlərdən istifadə edib şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

– *Sizcə, səsləndirilən sözlər hansı ölkənin (və ya hansı ölkələrin) tarixi ilə bağlıdır?*
– *Bu ölkələrin bir-biri ilə hansı bağları var?*

Cavablar dinlənildikdən sonra şagirdlərin diqqəti yeni mövzuya yönəldilir. Daha sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** ABŞ və Böyük Britaniyada geosiyasi dəyişikliklər necə baş verdi?

**Tədqiqatın aparılması:** Dərsin kiçik qruplarla iş formasından və İNSERT iş üsulundan istifadə edilməklə keçilməsi məqsədəmüvafiqdir. Şagirdləri kiçik qruplara bölərək onlara lazımi tapşırıqlar verilir. Qruplara verilən tapşırıqlar aşağıdakılar ola bilər:

**I qrup**

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:

– Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə, – (!)
– Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)
– Tanış olduğunuz məlumat yenidirsə, – (+)
– Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)

**Tapşırıq:** ABŞ XIX yüzilliyin birinci yarısında

______________________________________________

______________________________________________

**II qrup**

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:

– Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə, – (!)
– Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)
– Tanış olduğunuz məlumat yenidirsə, – (+)
– Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)

**Tapşırıq:** ABŞ XIX yüzilliyin ikinci yarısı və XX yüzilliyin əvvəllərində

______________________________________________

______________________________________________

### III qrup

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
- Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə, – (!)
- Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)
- Tanış olduğunuz məlumat yenidirsə, – (+)
- Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)

**Tapşırıq:** Böyük Britaniya XIX yüzilliyin birinci yarısında

### IV qrup

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
- Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə, – (!)
- Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)
- Tanış olduğunuz məlumat yenidirsə, – (+)
- Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)

**Tapşırıq:** Böyük Britaniya XIX yüzilliyin ikinci yarısı və XX yüzilliyin əvvəllərində. Müstəmləkə siyasəti.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işi bitdikdən sonra hər qrup öz işini təqdim edir. Qrupların tapşırıqları icra səviyyəsi yoxlanır, qruplar biri digərinin işinə münasibət bildirir. Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Müzakirələr zamanı bütün şagirdlərin fəallığının təmin olunması sizdən asılı olacaqdır. Şagirdlərin müzakirələrdə fəal iştirakı sizə nəticələrin alınmasında yardım edəcəkdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə siz şagirdlərə yönləndirici suallar verə bilərsiniz.  Bu da, öz növbəsində, dərsdə qoyulan tədqiqat sualına şagirdin tərəfindən cavab tapılmasına kömək edəcəkdir. Bunun üçün siz aşağıdakı suallardan istifadə edə biləcəksiniz:
- *Tomas Cefferson hökumətinin köləliyi ləğv etməsinə cənub ştatlarının etiraz etməsinin səbəblərini necə qiymətləndirərsiniz?*
- *Sizcə, 1812–14-cü illər ABŞ Böyük Britaniya müharibəsini niyə ABŞ tarixində "İkinci istiqlaliyyət müharibəsi" kimi dəyərləndirmək olar?*
- *ABŞ-də köləliyin ləğvini zəruri edən səbəbləri müəyyən edin.*
- *Sizcə, ingilis burjuaziyası Fransaya qarşı müharibəni niyə müdafiə edirdi?*
- *Dəmir yollarının çəkilməsinin sənayenin inkişafına təsirini dəyərləndirin.*

- *Müstəmləkələrdən hazır məhsullar gətirməsinin Böyük Britaniyanın iqtisadiyyatına hansı təsirləri ola bilərdi?*
- *Böyük Britaniyanın daha çox müstəmləkələr ələ keçirməsini asanlaşdıran amillər hansılar idi?*

**Yaradıcı tətbiqetmə:** Dərslikdə verilmiş xəritələrdən istifadə etməklə ABŞ və Böyük Britaniyanın ərazi dəyişikliklərinin cədvəlini qurun.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təqdimetmə
Bu mərhələdə siz dərs ərzində apardığınız qeydlər əsasında şagirdləri fərdi və qrup üzrə qiymətləndirə bilərsiniz. Yeni biliyin mənimsənilməsinə bir daha nəzər salıb, şagirdlərin təqdimatları, dərs zamanı müzakirələrdə iştirak səviyyəsi, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi apararaq şagirdləri qiymətləndirə bilərsiniz. Eləcə də şagirdlərin nailiyyətlərini, çatışmazlıqları nəzərə çatdırılmasını, tövsiyələrin verilməsi və yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısınız.

# FRANSA VƏ ALMANİYA

Napoleon Bonapart, III Napoleon, "Qitə blokadası", Otto Bismark, Frankfurt müqaviləsi



12-13

**Standartlar:**

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat və tezislər hazırlayır.

4.1.1. Tarixi şəxsiyyətləri *(I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napoleon, I Aleksandr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev)* mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim məqsədləri:**

1. Qlobal problemlərin həllində Fransa və Almaniya dövlətlərinin rolunu şərh edir.
2. Mənbələr əsasında Fransa və Almaniyanın tarixinə dair təhlillər aparır, referat hazırlayır.
3. I Napoleon və Otto fon Bismarkı mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** söz assosiasiyası, mətnə əsasən cədvəlin doldurulması

**Dərsin mərhələləri**

**Motivasiya.** Mövcud dərs üçün motivasiyanı söz assosiasiyası üsulundan istifadə etməklə qura bilərsiniz. Bunun üçün lövhədə Otto fon Bismark, I Napoleon, yeddiillik müharibə, böyük burjua inqilabı, Versal müqaviləsi və s. sözləri yazılır və şagirdlərə;

– *Bu sözlər sizə nə deyir?*

– *Lövhədəki sözləri hansı dövlətə və ya dövlətlərə aid etmək olar?*

– *Bu sözləri birləşdirən ümumi cəhətlər hansılardır?* kimi suallarla müraciət olunur. Alınan cavabları ümumiləşdirib şagirdlərin diqqətini tədqiqat sualına yönəltmək lazımdır.

**Tədqiqat sualı:** XIX yüzillikdə Fransa və Almaniyada inkişaf necə getdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından və *mətnə əsasən cədvəlin doldurulması* üsulundan istifadə edilməklə qurulması məqsədəmüvafiqdir. Quracağınız cədvəllər mətnin əsas ideyasını aşkar etməyə imkan verər. Mətnlə işləyən zaman bir neçə növ cədvəldən istifadə oluna bilər: sadalanan obyektlərin, anlayışların, təriflərin cədvəlin müvafiq sütunlarına yerləşdirilməsi, müqayisə olunan obyektlərdə (qruplarda) müəyyən əlamətlərin olub-olmaması, göstərilən alqoritmlə qismən doldurulmuş cədvəli bitirmək və s. Bu və ya digər proseslər haqqında məlumatlar olan mətnlə işlədikdə işin gedişi boyunca "Nə? Harada? Nə zaman? Hansı səbəbdən?" cədvəlini doldurmaq olar.

Bu üsuldan istifadə zamanı şagirdlər onlara təqdim edilən mətnə əsasən cədvəli tamamlamalıdırlar. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları vermək olar:

### I qrup

**Mətnə əsasən cədvəli doldurun. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.**

| | Sülh müqavilələri | Qeyd |
|---|---|---|
| Adı | | |
| Tarixi | | |
| İmzaladığı dövlətlər | | |
| Şərti | | |

### II qrup

**Mətnə əsasən Fransa tarixinin XIX yüzilliyinə aid cədvəli doldurun. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.**

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

### III qrup

**Mətnə əsasən Almaniya tarixinin XIX yüzilliyinə aid cədvəli doldurun. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.**

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

### IV qrup

**Mətnə əsasən I Napoleon və Otto fon Bismarka aid cədvəli doldurun. Cədvəli doldurarkən xronoloji ardıcıllığı nəzərə alın.**

| | I Napoleon | Bismark |
|---|---|---|
| Gördüyü tədbirlər | | |
| Tarixi | | |
| Ölkə həyatına təsiri | | |
| Beynəlxalq həyata təsiri | | |
| Nəticəsi | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplar ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əgər varsa əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:
– *I Napoleonun Fransa tarixində oynadığı rolu necə qiymətləndirirsiniz?*
– *Birinci imperiyanın süqutunun səbəbləri hansılardır?*
– *III Napoleonun geniş müharibələrə başlamasına səbəb olan amilləri müəyyənləşdirin.*
– *Siyasi dağınıqlıq və feodal qaydaları Almaniyanın iqtisadi inkişafına necə təsir etmişdi?*
– *Vyana konqresinin qərarlarının Almaniya üçün təsirlərini izah edin.*
– *III Napoleon Bismarkla görüşü zamanı onunla razılaşmaqda hansı məqsədləri güdürdü?*
– *Otto fon Bismarkın Almaniya tarixində rolunu necə dəyərləndirirsiniz?*

**Yaradıcı tətbiqetmə.** Vyana konqresindən sonra Avropanın siyasi xəritəsində baş vermiş dəyişiklikləri kontur xəritədə işarələyin.

**Ev tapşırığı.** Dərsin ikinci məqsədinin bir 45 dəqiqə ərzində reallaşdırılmasının mümkün olmadığını nəzərə alaraq şagirdlərə "Mənbələr əsasında Fransa və Almaniya tarixinə dair təhlillər aparıb, referat hazırlayın" tapşırığı verilir. Onlara ev tapşırığının yerinə yetirilməsindən sonra qiymətləndiriləcəkləri elan edilir. Sinfi böyük qruplara bölərək onlardan birinə Fransa, digərinə isə Almaniyanın tarixini araşdırmaq tapşırılır.

Referat hazırlamaq üçün şagirdlərə məsləhət vermək məqsədəmüvafiqdir. Şagirdlərə referat üçün müvafiq forma təqdim etmək olar.

Referatın titul vərəqinə nümunə

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

_______________ rayonu, _____ tam orta məktəbin 11-ci sinif şagirdi

____________________________________

"XIX əsrdə ABŞ" mövzusunda

REFERAT İŞİ

Referatın planına nümunə

**Mündəricat**

**Giriş**

**I fəsil: ABŞ XIX yüzilliyin I yarısında**

1.1. XIX yüzilliyin I yarısında ABŞ-nin siyasi vəziyyəti

1.2. XIX yüzilliyin I yarısında ABŞ-nin iqtisadi vəziyyəti

**II fəsil: ABŞ XIX yüzilliyin II yarısında**

2.1. ABŞ-də vətəndaş müharibəsi

2.2. ABŞ-nin iqtisadi gücə çevrilməsi

**Nəticə**

**Ədəbiyyat siyahısı**

**Qiymətləndirmə: şərhetmə, referat hazırlama, qiymətləndirmə.**

Mövcud dərsin qiymətləndirilməsi yuxarıdakı meyarlar əsasında dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəllimin müəyyənləşdirdiyi səviyyələr nəzərə alınmaqla qiymətləndirilə bilər. İkinci meyar üzrə şagirdləri ev tapşırığının yerinə yetirilməsindən sonra qiymətləndirə bilərsiniz.

Şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi də təqdim edilir.

**Qrupun adı:** ____________________

**Təlimat.** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin:

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı? | | | | | |
| Qrup üzvləri qərarlarını bir-birləri ilə bölüşür. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərir. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |

**Şərhlər:**

______________________________________________

______________________________________________

# RUSİYA

İstibdad rejimi, "Avropanın jandarmı", Böyük islahatlar, "Xalqlar həbsxanası", 1905–1907-ci illər inqilabı, Stolıpin islahatları



18-19

**Alt standartlar:**

1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

**Təlim məqsədləri:**

1. Rusiyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.
2. Rusiyanın sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

**Təlim forması:** kollektiv, fərdi
**Təlim üsulları:** beyin həmləsi, Karvan üsulu

**Dərsin mərhələləri**

**Motivasiya.** Beyin həmləsi üsulundan istifadə etməklə dərsiniz üçün motivasiya qura bilərsiniz. Bunun üçün şagirdlərə "Azərbaycanla dərin iqtisadi, siyasi əlaqələrə malik olub, hazırda dünyanın aparıcı dövlətlərindən sayılan, quru və dənizdən 18 xarici dövlətlə həmsərhəd olan, ərazi cəhətdən dünyanın ən böyük dövlətini tanıyırsınızmı?" sualı verilir, onların cavabı dinlənilir. Bu sual motivasiya qurmaqda sizə kifayət etməsə, şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

– *İnformasiya aldığınız dövlət haqqında daha nə bilirsiniz?*
– *Bu dövlətin tarixi sizə nə dərəcədə maraqlıdır? və s.*

Aldığınız cavabları ümumiləşdirərək şagirdlərin diqqətini yeni dərsə cəlb etmək üçün tədqiqat sualını elan edin.

**Tədqiqat sualı:** Rusiyanın sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə dəyişikliklər necə baş verdi?

**Tədqiqatın aparılması.**Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün Karvan üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bu, stansiyalarla iş üsuludur. Şagirdlər 4 qrupa ayrılırlar, 4 flipçartda hərəsində mövzu ilə bağlı bir sual qoyulur. Qruplar növbə ilə saat əqrəbi istiqamətində suallara, ən azı, 3 cavab yazırlar. Sonra növbə ilə digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazır. Hər cavabın qarşısında üç işarədən biri qoyulur: "razıyam (✓)", "razı deyiləm (X)", "başa düşmədim (?)" işarəsi qoyulur.
Qruplara fərqli rəngli qələmlər verilir. Qrup üzvləri arasında olan üzvlərə bölgüsü (vaxta nəzarət, yazan, təqdimatçı, nəzarətçi və s.) aparılır. Üsulun digərlərindən ən üstün cəhəti ondan ibarətdir ki, dərsdə heç kim fəaliyyətsiz qalmır, hamı müəyyən bir işlə məşğuldur.

### I qrup

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: "*razıyam (✓)", "razı deyiləm (X)", "başa düşmədim (?)"*

**Tapşırıq:** I Aleksandrın hakimiyyəti dövrünü qiymətləndirin.

______________________________
______________________________
______________________________

### II qrup

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: "*razıyam (✓)", "razı deyiləm (X)", "başa düşmədim (?)"*

**Tapşırıq:** I Nikolayın hakimiyyəti dövrünü qiymətləndirin.

______________________________
______________________________
______________________________

### III qrup

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: "*razıyam (✓)", "razı deyiləm (X)", "başa düşmədim (?)"*

**Tapşırıq:** II Aleksandrın hakimiyyəti dövrünü təhlil edin.

______________________________
______________________________
______________________________

**IV qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarınızı qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: "*razıyam (✓)*", "*razı deyiləm (X)*", "*başa düşmədim (?)*"

**Tapşırıq:** III Aleksandrın və II Nikolayın hakimiyyəti dövrünü qiymətləndirin.

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması bitdikdən sonra şagirdlərin cavablarının müzakirəsini təşkil edin. Hər qrup işini müdafiə edir. Tədqiqatın gedişində şagirdlər əldə etdikləri məlumatların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Taqdimat bir növ yeni biliklərin bünövrəsini qoyur və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Yeni bir tələbat – həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır, bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin *(məntiqi, tənqidi, yaradıcı)* səfərbərliyini tələb edir. Siz fasilitasiya əsasında *(yönəldici, köməkçi suallardan istifadə etməklə)* əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək etməlisiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər yeni bilginin kəşfi yolunda son addımı ataraq konkret nəticəyə gəlir və ümumiləşdirmələr aparırlar. Şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldikləri nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Dərsin kulminasiyasını isə bilgiləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

Dərsi yekunlaşdırmaq üçün aşağıdakı suallarla şagirdlərə müraciət edə bilərsiniz:

– *Sizcə, Moskvanın yandırılması hansı tərəfin hərbi-strateji məqsədinə uyğun idi və bu hadisə müharibənin sonrakı gedişinə necə təsir göstərdi? Rusların bu taktikası Azərbaycan tarixində hansı hadisə ilə oxşardır?*
– *Rusiyanın Fransa ilə müharibədə qələbəsi Azərbaycanın gələcək taleyinə necə təsir göstərdi?*
– *1905–1907-ci illər inqilabının səbəblərini Rusiyanın mövcud siyasi və sosial-iqtisadi quruluşu ilə əlaqədə təhlil edin.*
– *Çar hakim dairələrinin milli və dini münaqişələr törətməsi siyasətini Azərbaycan tarixi ilə əlaqəndirərək dəyərləndirin.*
– *İşğaldan sonra Azərbaycanda, Şimali Qafqazda və Mərkəzi Asiyada çar Rusiyasının siyasətinin oxşar cəhəti nə idi?*
– *XIX əsrin ikinci yarısında təhkimçiliyin ləğv edilməsini hansı amillər zəruri edirdi?*

**Yaradıcı tətbiqetmə.** Dərsliyin 20-ci səhifəsində çar I Nikolayın İngiltərənin Rusiyadakı səfiri ilə danışıqlarını nəzərdən keçirin və ***"Osmanlı torpaqlarına göz dikən işğalçılar"*** mövzusunda afişa hazırlayın.

**Ev tapşırığı.** II Aleksandrın hakimiyyəti dövründə həyata keçirilən islahatlara aid cədvəli doldurun:

| İslahat keçirilən sahələr | Həyata keçirilən tədbirlər |
|---|---|
| Kəndli | |
| Məhkəmə | |
| Hərbi | |
| İqtisadi | |

**Qiymətləndirmə meyarları:** zaman baxımından qiymətləndirmə, məkan baxımından qiymətləndirmə

Yuxarıdakı meyarlara uyğun olaraq şagirdləri səviyyələr üzrə qiymətləndirməli olduğunuzu unutmayın. Bununla yanaşı, şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqini də təqdim edin. Onlara aşağıdakı suala cavab verməklə cədvəli tamamlamağı təklif edin. Sadalananlar barədə öz şəxsi keyfiyyətlərini necə qiymətləndirirsən?

| Meyar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Başqalarına kömək | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Başqaları haqqında | | | | |

# OSMANLI İMPERİYASI. QACARLAR DÖVLƏTİ

tənzimat, xətti-şərif, "İttihad və tərəqqi", "Gənc türklər", "Yeni osmanlılar", Qacarlar, babilər


OSMANLI İMPERİYASI. QACARLAR DÖVLƏTİ

24-25

**Alt standartlar:**
1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.
1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.
3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri *(Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, ərəb ölkələri)* siyasi quruluşuna, aqrar *(ənənəvi)*, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim məqsədləri:**
1. Ölkədəki siyasi, mədəni həyat faktlarını onun siyasi və mədəni inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.
2. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində Osmanlı imperiyasını və Qacarlar dövlətini siyasi quruluşuna, aqrar, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim forması:** böyük və kiçik qruplar
**Təlim üsulları:** beyin həmləsi, restavrasiya

**Dərsin mərhələləri**
**Motivasiya.** Motivasiya qurmaq üçün Ön Asiyanın xəritəsi şagirdlərin diqqətinə çatdırılır. *(Əgər sizdə texniki imkanlar buna imkan verilsə, yaxşı olar ki, internetdən XIX əsrə aid xəritəni yükləyib proyektor vasitəsilə nümayiş etdirəsiniz.)* Onlara aşağıdakı suallarla müraciət edə bilərsiniz.
– *Gördüyünüz xəritə ilk baxışdan sizdə hansı təəssüratı yaradır?*
– *Xəritəyə əsasən gördüyünüz ərazidə hansı güclü dövlətlərin olduğunu deyə bilərsiniz?*
– *Sizcə, gördüyünüz xəritə hansı dövlətlərə aid ola bilər?*

**Tədqiqat sualı:** XIX yüzillikdə Osmanlı imperiyasının və Qacarlar dövlətinin iqtisadi və siyasi inkişafı necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Fəal təlimin Restavrasiya üsulundan istifadə etmək daha yaxşı olardı. Bu üsul şagirdlərə mətnlə işləməklə yanaşı, onlarda konspekt yazmaq və ondan istifadə etmək bacarığını formalaşdırır. Bunun üçün şagirdlərə xüsusi işarələrlə işarələnmiş, şərti işarələri olmayan ixtisar olunmuş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib onu genişləndirməlidirlər.
Bu zaman qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz.

## I qrup

**Verilmiş mətni bərpa edin.**

Tezliklə İngiltərə və Qacarlar arasında ingilis təbəələrinin eksterritoriallıq hüququ haqqında müqavilə imzalandı. Eksterrotoriallıq hüququ – ____________________________
____________________________________ XIX əsrin 60-cı illərin ortalarında Fransa başda olmaqla bir sıra Avropa ölkələri, eləcə də ABŞ ____________
____________________________________________________________
____________________________________________________________
____________________________________ Daha ucuz başa gələn fabrik malları yerli sənətkarlığa və ev sənayesinə zərbə vurdu. Əmtəə, pul münasibətlərinin sürətlənməsi feodal-len sisteminin böhranını gücləndirir, ____________________
____________________________________________________________
____________________________________________________________
____________________________________ 1840-cı illərin sonlarında İranda şiə-babi təriqətinin rəhbərliyi ilə xalq hərəkatı baş verdi. Lakin üsyan amansızlıqla yatırıldı:

XIX əsrin II yarısında İrana xarici ekspansiya daha da artdı. Şah hökümətindən müxtəlif güzəştlər qoparan ingilislər ölkənin cənubunda, ruslar isə Tehran da daxil olmaqla Şimal vilayətlərində ____________________________________________
____________________________________________________________
____________________________________________________________
__________ asılılığını gücləndirirdi.

XX əsrin əvvəllərində İranın asılı vəziyyətə düşməsi, ölkədə xarici kapitalın güclənməsi geniş xalq kütləsinin vəziyyətinin pisləşməsinə səbəb olmuşdu. Ehtiyac içində boğulan əhali ____________________________________________________
____________________________________________________ inqilabın başlanğıcını qoydu. Nümayişçilərin əsas tələbi ____________________________
____________________________________________________ keçirilməsi idi. 1905–1911-ci illəri əhatə edən bu inqilabın əsas nəticəsi İranda konstitusiyanın qəbulu oldu.

## II qrup

**Verilmiş mətni bərpa edin.**

Afrika, Asiya və Avropa qitələrində böyük ərazilərə malik olan Osmanlı imperiyası XIX

əsrin əvvəllərində böhran keçirirdi. Əyalətlərdə hakimiyyət ________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________ Bu da kəndliləri müflisləşdirirdi. Hərbi len sistemi olan timar və ziyamət böhran yaşayırdı. Bir çox timar sahibləri

______________________________________________________________________

______________________________________________________________________

____________________________________________________ nizam-intizamı itirmişdilər. İmperiyanın geniş ərazilərində tabe edilmiş xalqların mübarizəsi get-gedə güclənirdi. Bu mübarizənin güclənməsində Osmanlı dövlətindən "pay" qopartmağa çalışan __________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Osmanlı dövlətinə növbəti zərbəni vurdu. Müharibənin yekunu olaraq Ədrinə sülhü imzalandı və bu sülhlə Yunanıstanın müstəqilliyi və Serb knyazlığının muxtariyyəti tanındı. Bütün bunlar mərkəzi hakimiyyəti imperiyanı möhkəmləndirmək üçün yeni addımlar atmağa sövq edirdi. Bu yöndə mühüm addımlar sultan II Mahmudun dövründə (1808–1839) atıldı. 1826-cı ildə yeni ___________________________________________________

____________________________________________ qiyamı baş verdi. Bu qiyamı yatıran hökümət tezliklə yeniçəri dəstələrini ləğv etdi. 30-cu illərin birinci yarısında ümumi əsgər yığımı qaydasında yeni ordu yaradılmasına başlanıldı. ____________________________

______________________________________________________________________

__________ sahibləri təqaüd qismində konpensasiya aldılar. Mərkəzi idarəetmə orqanlarında Avropa nümunəsində nazirliklər yaradıldı.

## III qrup

**Verilmiş mətni bərpa edin.**

Üsyançılar sultandan 1876-cı il konstitusiyasının bərpasını qəti şəkildə tələb edirdilər. Hər yerdə üsyançıların dəstəkləndiyini görən sultan _______________________________

______________________________________________________________________

______________________________________________________________________

________________________________ Gənc Türklər II Əbdülhəmidi taxtdan salmağı və V Mehmet Rəşadı taxta çıxarmağı bacardılar.

"Gənc türk"lərin yeritdiyi xarici siyasət imperiyanın süqutunu sürətləndirirdi. 1911–1912-ci illəri əhatə edən_____________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

____________________ ərazisi Şərqi Frakiya ilə məhdudlaşdı. Dövlətin dağılmasının qarşısını almağı və Avropa dövlətlərin asılılığından tam azad olmağı düşünən "Gənc türk"lər I Dünya müharibəsi zamanı Almaniyanın tərəfini saxladılar. Bu da Osmanlı imperiyasının məhvinə səbəb oldu.

XIX əsrin əvvəllərində İranda türksoylu ____________________________________

______________________________________________________________________

______________________________________________________________________
__________________________ Rusiyanın Cənubi Qafqazda möhkəmlənmək istəyi Qacarların gah İngiltərəyə, gah da Fransaya meyil etməsinə səbəb olurdu. Çünki I Napoleonun
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
Fransadan elə bir ciddi kömək ola bilməyən Qacarlar Cənubi Qafqaz uğrunda mübarizəyə başlayan Rusiyaya müharibə elan etdi.

1804–1813-cü və 1826–1828-ci illəri əhatə edən I və II Rusiya-Qacarlar müharibələrində Qacarlar məğlub oldu. ___________________________________________ _____
______________________________________________________________________
________ fevralında Rusiya ilə Qacarlar arasında xüsusi ticarət traktatı imzalandı. Traktata görə rus təbəələri İranda eksterrotoriallıq və digər iqtisadi və siyasi güzəştlər əldə etdilər.

## IV qrup

**Verilmiş mətni bərpa edin.**

1839-cu ildə "Gülxanə xətti-şərif"-i verildi. Bu xətti-şərif ________________________
______________________________________________________________________
___________________________________________________________ və s. danışılırdı. Bundan başqa, dini mənsubiyyətindən asılı olmayaraq, bütün təbəələrin qanun qarşısında bərabərliyi elan edilirdi. Nəzərdə tutulan dəyişikliklər tənzimat *(islahat)* adını aldı. Eləcə də, məhkəmələrin fəaliyyəti nizama salındı, ibtidai məktəblər dünyəvi hakimiyyətə tabe edildi, ________________________ ______________________________
_______açıldı.

XIX əsrin ikinci yarısında ölkədə konstitusiya və seçkili orqanların *(parlament)* yaradılması uğrunda hərəkat meydana gəldi. 1865-ci ildə ________________________________
______________________________________________________________________
______________________________________________________________________
____________________________ ədalətli idarəetmə tərəfdarı idilər.

1876-cı ildə konstitusiya tərəfdarları fəallaşdılar. Mürəkkəb iqtisadi və siyasi şəraitdə mədrəsə tələbələri İstanbulda baş vəzirin və şeyxülislamın istefası tələbi ilə çoxminli mitinqlər təşkil etdilər. Yeni Osmanlı ____________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________ dəyişiklikləri həyata keçirmək istəmirdi. 1877–1878-ci illərdə deputatların öz iclaslarında hökuməti tənqid etməsi, ______________________________ ____
________________________________ parlamenti qeyri-müəyyən müddətə buraxmasına gətirib çıxartdı. Bunun ardınca ölkədə sərt repressiya diktatura rejimi quruldu.

Sultan mütləqiyyətinə qarşı mübarizə aparmaq məqsədilə 1889-cu ildə İstanbulda "İttihad və Tərəqqi" adlı gizli cəmiyyət yaradıldı. Bu cəmiyyətin üzvləri və _________________
______________________________________________________________________
____________________________________________________ başlamaq qərarına gəldilər. Üsyan 1908-ci ildə Makedoniyada başladı. Tezliklə bir çox Balkan şəhərlərinin qarnizonları, yerli partizan dəstələri onlara qoşuldu.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsini həyata keçirin. Bu mərhələdə şagirdlərə müəyyən vaxt ərzində cavablarını hazırlayıb təqdim etmələri tapşırılır. Təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qrupları qiymətləndirə bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması** Dərsi ümumiləşdirib nəticə çıxartmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– *XIX əsrin I yarısında Osmanlı dövlətinin beynəlxalq münasibətlər sistemində mövqeyini necə qiymətləndirmək olar?*
– *Osmançılıq ideyasının həyata keçirilməsi mümkün olsaydı, nə baş verərdi?*
– *"Gənc türklər" üsyanı Osmanlı dövlətinə nə verdi?*
– *Rus-Qacar müharibəsinin Azərbaycanla bağlı əlaqələrini tarixi zaman baxımından necə qiymətləndirmək olar?*
– *Sizcə, xarici ölkələr eksterritoriallıq hüququnu hansı yollarla alırdı?*
– *İranın siyasi həyat faktlarını onun inkişafı ilə əlaqədə necə dəyərləndirmək olar?*
– *Konstitusiyanın qəbul olunması ilə şah hakimiyyətinin məhdudlaşdırılması arasında hansı əlaqə var?*

**Yaradıcı tətbiqetmə:** Fərz edin, siz "Gülxanə xətti-şərif"-indən yararlanmış təbəələrdən birisiniz *(özünüzə yaş, məşğuliyyət, sosial təbəqə və s. seçin)*. Öz personajınızın islahatlara münasibətini şərh edin.

**Ev tapşırığı.** XX əsrin əvvəllərində Osmanlı imperiyasında baş verən geosiyasi dəyişiklikləri sxem formasında təqdim edin.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, dəyərləndirmə.

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Dərs prosesində kiçik qruplarla işə yer ayırdığınızdan dərsin sonunda onlara aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verə bilərsiniz.

**Tarix** ________________

**Şagirdin adı soyadı** ____________________________________________

**Təqdimatın adı** ________________________________________________________

1-dən 5-dək ballar verin.

| | |
|---|---|
| Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi. | |
| Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi. | |
| Hamı əlbir və ahəngdar işləyirdi. | |
| Qrup bütün sinfi fəal olmağa sövq edirdi. | |
| Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi. | |
| Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi. | |

# HİNDİSTAN, ÇİN VƏ YAPONİYA

Sipahilər üsyanı, Hindistan Milli Konqresi, Tiryək müharibələri, Taypinlər hərəkatı, Sun Yatsen, Syoqun




30-31

**Alt standartlar:**

3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri *(Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, ərəb ölkələri)* siyasi quruluşuna, aqrar *(ənənəvi)*, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim məqsədləri:**

1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində Hindistan, Çin və Yaponiyanı siyasi quruluşuna, aqrar sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.
2. Eksterritoriallıq hüququ probleminin həllində Hindistan, Çin və Yaponiyanın rolunu şərh edir.

**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində iş

**Dərsin mərhələləri**

**Motivasiya.** Dərsin motivasiyasını Qərb dövlətləri üzərində qura bilərsiniz. Bunun üçün Qərb dövlətlərinin yürütdüyü müstəmləkəçilik siyasətini və buna şərait yaradan amilləri qısaca şagirdlərlə müzakirə edə və onların diqqətini XIX yüzillikdəki Şərq ölkələrinə yönəldə bilərsiniz. Bu ölkələrin içərisində ən aparıcı dövlətlərin hansılar olduğu haqqında suallar verin. Daha sonra aldığınız cavabları ümumiləşdirərək şagirdləri lazımi məcraya yönəltmək və dərsin motivasiyasını qurmaq olar.

**Tədqiqat sualı:** Hindistan, Çin və Yaponiyanın ictimai-iqtisadi və siyasi inkişafı necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunur, kiçik qruplarla iş formasından və mətn üzərində iş üsulundan istifadə etməklə dərsinizi qurmağınız məqsədəmüvafiq olardı. Şagirdlər onlara verilmiş mətn üzərində işləməlidirlər.
Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları və ya özünüzün məsləhət bildiyiniz tapşırıqları verə bilərsiniz.

## I qrup

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərdən, yaxud müxtəlif işarələrdən istifadə etməklə aparmaq olar).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri tamamlayın.

______________ yazında Hindistanda ingilis müstəmləkəçiliyi əleyhinə sipahilər üsyanı başladı. Sıravi əsgərlərin yeni patronlardan istifadədən imtina etməsi üsyana bəhanə oldu. Çünki döyüş zamanı, əsgərlər inək və donuz piyi ilə yağlanmış bağlamanı dişləri ilə cırmalı idilər. Bu, hind və İslam qaydalarına zidd olduğundan əsgərlər üsyan qaldırıb moğolların sonuncu nümayəndəsi olan Bahadır şahı özlərinə rəhbər seçdilər. Qısa müddət ərzində üsyan dalğası ________________________________________ yayıldı. Çox gərginliklə davam edən bu mübarizə 1859-cu ildə yatırıldı. Vahid rəhbərliyin və komandanlığın olmaması, üsyançıların maraq müxtəlifliyi və nizamsızlığı üsyanın ______________________ səbəb oldu. Bununla da rəsmən __________________ son qoyuldu. Sipahilər üsyanı metropoliya hökumətini əməli addımlar atmağa sövq etdi. Vəziyyəti nizama salmaq məqsədilə, tezliklə, Hindistanın ____________________ yaxşılaşdırılması haqqında akt qəbul olundu. XVIII yüzillikdən etibarən Çin imperatorlarının ölkəni ətraf aləmdən tədric etmək siyasəti ____________________ siyasət yürüdən Avropa ticarət şirkətlərinin planlarına zidd idi. Vəziyyəti dəyişmək haqqında düşünən ingilislər hind vilayətlərində becərdikləri tiryəkin Çinə ixracını artırdılar. Bununla onlar böyük gəlir əldə etməklə yanaşı, Çin bazarında ticari əlaqələr qurmaq imkanı da əldə etdilər. 1800-cü ildə tiryəklə ticarət qadağan olunduğundan qaçaqmalçılıq yollarından istifadəyə başlanıldı. Bu hal konflikt yaratmaya bilməzdi. Cənub əyalətlərin hakiminin bu yolda əməli addımlar atması (ingilis faktoriyalarında qaçaqmalların ______________________ ingilislərlə toqquşmalara gətirib çıxardı. Son nəticədə ingilis hərbi eskadrasının Çin sahillərinə yaxınlaşması ilə 1840–1842-ci illəri əhatə edən və tarixdə ___________________ müharibəsi adlanan müharibə başladı. Çinin məğlubiyyəti ilə başa çatan müharibə Nankin sülh müqaviləsi ilə bitdi. XIX əsrin əvvəllərində Yaponiyada ali hakimiyyət _________________ məxsus olsa da, real hakimiyyət Tokuqava sülaləsindən olan syoqunların əlində idi. Syoqunların mərkəzi hakimiyyəti möhkəmləndirməyə yönəlmiş ________________ siyasəti ölkəni zəiflədirdi. İqtisadiyyat inkişafdan qalmış, kəndlilərdən tutmuş samuray və knyazlaradək əksər təbəqələrin vəziyyəti pisləşmişdi. Syoqun rejimi XIX əsrin əvvəlində ağır daxili vəziyyətlə yanaşı, Yaponiyanın qapalılıq siyasətini dağıtmağa çalışan Avropa ölkələrinin təzyiqi ilə də üzləşdi. _______________ bu yöndə aktiv siyasət yürüdürdü. 1854-cü ildə ABŞ və Yaponiya arasında sülh və əməkdaşlıq haqqında müqavilə imzalandı. Şərtə görə Amerika gəmiləri ______________________ limanlarına girmək hüququ əldə etdi. Simodada ABŞ ________________ yaradıldı. Bir neçə ildən sonra imzalanmış yeni müqaviləyə əsasən amerikalılara ticarət güzəştləri, eksterritoriallıq hüququ verildi.

### II qrup

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərdən, yaxud müxtəlif işarələrdən istifadə etməklə aparmaq olar).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri tamamlayın.

Metropoliyadan fərqli olaraq, Hindistanda vəziyyəti çox ağır idi. Fəhlələrin iş saatı 16 saata çatırdı. Yalnız 1890-cı illərdə uşaq və yeniyetmələrin əməyindən istifadəni məhdudlaşdıran ilk ______________ qanunları çıxdı. XIX yüzilliyin sonlarında Hindistanda ictimai həyat aktivləşdi. Bunda Avropa təhsili almış, eləcə də milli dəyərlərə və ənənələrə dərin hörmət edən ziyalıların böyük rolu var idi. ___________________ onlar ingilis hökumətinin razılığı ilə Hindistan Milli Konqresi (HMK) adlı yeni ictimai cəmiyyət yaratdılar. Konqresin təsisçiləri hind xalqının hüquqlarının artırılmasına, maraqlarının ________________________ təmsil edilməsinə çalışırdılar. XX yüzilliyin ilk illərində ifratçıların kütləvi hərəkatına qarşı sərt cəza tədbirləri tətbiq edildi. Müstəmləkə zülmünün getdikcə artması, ingilis məmurlarının özbaşınalığı ümumxalq narazılığına səbəb olurdu. Müstəmləkəçilərin özbaşınalıqlarına qarşı etiraz əlaməti olaraq _____________________ boykot edilməsinə başlanıldı. Passivliyinə baxmayaraq, boykot ən kütləvi mübarizə forması idi. Bu, Hindistan tarixində birinci _______________________ hesab edilə bilər. Lakin bu müqavilə ilə nəzərdə tutulanları reallaşdırmaq çətinləşirdi. Çünki Yantszının bir hissəsi taypinlərin hakimiyyəti altında idi. Belə şəraitdə Böyük Britaniya, Fransa və ABŞ hərbi dəstələri quruda və dənizdə Tsin ordusu ilə birlikdə ___________________ qarşı mübarizəyə başladı. Gərgin mübarizə nəticəsində taypinlər məğlub oldu. 1864-cü ildə üsyançıların paytaxtı süqut etdi. Rusiya və Çin arasında imzalanmış ____________________ görə Amurun sol sahili, Pekin müqaviləsinə (1860) görə isə Ussuriysk vilayəti Rusiyaya keçdi. XIX yüzilliyin II yarısında Çinin xarici siyasət sahəsində mövqeyi Fransa (1884–1885) və Yaponiya (1894–1895) ilə aparılan müharibələr sayəsində bir qədər də zəiflədi. Məğlubiyyətlər nəticəsində imperiya _______________________________________ üzərində nəzarəti itirdi. Konstitusiyaya görə qanunverici və icraedici hakimiyyətə malik olan imperator statusu müqəddəs və toxunulmaz idi. Ölkə vətəndaşları mülkiyyət, vicdan, söz, mətbuat və toplaşmaq azadlığı aldılar. Ölkədə aparılan _______________ tezliklə öz bəhrəsini verdi. İqtisadi cəhətdən qüvvətlənən Yaponiya müstəmləkə işğallarına başladı. İlk hədəf Rükü adaları, sonra isə Tayvan oldu. Az sonra isə Yaponiya _________________ hədəfə aldı. Koreya uğrunda mübarizədə Çini məğlub edib ondan böyük məbləğdə təzminat və ərazisində sənaye müəssisələri ___________ hüququ əldə etdi. Rusiyanın Uzaq Şərqdə möhkəmlənmək istəyi Yaponiyanın maraqları ilə üst-üstə düşmürdü. 1904–1905-ci illər ______________ müharibəsində qalib gələn Yaponiya Cənubi Saxalini ələ keçirdi. Beləliklə, Cənubi Mancuriya və Koreyada onun şəriksiz ağalığı təmin olundu.

### III qrup

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərdən, yaxud müxtəlif işarələrdən istifadə etməklə aparmaq olar).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri tamamlayın.

XVIII yüzillikdən etibarən ______________ işğalına başlayan Böyük Britaniya bu siyasəti davam etdirirdi. XIX yüzilliyin I yarısında Maratx konfederasiyasının və Pəncabdakı siqx dövlətinin əraziləri ələ keçirildi. 1856-cı ildə ingilislər müstəqil dövlət kimi mövcud olan __________________ özlərinə tabe etdilər. Beləliklə, Hindistanın işğalı tamamilə başa çatdırıldı. Ali hakimiyyəti, vergi yığımını öz əlinə alan ingilislər Hindistanda bəzi ənənəvi qaydaları saxladılar. Keçmiş hakimlər təqaüd formasında ömürlük məvacib almağa başladılar. Ost-Hind kompaniyasının ________________ ələ keçirməsi İngilis hökumətinin bu kompaniyaya marağını artırırdı. Kompaniyanın 1813–1833-cü illərdə qəbul olunmuş _________________ artıq onun Çin və Hindistanda ticarətdə inhisarçılıq hüquqları yox idi. Bütün ingilis sahibkarları üçün Hindistana yol açılmışdı. Hərbi məğlubiyyətlər və imperiyanın zəifləməsi hakim dairələri narahat edirdi. Onlar ordunun və donanmanın yenidən silahlanmasını, dövlət sənayesinin inkişaf etdirilməsini vacib sayırdılar. Tezliklə ölkədə həm yerli, həm də xaricilərə məxsus şəxsi müəssisələr yaradılmağa başlandı. Gənclər üçün ənənəvi təhsillə yanaşı, həm də _______________ proqramlı məktəblər açıldı. 1905-ci ildə bir neçə inqilabçı qrupun birləşməsi nəticəsində Sun Yatsenin rəhbərliyi ilə _________________ təşkilatı yaradıldı. Millətçiliyin, demokratizmin, xalq rifahının əsas məqsəd olduğunu bəyan edən Sun Yatsen Mancur sülaləsini bu yolda əsas maneə hesab edirdi. 1911–1913-cü illəri əhatə edən inqilab nəticəsində Çində müvəqqəti konstitusiya qəbul olundu, Tsin sülaləsi devrildi və _____________ elan olundu. Prezident idarə üsulu yaradıldı. Tezliklə Rusiya da daxil olmaqla, bir sıra Avropa ölkələri ilə də belə müqavilələr imzalandı. Beləliklə, Yaponiyanın _________________ siyasəti ləğv edildi. Amma bu hadisələr ölkədə birmənalı qəbul olunmadı. Bir çox samuray və knyazlar ölkənin müstəqilliyi üçün təhlükə yarandığını düşünürdülər. _____________________ tənqid edən milli ruhlu dövlət xadimləri "Səmavi hakimə" (imperatora) müraciət etdilər. Daxili və xarici ziddiyyətlərin olduğu bir dövrdə 15 yaşlı imperator Mutsuxito (1867–1912) 1868-ci ildə Syoqunun vəzifə və səlahiyyətlərini məhdudlaşdırıb imperator hakimiyyətini bərpa etdi. Növbəti on ildə Yaponiyanın ənənəvi iqtisadi və sosial münasibətlərini kökündən dəyişən ________________ tədbirləri görüldü. Bu tədbirlər müşavirlər tərəfindən hazırlanır və _____________ adından həyata keçirilirdi. ______________ əsasən Avropada təhsil almış gənc, enerjili dövlət xadimləri olub ölkənin gücünü və mədəniyyətini çiçəkləndirməklə yanaşı, Yaponiyanın dünyanın ən güclü sivilizasiyaları cərgəsinə qoşulmasına çalışırdılar.

### IV qrup

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərdən, yaxud müxtəlif işarələrdən istifadə etməklə aparmaq olar).
2. Mətnin hər hissəsinə ad qoyun.
3. Boş buraxılmış yerləri tamamlayın.

Bu akta görə idarəçilik ingilis taxtına keçdi. Ost-Hind kompaniyası ləğv edildi. Hökumətdə Hindistan işləri ilə əlaqədar nazir vəzifəsi təsis olundu. Hindistanda ali hakimiyyət general-qubernatordan vitse-krala keçdi. ______________ kraliça Viktoriya Hindistan imperatriçası titulunu da qəbul etdi. XIX yüzilliyin II yarısında Hindistanda _____________ münasibətləri yaranmağa başladı. İngilis sahibkarları, əsasən, dəmir yolu tikintisinə, suvarma sisteminin, plantasiya təsərrüfatının yaradılmasına __________ qoyurdular. Kənd təsərrüfatında ixrac üçün pambıq, buğda, çay, qəhvə, kauçuk becərilirdi. Sənayedə hər şeydən

əvvəl toxuculuq və emaledici müəssisələr yaradılırdı. Bunlarla yanaşı, ölkədə ilk metallurgiya zavodu işə düşdü. Eyni zamanda sənayeyə milli kapital qoyuluşu da özünü büruzə verirdi. 1884-cü ildə Bombeydə milli kapitala məxsus ilk ______________ meydana çıxdı. Müqaviləyə görə Çin _____________ böyük məbləğdə təzminat ödədi, 5 limanını ticarət üçün açdı, ingilislərə ticari güzəştlər, eləcə də faktoriyalarda xarici missiya üçün ________________ hüququ verdi. Syanqan (Honkonq) İngiltərənin mülkiyyətinə keçdi. 1844-cü ildə ABŞ və Fransa da Tsin hökumətini qeyri-bərabər müqavilə imzalamağa məcbur etdi. Növbəti on ildə xarici siyasi problemlər daxili problemlərlə qaynayıb-qarışdı. 1850-ci ildə ölkənin cənub-şərq əlayətlərində ______________ üsyanı başlandı. Tezliklə üsyançılar Nankini tutub öz dövlətlərini yaratdılar. Krım müharibəsi bitdikdən sonra ingilislər və fransızlar Çində öz fəaliyyətlərini aktivləşdirdilər. Onlar yeni güzəşt və hüquqlar tələb edirdilər. 1856-cı ildə Çinə qarşı Böyük Britaniya və Fransanın _____________ müharibəsi (1856–1860) başladı. Müharibənin yekunu olaraq ingilis və fransız təbəələri imperiya ərazisində sərbəst hərəkət və ___________ vasitəsilə ticarət etmək hüququ qazandılar. Hər şeydən əvvəl, yarımfeodal knyaz mülkləri sistemi sadələşdirildi. Onlar _____________ dəyişdirildi. Knyazlar isə qubernator statusu əldə etdilər. Mülklərini itirən knyaz və samuraylar _________________ almağa başladılar. Samuray dəstələrinin yerinə ümumi mükəlləfiyyət əsasında müasir ordu quruldu. Avropa nümunəsində ilk nazirliklər yaradıldı. Dövlət xəzinəyə məxsus sənaye müəssisələrini maliyyələşdirməkdən imtina etdi və onları şəxsi kompaniyalara satdı. Sonradan iri kompaniyalara çevrilən "Mitsui", "Mitsubişi" və s. elə o dövrdə meydana çıxdı. Bütün bunlar sahibkarlığın və bazar iqtisadiyyatının inkişafına şərait yaratdı. İslahatlar zamanı təhsilin inkişafına xüsusi diqqət yetirildi. Uşaqların 6 yaşından etibarən 4 illik __________ təhsili həyata keçirildi, Avropa proqramlarından istifadə olunan orta və ali təhsil ocaqları yaradıldı. Vahid _______ sistemi müəyyən edildi, ilk qadın pedaqoji məktəbi açıldı. 1889-cu ildə Yaponiyada Konstitusiya qəbul edildi.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edə bilərsiniz:

- *Sipahilər üsyanından sonra ingilis hökumətinin Hindistanda etdiyi dəyişiklikləri necə dəyərləndirmək olar?*
- *Sizcə, eksterritoriallıq hüququnun xaricilərə nə dərəcədə faydası dəyə bilərdi?*
- *Krım müharibəsi bitdikdən sonra ingilis və fransızların Çində öz fəaliyyətlərini aktivləşdirmələrinin səbəbi nə ola bilərdi?*
- *Çinin Avropa dövlətləri ilə müharibədə məğlubiyyəti nə ilə bağlı ola bilərdi?*
- *XX yüzilliyin əvvəllərinə yaxın Çinin yarımmüstəmləkəyə çevrilməsini sübut edin.*
- *Sizcə, nəyə görə xarici ölkələrlə müqavilələrin imzalanmasını samuray və knyazlar ölkənin müstəqilliyi üçün təhlükə hesab edirdilər?*
- *Xəzinəyə məxsus sənaye müəssisələrinin şəxsi kompaniyalara satılmasının inkişaf üçün nə xeyri ola bilərdi?*
- *İmperatorun həyata keçirdiyi hansı tədbiri daha önəmli sayırsınız?*
- *Qərb dövlətlərinin Yaponiyanı Rusiya ilə müharibəyə təhrik etməsinin səbəbləri nə ola bilərdi?*
- *Yaponiyada Mutsuxito dövrünü müasirləri və tarixçilər həm islahat, həm də inqilab adlandırırlar. Faktlardan istifadə edərək bu və ya digər deyimi əsaslandırın.*

**Yaradıcı tətbiqetmə.** Fərz edin ki, siz 1870-ci illərdə Hindistan və ya Çində yaşayırsınız (*özünüzə yaş, məşğuliyyət, sosial təbəqə və s. seçin*). Xaricilərlə münasibətinizi şərh edin.

**Qiymətləndirmə:** dəyərləndirmə, şərhetmə.
Mövcud dərsin qiymətləndirməsini yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirmək məqsədəmüvafiqdir. Dərsin sonunda şagirdi yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla müəyyənləşdirdiyiniz səviyyələr üzrə qiymətləndirə bilərsiniz.

# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

Vyana konqresi, güc tarazlığı, Krım müharibəsi, Fransa–Prussiya müharibəsi, "Üçlər ittifaqı", Antanta, Balkan müharibələri




36-37

**Alt standartlar:**
3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.
4.1.1. Tarixi şəxsiyyətləri *(I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napoleon, I Aleksandr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev)* mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim məqsədləri:**
1. XIX yüzillik və XX yüzilliyin əvvəllərində qlobal problemlərin həllində aparıcı dövlətlərin rolunu şərh edir.
2. I Napoleonu, Otto fon Bismarkı mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim forması:** böyük və kiçik qruplar
**Təlim üsulları:** açar sözlər, müzakirə

**Dərsin mərhələləri**
**Motivasiya.** Motivasiya qurmaq üçün müəllim sual-cavab *böyük iqtisadi güc, müstəmləkələrin genişlənməsi, böyük dövlətlər arasında rəqabət, güc tarazlığı, müharibələr* və s. bu kimi açar sözləri səsləndirir *(bu sözləri lövhədə də yaza bilərsiniz)* aşağıdakı suallar verə bilərsiniz:
– *Eşitdiyiniz (gördüyünüz) bu sözlər sizə hansı dövlətləri xatırladır?*
– *Səsləndirilən açar sözləri ümumiləşdirib hansı vahid adla adlandıra bilərik?*
Verdiyiniz suallara aldığınız cavablardan əldə edilən fərziyyələri lazımi məcraya yönəldərək dərsin motivasiyasını reallaşdıra bilərsiniz. Daha sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı:** XIX yüzillik və XX yüzilliyin əvvəllərində dövlətlərarası münasibətlər necə quruldu?

**Tədqiqatın aparılması.** Bu mövzunu tədris edərkən dərsin tədqiqatın aparılma hissəsini kiçik qruplarla iş formasından istifadə edilməklə təşkil olunur. Dərsi müzakirə üsulundan istifadə etməklə tədris etməyiniz məqsədəmüvafiqdir. Verilmiş tapşırıqları cavablandırmaq üçün qruplar araşdırma aparır, tədqiqat sualına cavab tapılır.

**I qrup**

I Napoleonun müharibələrini şərh edin.

________________________________________

________________________________________

**II qrup**

Vyana konqresi və Şərq məsələsini şərh edin.

________________________________________

________________________________________

**III qrup**

Dövlətlərin güclənməsində tarixi şəxsiyyətlərin rolunu qiymətləndirin.

________________________________________

________________________________________

**IV qrup**

XX yüzilliyin əvvəllərində böyük dövlətlər arasındakı ziddiyyətlərin güclənməsinin səbəblərini şərh edin.

________________________________________

________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsini həyata keçirin. Bu mərhələdə şagirdlərə müəyyən vaxt verilir, daha sonra təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və lazım gələrsə, əlavələr edilir. Aşağıdakı meyarlar əsasında qrupları qiymətləndirə bilərsiniz.

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

Qrup işini qiymətləndirmək üçün qrup üzvlərinə özünüqiymətləndirmə vərəqini də verə bilərsiniz.

**Qrup təqdimatında özünüqiymətləndirmə vərəqi.** Qiymətləndirmə zamanı 1-dən 5-dək ballar verilir.

| Meyarlar | Qrup üzvlərinin adları | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| Qrup üzvlərinin hazırlığı | | | | | | |
| Qrupun hər bir üzvünün öz konkret mövzusunun olması | | | | | | |
| Hamının əlbir və ahəngdar işləməsi | | | | | | |
| Qrupun bütün sinfi fəal olmağa sövq etməsi | | | | | | |
| Qrupun hər bir üzvünün səbirli olması və öz yoldaşlarına kömək etməsi | | | | | | |
| Qrupun təqdimatı üçün bir neçə üsuldan istifadə etməsi | | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirib nəticə çıxartmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər.

– *Vestfaliya sülhü hansı xüsusiyyətlərə malik idi?*
– *Vyana konqresinin hansı nəticələri oldu?*
– *Dövlətlərin güclənməsində tarixi şəxsiyyətlərin rolunu necə qiymətləndirirsiniz?*
– *Bismark Almaniyanın geosiyasi mövqeyi üçün hansı amilləri təhdid hesab edirdi?*
– *XIX yüzilliyin birinci yarısı və ikinci yarısında dövlətlərarası münasibətləri necə müqayisə etmək olar?*
– *XX yüzilliyin əvvəllərində İngiltərənin ənənəvi xarici siyasətinin dəyişməsinin səbəbi nə oldu?*
– *Sizcə, liderlər hər hansı bir xalqın və dövlətin tarixinə necə təsir göstərə bilərlər? Mülahizələrinizi konkret nümunələrlə əsaslandırın.*

Nəticədə şagirdlər XIX yüzillik və XX yüzilliyin əvvəllərində qlobal problemlərin həllində aparıcı dövlətlərin rolunu şərh etməyi, I Napoleonun, Otto fon Bismarkın dövlətlərinin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirməyi bacararlar.

**Yaradıcı tətbiqetmə:** Dərsliyin 36-cı səhifəsində verilmiş xəritə əsasında XIX yüzilliyin əvvəllərində Avropada siyasi vəziyyəti təhlil edin.

**Ev tapşırığı:** İnternet resurslarından istifadə etməklə XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində dövlətlərarası münasibətlərdə baş verən dəyişikliklərlə bağlı təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** şərhetmə, qiymətləndirmə.
Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində aparılmalıdır. Yeni biliklərin mənimsənilmə səviyyəsi, şagirdlərin təqdimatları, dərs zamanı müzakirələrdə iştirakı, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi aparır, müxtəlif suallar verməklə də müəllim təlim prosesində izləmiş olduğu şagirdin (şagirdlərin) hansı meyara cavab verdiyini dəqiqləşdirə və qiymətləndirə bilərsiniz. Eləcə də şagirdlərin nailiyyətləri və çatışmazlıqları nəzərə çatdırılması və tövsiyələrin verilməsi də unudulmamalıdır.

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

Şliffen planı, Sarıqamış əməliyyatı, Çanaqqala əməliyyatı, Kutül-Amarə döyüşü, Brest-Litovsk sülh müqaviləsi




42-44

**Alt standartlar:**
2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (*xəritə, sxem, cədvəl, diaqram*) təqdim edir.
3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.
3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat və tezislər hazırlayır.

**Təlim məqsədləri:**
1. Birinci dünya müharibəsi dövründə baş verən geosiyasi dəyişiklikləri xəritə formasında təqdim edir.
2. Birinci dünya müharibəsində dövlətlərin rolunu şərh edir.
3. Mənbələr əsasında Osmanlı dövlətinin tarixinə dair təhlillər aparır, tezislər hazırlayır.

**Təlim forması:** böyük və kiçik qruplar
**Təlim üsulları:** beyin həmləsi, iş vərəqləri ilə iş, mənbələrlə iş, xəritələrlə iş

**Dərsin mərhələləri**
**Motivasiya.** Motivasiyanı beyin həmləsi üsulundan istifadə etməklə təşkil etmək olar. Bunun üçün şagirdlərə "Bütün Avropanın işıqları söndü" ifadəsini necə şərh edərdiniz? sualı verilir. Aldığınız cavablardan sonra növbəti sualınızın verilməsi məqsədəmüvafiq olardı.
– *Dünya müharibəsini necə xarakterizə edərdiniz?*
Şagirdlər öz fərziyyələrini irəli sürdükdən sonra onların diqqəti tədqiqat sualına yönləndirilir.

**Tədqiqat sualı:** Birinci dünya müharibəsi dövlətlərin və xalqların taleyində hansı rolu oynadı?

**Tədqiqatın aparılması.** Tarixi məlumatların şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də xəritələrlə işdir. Bu mövzunun tədrisi zamanı qruplara xəritələrlə bağlı iş də tapşırmaq məqsədəmüvafiqdir. Xəritələrlə iş mühüm ha-

disələri məkanla (*hadisə yeri ilə*), həmçinin müasir dövrlə əlaqələndirməyə imkan verir. Mövcud dərsin tədqiqatın aparılması mərhələsini kiçik qruplarla iş formasında, yuxarıda adlarını çəkdiyimiz bir neçə dərs üsulunun birləşdirilməsi ilə aparılmasını tövsiyə edərdik. Hörmətli müəlimlər, belə addım atmaqdan çəkinmək lazım deyil. Əsas sizin quracağınız dərsin şagirdlər üçün cansıxıcı olmaması, seçəcəyiniz standartın və məqsədin reallaşdırılmasına xidmət etməsidir. Qruplara tədqiqat aparmaq üçün aşağıdakı sual və tapşırıqları verə bilərsiniz.

**I qrup**

1. Müxtəlif rəngli karandaşlardan istifadə etməklə müharibə edən dövlətlərin maraqlarını xəritə üzərində əks etdirin. (*Metodik vəsaitin sonundakı kontur xəritələrdən istifadə edə bilərsiniz.*)
2. Dünya müharibəsinin başlanmasında dövlətlərin rolunu və maraqlarını şərh edin.

**II qrup**

1. Müxtəlif rəngli karandaşlardan istifadə etməklə Osmanlı dövlətinin apardığı döyüş yerlərini, itirdiyi əraziləri xəritə üzərində işarələyin.
2. Osmanlı dövlətinin dünya müharibəsində rolunu şərh edin.

**III qrup**

1. Müxtəlif rəngli karandaşlardan istifadə etməklə Osmanlı dövlətinin apardığı döyüş yerlərini, itirdiyi əraziləri xəritə üzərində işarələyin.
2. ABŞ və Rusiyanın dünya müharibəsində rolunu şərh edin.

**IV qrup**

1. Müxtəlif rəngli karandaşlardan istifadə etməklə Antanta ittifaqı və üçlər ittifaqı üzvlərinin, eləcə də müharibə gedişində tərəf dəyişən dövlətləri xəritə üzərində işarələyin.
2. Dərsliyin 46-cı səhifəsindəki mənbələr əsasında "erməni soyqırımı" na dair təhlillər aparıb tezislər hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsi həyata keçirilir. Bu mərhələdə şagirdlərə tədqiqatın gedişində əldə etdikləri informasiyanı təqdim etməyə, yeni informasiyanın mübadiləsini aparmağa müəyyən vaxt verilir və onların təqdimatları dinlənilir. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edəcək.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcəkdir. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün siz şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edə bilərsiniz:

– *Əvvəlki mövzu əsasında Birinci dünya müharibəsinin səbəblərini təhlil edin.*
– *Çanaqqala döyüşündə türk ordusunun qələbəsinin səbəbi nə idi?*
– *Sizcə, Osmanlı dövlətinin bölüşdürülməsi Birinci dünya müharibəsinin səbəblərindən biri ola bilərmi?*
– *Uydurma erməni soyqırımının saxta təbliğat vasitəsi olduğunu necə əsaslandıra bilərsiniz?*
– *Müharibə qadınların və uşaqların həyatına necə təsir göstərdi?*
– *Sizcə, müharibədə hansı təbliğat vasitələrindən istifadə edilir və bu hansı məqsədləri daşıyır?*
– *"İspan qripi"ni 2020-ci ilin "COVID-19" epidemiyası ilə müqayisə edin.*

**Yaradıcı tətbiqetmə.** Mənbələrdəki məlumatları müqayisə edin. *Sizcə, Böyük Britaniyanın ikili siyasət yürütməsində məqsəd nə idi? Müasir dövrümüzdə mövcud olan ərəb-İsrail münaqişəsi Birinci dünya müharibəsinin təsirlərinin davam etdiyini deməyə əsas verirmi?*

**Ev tapşırığı:** İnternet resurslarından istifadə etməklə Birinci dünya müharibəsində tətbiq edilən yeni hərbi taktika və silahlar haqqında təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** təqdimetmə, şərhetmə, tezislər hazırlama
Bu mərhələdə dərs ərzində aparılan qeydlər əsasında şagirdləri fərdi və qrup üzrə qiymətləndirmək mümkündür. Unutmayın ki, qiymətləndirmə zamanı siz şagirdlərin informasiyanı yadda saxladığını yox, bu informasiyanı anlamaq səviyyəsini və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığını daha çox nəzərə alınmalıdır. Şagirdlərin formativ qiymətləndirməsini  yuxarıdakı meyarlar əsasında müəyyənləşdirilən səviyyələrə görə həyata keçirmək lazımdır. Ancaq IV qrup üzvlərinin 3.1.3. standartı əsasında qiymətləndirilməli olduğunu da unutmamalısınız.

# MƏDƏNİYYƏT

"Sənaye cəmiyyəti", kütləvi mədəniyyət, impressionizm, Eyfel qülləsi, "Kristal saray", radio


MƏDƏNİYYƏT

48-49

**Alt standartlar:**

5.1.1. Aqrar (*ənənəvi*), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətin inkişafına təsirini izah edir.

5.1.3. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair referat və tezislər hazırlayır.

**Təlim məqsədləri:**

1. XIX yüzillik – XX yüzilliyin əvvəllərində aqrar, sənaye və informasiya cəmiyyətlərinin dünya mədəniyyətinin inkişafına təsirini izah edir.
2. XIX yüzillik – XX yüzilliyin əvvəllərində mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair tezislər hazırlayır.

**Təlim forması:** kollektiv, fərdi
**Təlim üsulları:** beyin həmləsi, "bir dəqiqə"

**Dərsin mərhələləri**

**Motivasiya.** Bu mövzunun tədrisi zamanı müxtəlif vasitələrdən istifadə etməklə motivasiya qurmaq olar. Bunun üçün dünya mədəniyyətini əks etdirən fotolar və ya mədəniyyət abidələrindən nümunələr təqdim etməklə mövzuya uyğun suallar vermək mümkündür. Verəcəyiniz suallar aşağıdakı formada ola bilər:

– *Gördüyünüz fotolar (slaydlar) sizdə nəyə maraq oyadır?*
– *Sizcə, bugünkü dərsdə biz nəyi öyrənəcəyik?*
– *Siz nəyi tədqiq etmək istərdiniz?*

Şagirdlərin verdikləri cavabları ümumiləşdirib, onları lazımi istiqamətə yönəldib yeni materialların tədqiqinə keçə bilərsiniz.

**Tədqiqat sualı:** XIX yüzillik–XX yüzilliyin əvvəllərindəki dünya mədəniyyəti tarixdə hansı yeniliklərlə iz qoydu?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunduqdan sonra dərsin tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "bir dəqiqə" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir, onlara bu dərs üsulunun qaydaları xatırladılır *(Materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual və ya bir cümlə bildiriləcək. Siz də, öz növbənizdə, səsləndirilən problemi bir dəqiqə ərzində şərh etməlisiniz.)* bilərsiniz. Bu üsulun tətbiqi zamanı aşağıdakı tapşırıqlardan istifadə etmək məqsədəmüvafiq olardı;

– *"Sənaye cəmiyyəti"- nin mədəniyyətin inkişafına necə təsir göstərdiyini izah edin.*
– *Mədəniyyətin kütləviləşməsinin sosial-iqtisadi səbəb və nəticələrini izah edin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünyada rəssamlığın inkişafının səbəblərini izah edin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünyada musiqinin inkişafının səbəblərini izah edin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünyada memarlığın inkişafının səbəblərini izah edin.*
– *Albert Enşteynin və Ziqmund Freydin elmi yanaşmalarının şərhini verin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünyada fəlsəfə elminin inkişafının səbəblərini izah edin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində türk düşüncə tarixinin inkişafını izah edin.*
– *51-ci səhifədə verilmiş mənbə əsasında İsmayıl Qaspıralının fikirlərini necə dəyərləndirirsiniz? Mülahizələrinizi müasir dövrlə əlaqələndirin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünyada elmin digər sahələrinin inkişafını izah edin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünyada təhsilin inkişafını izah edin.*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində türk ədəbiyyatının inkişafını izah edin.*
– *Rabindranat Taqorun və Viktor Hüqonun yaradıcılığını şərh edin.*
– *Dövrün digər tanınmış ədəbi xadimlərinin yaradıcılığını şərh edin.*

Səhifə 53-də verilmiş mənbə əsasında Emil Zolyanın mövqeyini necə dəyərləndirirsiniz?
**Qeyd:** Hörmətli müəllimlər, yuxarıda verilmiş tapşırıqlar azlıq təşkil edərsə, siz özünüz əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı (təbii ki, tam cavablandırılmayan tapşırığı) təkrarən digər şagirdə verə bilərsiniz.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsin tədqiqatın aparılması mərhələsi bitdikdən sonra dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçə bilərsiniz. Burada şagirdlərə əlavə olaraq sual və tapşırıqlar verə bilərsiniz. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edildikdən sonra dərsin bu mərhələsini yekunlaşdıra bilərsiniz. Dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş olan sualları əvvəlcədən hazırlamalısınız.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici suallarla müraciət edə bilərsiniz:

– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində memarlıqda hansı yeniliklər baş vermişdir?*
– *Rentgen şüalarının tibbdə və texnikada istifadəsi haqqında nə bilirsiniz?*
– *XIX əsrin ikinci yarısında Qərbi Avropanın bir sıra ölkələrində icbari və ödənişsiz təhsilin tətbiq edilməsinin səbəb-nəticə əlaqəsini necə izah edərdiniz?*
– *XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünya və Azərbaycan mədəniyyətinin qarşılıqlı təsirlərini necə şərh edərdiniz?*

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər XIX yüzillik – XX yüzilliyin əvvəllərində aqrar, sənaye və informasiya cəmiyyətlərinin dünya mədəniyyətinin inkişafına təsirini izah edərək, müxtəlif məsələlərə dair şərhlər verib, bəzi hadisələri dəyərləndirməyi bacararlar.

**Yaradıcı tətbiqetmə:** XIX yüzillik – XX yüzilliyin əvvəllərində dünya mədəniyyətinin inkişafına dair tezislər hazırlayın.

**Ev tapşırığı:** XIX əsr – XX əsrin əvvəllərində mədəniyyətin müxtəlif sahələrindəki yeniliklərə aid cədvəli tamamlayın:

| Mədəniyyət sahələri | Yeniliklər |
|---|---|
| Memarlıq | |
| Elm və təhsil | |

**Maraqlıdır**



İmpressionizm (*təəssüratçılıq*) anlayışı ilk dəfə "Günəşin doğması" əsəri üçün istifadə edilmişdir. Sonralar rəssamlıqda cərəyanlardan biri bu cür adlandırılmağa başlandı.

**Qiymətləndirmə meyarları:** izahetmə, tezis hazırlama.
Göstərilən meyarlar əsasında şagirdlərin formativ qiymətləndirməsi həyata keçirilir. Formativ qiymətləndirməni aşağıda verilmiş nümunə əsasında özünüqiymətləndirmə vərəqindən istifadə etməklə də yaza bilərsiniz.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**
Ad, soyad ______________________
Tarix _______________

| MEYARLAR | XEYR | QİSMƏN | TAM |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |

# VERSAL-VAŞİNQTON SİSTEMİ

Paris sülh konfransı, 14 maddə prinsipi, Versal sülh müqaviləsi, Millətlər Cəmiyyəti, "Mandat rejimi", Vaşinqton konfransı




54-55

**Alt standartlar:**

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim məqsədləri:**

1. Birinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir.
2. Birinci dünya müharibəsinin nəticələrinin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** beyin həmləsi, İNSERT, afişaların hazırlanması

**Dərsin mərhələləri**

**Motivasiya.** Motivasiyanızı şagirdlərin keçmiş dərsdə aldıqları bilgilər üzərində qura bilərsiniz. Bunun üçün aşağıdakı suallardan istifadə köməyinizə çata bilər:

– *Birinci dünya müharibəsi nə ilə nəticələndi?*
– *Sizcə, müharibə nə üçün Almaniyanın süqutu ilə bitdi?*
– *İnsanların taleyində əsaslı dəyişikliyə yol açan bu müharibə hansı fəsadları ilə tarixdə qaldı?*

Verəcəyiniz sualları şagirdlərin verdiyi cavablara görə dəyişə bilərsiniz. Motivasiya üçün sualları, adətən, mürəkkəbdən asana doğru vermək daha səmərəli olur. Bu zaman şagird düşünməyə məcbur olur. Dərs maraqlı alınsın deyə araşdırma, öyrənmə hissi yaratmaq üçün sövqedici şərait təşkil edilməlidir. Motivasiya çox da mürəkkəb qurulmamalıdır. Çünki mürəkkəb motivasiya zaman itkisi deməkdir. Amma çox asan olan motivasiya da şagirdlərdə dərsə olan marağı azalda bilər.

**Tədqiqat sualı:** Birinci dünya müharibəsi dövlətlərin, xalqların taleyini necə dəyişdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını kiçik qruplarla iş formasından istifadə etməklə aparılmasını tövsiyə edərdik. Müzakirə üsulundan istifadə etmək daha yaxşı olardı. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz:

### I qrup

Versal, Paris, Sen-Jermen, Neyi, Sevr müqavilələrinə görə qalib dövlətlərin "qazanc"ını qiymətləndirin.

### II qrup

Versal, Paris, Sen-Jermen, Neyi, Sevr müqavilələrinə görə məğlub dövlətlərin "itirdiklər" ini şərh edin.

### III qrup

Vilsonun 14 maddə prinsipini qiymətləndirin.

### IV qrup

Birinci dünya müharibəsindən sonrakı ziddiyyətləri qiymətləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Daha sonra əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında qrupla qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Qruplar təqdimatlarını etdikdən sonra dərsin yekunlaşdırılması və tədqiqat sualının cavabının tapılması üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:

- *Sizcə, nə üçün qaliblər Paris sülh konfransını tarixdə yeni dövrün başlanğıcı elan etmişdilər?*
- *Paris sülh konfransının məqsədi nə idi?*
- *Sovet Rusiyası nə üçün konfransa dəvət edilmədi?*
- *Versal müqaviləsinin Almaniya üçün daha ağır şərti hansı ola bilərdi? Səbəbini əsaslandırın.*
- *Paris konfransında dövlətlərarası münasibətlər hansı prinsip əsasında tənzimlənirdi?*
- *Paris konfransında Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasını millətlərin öz müqəddəratını təyinetmə prinsipi ilə əlaqələndirərək dəyərləndirin.*

**Yaradıcı tətbiqetmə.** "Vaşinqton konfransında ABŞ mənafeyi" adlı afişa hazırlayın.

**Ev tapşırığı.** *Vilsonun "14 maddə"si və Versal müqaviləsinin şərtlərini müqayisə edin.*

| *V.Vilsonun "14 maddə"si* | | *Versal müqaviləsi* |
|---|---|---|
| **Fərqli cəhətləri** | **Oxşar cəhətləri** | **Fərqli cəhətləri** |
| | | |

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, şərhetmə
Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu da unutmamalısınız.
Vaxt olarsa, dərsin sonunda aşağıdakı cədvəli paylayıb şagirdlərə meyarlara uyğun cədvəlin tamamlanması təklif edilir.

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərinizi necə qiymətləndirirsiniz?

| Meyar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına maraq | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşma | | | | |

# ABŞ, BÖYÜK BRİTANİYA VƏ FRANSA

"Böyük böhran", konveyer, Franklin Ruzvelt, "Yeni xətt", Lloyd Corc, leyboristlər, milli blok, xalq cəbhəsi.



60-61

**Alt standartlar:**

1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında araşdırmalar aparır, təqdimatlar edir.

**Təlim məqsədləri:**

1. ABŞ, Böyük Britaniya və Fransanın sosial-iqtisadi həyat faktlarını iqtisadi inkişafın müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.
2. Franklin Ruzvelt haqqında araşdırmalar aparır, təqdimatlar edir.

**Təlim forması:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, müzakirə

**Dərsin mərhələləri**

**Motivasiya.** Yeni dərsiniz üçün motivasiyanı şagirdlərin fərziyyələri əsasında qura bilərsiniz. Bunun üçün şagirdlərə:

– *Dağıdıcı müharibədən sonra dövlətlər yenidən özlərini necə bərpa edə bilərdilər?*

– *Sizcə, iqtisadi və sosial vəziyyətə zərbə vuran müharibənin fəsadlarını aradan qaldırmaq üçün böyük dövlətlər hansı addımlar ata bilər?*

Aldığınız cavablardan əldə edilən fərziyyələri lazimi istiqamətə yönəldib dərsin motivasiyasını reallaşdıra bilərdiniz. Daha sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı:** Birinci dünya müharibəsinin başa çatmasından sonra ABŞ, Böyük Britaniya və Fransada sosial iqtisadi həyat necə inkişaf etdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı verilir, şagirdlər qruplara bölünür. Bölgünü apararkən daha çevik və maraqlı vasitələrə müraciət etmək marağa səbəb olacaq. Bu yolla siz həm də vaxta qənaət etmiş olursunuz. Rəngli kartlardan da istifadə etmək olar. Eyni

rəngi seçən şagirdlər dörd kiçik qruplarda birləşir. Dərsi müzakirə üsulundan istifadə etməklə qurmaq mümkündür.
Dərsin gedişində mütləq inteqrasiya olunmuş fənnlərin standartlarının tələblərinə baxın. Verilən tələbləri nəzərə almaqla inteqrasiya həyata keçirilir. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz:

### I qrup

Vudro Vilsonun və Uoren Hardinqin prezidentliyi dövründə ABŞ-nin sosial-iqtisadi inkişafını dəyərləndirin.

### II qrup

Herbert Huver və Franklin Ruzveltin prezidentliyi dövründə ABŞ-nin sosial-iqtisadi inkişafını dəyərləndirin.

### III qrup

Dünya müharibəsindən sonra Böyük Britaniyanın sosial-iqtisadi inkişafını dəyərləndirin.

### IV qrup

Dünya müharibəsindən sonra Fransanın sosial-iqtisadi inkişafını dəyərləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqat aparmaq üçün qruplara verilən vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid ala bilərsiniz. Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri məlumatların, yeni informasiyanın mübadiləsini aparırlar. Qrup təqdimatı zamanı təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Müzakirə zamanı fasilitasiya əsasında (*yönəldici, köməkçi suallardan istifadə etməklə*) əldə edilmiş faktların məqsədyönlü müzakirəsində və onların təşkilində şagirdlərə kömək edin. Dərsin bu mərhələsində qrupları əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qiymətləndirə bilərsiniz.

| Qruplar | Mübadilədən düzgün istifadə | Əməkdaşlıq | Tapşırığın vaxtında yerinə yetirilməsi | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I qrup | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| II qrup | | | | | |
| III qrup | | | | | |
| IV qrup | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlərin yeni bilginin əldə edilməsi yolunda son addımı konkret nəticəyə gəlmək və ümumiləşdirməni aparmaqdır. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirir. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

- *Qadınlara seçki hüququnun verilməsi və onların bərabərhüquqlu vətəndaş hesab edilməsi ilk dəfə hansı ölkədə tətbiq olunmuşdur?*
- *Sizcə, kənar ölkələrdən, xüsusilə Asiya ölkələrindən ABŞ-yə mühacir axınının səbəbləri nə ola bilərdi?*
- *F. Ruzveltin daxili siyasətində dövlətin iqtisadiyyatda tənzimləyici rolunu necə qiymətləndirirsiniz?*
- *ABŞ prezidentləri T. Ruzvelt və F. Ruzveltin xarici siyasətinin hansı oxşar xüsusiyyətləri vardır?*
- *Böyük Britaniyada tez-tez hökumət böhranlarının baş verməsinin səbəbləri nə ola bilərdi?*
- *Birinci dünya müharibəsindən sonra Fransanın iqtisadi durumunun digər Avropa ölkələrinə görə daha ağır vəziyyətdə olmasını necə qiymətləndirirsiniz?*
- *Milli blok hökumətinin hakimiyyətini zəifldən amilləri necə qiymətləndirərdiniz?*

**Ev tapşırığı.** Franklin Ruzvelt haqqında araşdırmalar aparıb təqdimatlar hazırlayın.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təqdimat etmə.
Yeni biliyin mənimsənilməsinə bir daha nəzər salıb, şagirdlərin təqdimatlarını, dərs zamanı müzakirələrdə iştirak səviyyəsini, verdikləri məntiqli cavabları barədə yığcam rəy mübadiləsi apararaq şagirdləri qiymətləndirə bilərsiniz. Bununla belə bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdlərin nailiyyətlərinin qiymətləndirmə meyarlarına uyğun olub-olmadığını müəyyənləşdirməlisiniz. Sonuncu meyarı qiymətləndirmək verdiyiniz ev tapşırığının yerinə yetirilməsindən sonra mümkün olacaq.

# ALMANİYA VƏ SSRİ

"Veymar konstitusiyası", Reyxstaq, Fürer, "Gestapo", kommunist, kolxoz, repressiya



66-67

**Alt standartlar:**

1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

**Təlim məqsədləri:**

1. Almaniya və SSRİ-nin siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

**Təlim forması:** böyük qruplarla iş, cütlərlə iş
**Təlim üsulları:** söz assosiasiyası, bir-birini öyrətmək

**Dərsin mərhələləri**

**Motivasiya.** Söz assosiasiyası üsulundan istifadə etməklə mövzunuza motivasiyanızı qura bilərsiniz. Bunun üçün lövhədə reyxstaq, reyxskansler, fürer, gestapo, sosializm, kommunist, proletar diktaturası və s. sözlər yazılır və şagirdlərə;

– *Sizcə, bu sözlər hansı dövrü xarakterizə edir?*
– *Bu sözləri birləşdirən ümumi cəhətlər hansılardır?* kimi suallarla müraciət olunur. Alınan cavabları ümumiləşdirib şagirdlərin diqqətini tədqiqat sualına yönəltməyiniz vacibdir.

**Tədqiqat sualı:** XX yüzilliyin 20–30-cu illərində Almaniya və SSR-də baş vermiş proseslərin tarixdəki rolu nədən ibarətdir?

**Tədqiqatın aparılması.** Dərsin tədqiqatın aparılması mərhələsinin bir-birini öyrətmək üsulu ilə keçirilməsini təklif edərdik. Unutmayın ki, dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birilərini öyrətməyi istəmək önəmli nailiyyət əldə etməyin yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bu zaman şagirdlərə tədqiqatçılıq xarakterli tapşırıq verilir. Şagirdlərə tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamağı öyrətmək də vacibdir. Əgər şagirdlər, bu barədə digərinə öyrədərlərsə onda həqiqətən mövzunu mənimsəmiş olarlar. Bunun üçün şagirdlərə aşağıdakı tapşırıqları verə bilərsiniz:

**I cüt**

Almaniyanın inqilabdan əvvəlki vəziyyətini qiymətləndirin.

______________________________

______________________________

**II cüt**

1918-ci il noyabr inqilabını qiymətləndirin.

______________________________

______________________________

**III cüt**

Almaniyanın "qızıl dövrü"nü dəyərləndirin.

______________________________

______________________________

**IV cüt**

A.Hitlerin Almaniya tarixində oynadığı rolu qiymətləndirin.

______________________________

______________________________

**V cüt**

Rusiyanın 1917-ci il tarixini qiymətləndirin.

______________________________

______________________________

**VI cüt**

V.Leninin Rusiya tarixində oynadığı rolu qiymətləndirin.

______________________________

______________________________

**VII cüt**

Almaniyanın inqilabdan əvvəlki vəziyyətini qiymətləndirin.

______________________________

______________________________

**VIII cüt**

İ.Stalinin SSRİ tarixində oynadığı rolu qiymətləndirin.

______________________________

______________________________

**IX cüt**

Rusiyada sovetlərin hakimiyyətə gəlməsini qiymətləndirin.

**X cüt**

SSRİ-nin qurulmasını qiymətləndirin.

**Qeyd:** Əgər sinifdə şagirdlərin sayı çoxdursa, daha əhəmiyyətli saydığınız tapşırıqları cütlərə verə bilərsiniz. Bu, eyni problemə müxtəlif yanaşmaların ortaya çıxmasına yardım edəcəkdir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir cütün təqdimatı dinlənilir. Bu zaman cüt üzvlərinin bir-birilərini öyrətmə bacarığının hansı səviyyədə olduğu ortaya çıxır. Müzakirələr zamanı cütlərdən kimin "öyrədən", kimin "öyrənən" olduğu diqqətdə saxlanmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə yeni biliklərin əldə edilməsində son addım konkret nəticəyə gəlmək və ümumiləşdirmələr aparmaqdır. Bu proses zamanı şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualına cavab və nəticə çıxarılmasına müəllimin verdiyi suallar da kömək edər.

Bunun üçün aşağdakı sual və tapşırıqlardan istifadə edə bilərsiniz:

- *Müharibədən sonra Almaniyanın iqtisadi vəziyyətinin səbəblərini müəyyən edin.*
- *Almaniyada Kil dənizçilərinin üsyanının səbəbləri nələrdir?*
- *"Pivəxana qiyamı" nın uğursuz olmasının səbəblərini necə qiymətləndirərdiniz?*
- *Nasistlərin hakimiyyətə gəlməsinə hansı amillər şərait yaratmışdı?*
- *Bolşeviklər əhalini öz tərəfinə çəkmək üçün hansı vədləri verirdilər?*
- *Birinci dünya müharibəsinin Rusiya üçün nəticələrini müəyyən edin.*
- *Yeni İqtisadi Siyasətin (YİS) üstün xüsusiyyətlərini necə qiymətləndirirsiniz?*
- *Kollektivləşdirmə siyasətinin nəticələrini müəyyənləşdirin.*
- *Kolxozçulara pasport verilməməsi hansı nəticələrə gətirib çıxardı?*

| XX əsrin 20–30-cu illərində totalitar rejimli dövlətlərin siyasi xətlərini müəyyən edin. | | |
|---|---|---|
| **Almaniya** | | **SSRİ** |
| Fərqli | Oxşar | Fərqli |
| | | |



Vladimir Lenin Oktyabr çevrilişi zamanı

**Qiymətləndirmə meyarı:** qiymətləndirmə

Şagirdlərin qiymətləndirilməsi təlim mərhələsinə uyğun aparılır. Qiymətləndirmə zamanı siz şagirdlərin informasiyanı yadda saxladığını yox, bu informasiyanı anlama səviyyəsini və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığını daha çox nəzərə almalısınız.

Qrupları qiymətləndirən zaman aşağıdakı qrup qiymətləndirmə vərəqindən də yararlana bilərsiniz.

# TÜRKİYƏ VƏ İRAN

Atatürk, "Hüquqların müdafiəsi" cəmiyyəti, Mudros barışığı, "Milli and", Etatizm, Şeyx Məhəmməd Xiyabani, Rza xan, Pəhləvilər sülaləsi




72-73

**Alt standartlar:**

1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.

4.1.1. Tarixi şəxsiyyətləri *(I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napoleon, I Aleksandr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev)* mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında araşdırmalar aparır, təqdimatlar edir.

**Təlim məqsədləri:**

1. I Dünya müharibəsindən sonra Türkiyə, İran və Azərbaycanda gedən proseslər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.
2. Mustafa Kamal Atatürk və Rza şah Pəhləvinin mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.
3. Mustafa Kamal haqqında araşdırmalar aparır, təqdimatlar edir.

**Təlim forması:** böyük qruplarla və cütlərlə iş
**Təlim üsulları:** beyin həmləsi, problemə müxtəlif nöqteyi-nəzərdən müzakirə.

**Dərsin mərhələləri**

**Motivasiya.** Açar sözlərdən də istifadə etməklə motivasiya qurmaq mümkündür. Mövzunun açar sözləri: Atatürk, etatizm, Rza xan, Pəhləvilər sülaləsi lövhəyə yazılır və şagirdlərə müvafiq suallar ünvanlanır. Əvvəlki mövzuya müraciət etmək şagirdlərin hafizəsinin yenilənməsinə və yeni mövzunun mənimsənilməsinə kömək etməklə yanaşı, bir yüzillik ərzində bir dövlətin tarixinin onların təfəkküründə inikasına şərait yaradar.

Verəcəyiniz suallar belə ola bilər:

– *Gördüyünuz sözlər sizə tanışdırmı?*

– *Bu sözlərlə harada rastlaşmısınız?*
– *İkinci dünya müharibəsindən sonra Türkiyə və İranda iqtisadi və siyasi proseslərin necə inkişaf etdiyi sizə maraqlıdırmı?*

Alınan cavabları lazımi məcraya yönəldib tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı:** Birinci dünya müharibəsindən sonra Türkiyə və İranda gedən proseslərdə tarixi şəxsiyyətlər hansı rolu oynadı?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını problemə müxtəlif nöqteyi-nəzərdən baxış üsulu ilə keçirilməsi məqsədəuyğun olardı. Bunun üçün də sinfi cütlərə bölmək lazımdır. Dərsinizi problemə müxtəlif nəzər nöqtədən baxış üsulu ilə keçən zaman hər cütə mövzunu axıra qədər oxumağı, sonra isə onlara verilən tapşırığa uyğun olaraq hadisəni müxtəlif insanların dilindən nəql etmək tapşırılır. Tapşırığın icrası zamanı şagirdlərə diqqətli olmağı, hadisəni nəql edən zaman məzmuna fikir verməyi  məsləhət görə bilərsiniz. Cütlərə tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz.

**I cüt**

Müdaxiləçilərin ölkəsinə etdikləri hücumu Mustafa Kamalın nöqteyi-nəzəri ilə qiymətləndirin.

______________________________

______________________________

**II cüt**

İngilislərin Osmanlı dövlətinə münasibətini qiymətləndirin.

______________________________

______________________________

**III cüt**

Sovet Rusiyasının  XX əsrin 20-ci illərində Türkiyəyə münasibətini qiymətləndirin.

______________________________

______________________________

**IV cüt**

Osmanlı sultanının nöqteyi-nəzəri ilə ölkəsində aparılan fəal hərbi əməliyyatları qiymətləndirin.

______________________________

______________________________

**V cüt**

Mustafa Kamalın nöqteyi-nəzəri ilə Türkiyənin inkişafını qiymətləndirin.

______________________________

______________________________

### VI cüt

İngilis hökümətinin İran dövlətinin iqtisadi inkişafına münasibətini qiymətləndirin.

### VII cüt

Türkiyədə xalq kütləsinin nöqteyi-nəzəri ilə ölkənin işğala məruz qalmasını qiymətləndirin.

### VIII cüt

Türkiyədə xalq kütləsinin nöqteyi-nəzəri ilə ölkənin inkişafını qiymətləndirin.

### IX cüt

İranda xalq kütləsinin nöqteyi-nəzəri ilə ölkənin inkişafını qiymətləndirin.

### X cüt

İran şahlarının nöqteyi-nəzəri ilə ingilislərin İranda yürütdükləri siyasəti qiymətləndirin.

### XI cüt

İran şahlarının ölkənin inkişafına münasibətini qiymətləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Cütlərə hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir cüt təqdimat etmək üçün öz nümayəndəsini seçir. Təqdimatda cütün hər iki üzvü də iştirak edə bilər. Bu, təqdimatın daha maraqlı olmasına şərait yaratmaqla yanaşı, demək olar ki, sinif şagirdlərinin əksəriyyətini tədqiqata cəlb etmiş olar. Təqdimat zamanı müzakirələrin daha canlı alınması üçün təqdimatların ardıcıllığını özünüz müəyyənləşdirin. Bu zaman da sizin dövlət mənafelərini, kəsişən maraqları nəzərə almağınız məqsədəuyğundur. Təqdimat zamanı şagirdləri lazımi məcraya yönəltmək üçün onlara suallar verməyiniz yaxşı olardı. Şagirdlərin də suallar verməsi qəbuledilləndir. Bu zaman təqdimat üçün hər bir cütə konkret vaxt vermək və onu diqqətdə saxlamaq lazımdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Təqdimatlar və məlumatın mübadiləsi və müzakirəsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– *Mustafa Kamalın milli qüvvələri səfərbər etməkdə əsas məqsədi nə idi?*
– *Sevr müqaviləsini dövlətçilik baxımından necə qiymətləndirmək mümkündür?*

- *Etatizim siyasətinin məzmunu olan dövlət kapitalizmini necə dəyərləndirmək olar?*
- *Xilafətin ləğv edilməsi, Şəriət və Vəqflər Nazirliyinin ləğvi, eləcə də Avropa nümunəsində mülki və cinayət məcəllələrinin qəbulu arasında hansı bağlılıqlar var?*
- *"İranın inkişafına ingilis köməyi haqqında saziş"i necə dəyərləndirmək olar?*
- *Sizcə, ingilis hökumətinin İrandakı xalq azadlıq hərəkatlarının yatırılmasında hansı maraqları var idi?*
- *Dövlətin inkişafı naminə Rza şahın atdığı hansı addım yüksək dəyərləndirilə bilər?*
- *Sizcə, I Dünya müharibəsindən sonra Türkiyə, İran və Azərbaycanda gedən proseslər arasında hansı tarixi əlaqələri görmək olar?*
- *Türkiyə və İranın XX əsrin 20–30-cu illərdəki tarixində hansı oxşarlıqlar vardır?*

**Yaradıcı tətbiqetmə.** Öyrəndiyiniz dövrdə Türkiyə-Azərbaycan əlaqələrini cədvəl formasında təqdim edin.
**Ev tapşırığı.** Mustafa Kamal haqqında təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** tarixi zaman baxımından qiymətləndirmə, təsiri baxımından qiymətləndirmə, araşdırmalar aparıb təqdimat hazırlama, təqdimetmə
Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün müəllim meyarları nəzərə almalı, qiymətləndirəcəyi şagirdləri dərsboyu diqqətdə saxlamalı və onların fəaliyyətlərini izləməlidir. Dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla əvvəlcədən müəyyən etdiyiniz səviyyələr üzrə şagirdləri qiymətləndirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdin fəaliyyəti ilə bağlı müəyyən suallar yaranarsa, onlara əlavə suallar da vermək olar. Sonuncu meyar üzrə şagirdləri dərs prosesində qiymətləndirməyin mümkün olmadığını nəzərə alaraq qiymətləndirməni ancaq növbəti dərsdə həyata keçirmək mümkün olacaqdır. Bunun üçün də onlara verilən ev tapşırığının, müəyyənləşdirdiyiniz vaxtda yığılıb yoxlanılması vacibdir.
Dərsin sonunda şagirdlərə refleksiya üçün aşağıdakı sualları verə bilərsiniz:

- *Dərsdə hansı yeniliyi öyrəndiniz?*
- *Sizə nə aydın olmadı?*
- *Hansı suallarınız var?*
- *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*
- *Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?*
- *Yeni mövzu üzərində necə işlədiniz? və s.*

# HİNDİSTAN, ÇİN VƏ YAPONİYA

Mohandas Qandi, "Duz yürüşü", Sun Yatsen, Homindan partiyası, Mao Tszedun, general Tanaka, Mançjou-Qo


HİNDİSTAN, ÇİN VƏ YAPONİYA

78-79

**Alt standartlar:**

2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (*xəritə, sxem, cədvəl, diaqram*) təqdim edir.

4.1.1. Tarixi şəxsiyyətləri *(I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napoleon, I Aleksandr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev)* mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim məqsədləri:**

1. I Dünya müharibəsindən sonrakı dövrdə Hindistan, Çin və Yaponiyada baş verən geosiyasi dəyişiklikləri sxem formasında təqdim edir.
2. Sun Yatsen, Mao Tszedun, Mohandos Qandini mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim forması:** böyük və kiçik qruplar
**Təlim üsulları:** beyin həmləsi, üç cümlə, sxemləşdirmə

**Dərsin mərhələləri**

**Motivasiya.** Motivasiyanın həyata keçirilməsi üçün dərsliyin 82-ci səhifəsində verilmiş mənbəni *("Əgər Yaponiya özünümüdafiə və digərlərini müdafiə etmək üçün "dəmir və qanla" siyasətini yürütməsə, Şərqi Asiyada çətinlikləri həll edə bilməz... Çini tutmaq üçün biz əvvəl Mancuriyanı və Monqolustanı ələ keçirməliyik. Dünyanı tutmaq üçün biz əvvəl Çini ələ keçirməliyik. Əgər biz Çini ələ keçirə bilsək, bütün Kiçik Asiya ölkələri, Hindistan, eləcə də Cənub dənizi ölkələri bizdən qorxar və bizə təslim olar")* oxudulur, şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– *Aldığınız informasiya hansı dövlətlərin tarixinə aid ola bilər?*
– *Sizcə, burada təcavüzkar dövlət rolunda hansı dövləti qeyd edə bilərik?*
– *Yaponiyanın əsas hədəfi hara idi?*

Alınan cavablar şagirdlərlə müzakirə edilir, dərsin növbəti mərhələsinə keçid edilir.

**Tədqiqat sualı:** I Dünya müharibəsindən sonrakı dövrdə Hindistan, Çin və Yaponiyada baş verən geosiyasi dəyişikliklər necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını kiçik qruplarla iş formasından istifadə etməklə təşkilini tövsiyə edərdik. Müəllim fəal təlimin "üç cümlə" və "sxemləşdirmə" üsullarının sintezindən istifadə edə bilər. Belə üsulla keçilən dərsdə, iki qrupa verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə yazmağı, digər iki qrupa isə hadisələrin sxemləşdirilməsi tapşırığını verirdi. Bu zaman məzmunun əsas götürüləcəyini şagirdlərin diqqətinə çatdırmaq yaxşı olardı.
Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları verə bilərsiniz:

**I qrup**
Mao Tsezdun və Çan Kayşinin fəaliyyətini sxemləşdirin.

**II qrup**
Hindistanda vətəndaş itaətsizliyi və "Duz yürüşü" kompaniyalarında Mohandos Qandinin rolunu qiymətləndirin.

**III qrup**
Yaponiyanın təcavüzkarlq siyasətini sxemləşdirin.

**IV qrup**
I Dünya müharibəsindən sonrakı dövrdə Sun Yatsenin ölkənin birləşdirilməsi yolunda mübarizəsini qiymətləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələ qrup işinə ayrılmış vaxt bitdikdən sonra həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Qruplar əvvəlcədən müəyyən edilən meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə yeni biliklərin əldə edilməsində son addım konkret nəticəyə gəlmək və ümumiləşdirmələr aparmaqdır. Bu proses zamanı şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualına cavab və nəticə çıxarılmasına müəllimin verdiyi suallar da kömək edər.

Bunun üçün aşağdakı sual və tapşırıqlardan istifadə edə bilərsiniz:
- *Vətəndaş itaətsizliyi kompaniyasını necə qiymətləndirirsiniz?*
- *İngilislərin "parçala və hökmranlıq et" prinsipini necə qiymətləndirirsiniz?*
- *Sizcə, Qərb dövlətlərinin Sun Yatsenə yardım etməməsinin səbəbi nə ola bilərdi?*
- *Çan Kayşinin kommunistlərlə ittifaqı pozub Qərbə meyilli siyasət yürütməsini necə qiymətləndirmək olar?*
- *Şimal-şərqi Çini tutan Yaponiya bu ərazini imperiyasına qatmadı və burada "müstəqil" Mançjou-Qo dövləti yaratdı. Yaponiyanın bu addımını necə qiymətləndirirsiniz?*
- *Sizcə, Yaponiyanın təcavüzkar xarici siyasət yolunu tutması Vaşinqton konfransının qərarları ilə bağlı ola bilərdimi? Fikrinizi əsaslandırın.*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "Yaponiyanın tarixini diqqətlə nəzərdən keçirin və bu ölkənin təcavüzkarlıq siyasətinin planını qurun" tapşırığını vermək mümkündür.

**Ev tapşırığı:** Mao Tszedunun fəaliyyəti ilə bağlı araşdırma aparın.

**Qiymətləndirmə meyarları:** təqdimetmə, qiymətləndirmə
Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Lakin lazım gəldikdə bu mərhələ zamanı müəllim müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğu şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilər. Yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla əvvəlcədən müəyyən etdiyiniz səviyyələr üzrə şagirdləri qiymətləndirə bilərsiniz.

| Meyarlar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| Əsas anlayışlar, problemlər, mövzular, ideyalar | Seçilmir. | Seçilir, tərifi verilir və təsvir edilir. | Yaxşı seçilir, tərifi və təsviri verilir. | Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir. |
| Faktlar, informasiya | Yoxdur və ya qeyri-dəqiqdir. | Səhvlər var. | Kiçik yanlışlıqlar var. | Yanlışlıqlar yoxdur. |
| Problemə aid göstəricilərin toplanması | Mühüm göstəriciləri tapa bilmir. | Problem üzrə az göstərici tapır. | Məntiqlə seçir və bir hissəsini təşkil edir. | Məntiqlə seçir və hər şeyi təşkil edir. |

| | | | | |
|---|---|---|---|---|
| Nəticə çıxarmaq bacarığı | Nəticələr yoxdur və ya dəqiq deyil. | Yarımçıq nəti-cələrdir. | Göstəricilərə əsaslanır. | Göstəricilərə əsaslanan mə-lumatlı nəticələr vardır. |
| Təqdimat zamanı ideyaların irəli sürülməsi: fənn haqqında bilgilər və məntiqlə düşünmək bacarığı | Biliklər qeyri-dəqiqdir. | Müəyyən bilik və məntiq var. | Müvafiq bilik və məntiq var. | Əla bilik və məntiq var. |

# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

Müharibə borcları və təzminatlar problemi, Daues planı, "Reyn" paktı, yumşalma dövrü, "Brian-Kelloq" paktı, "Antikomintern" paktı


DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

84-85

**Alt standartlar:**

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim məqsədləri:**

1. XX yüzilliyin 20–30-cu illərində beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.
2. XX yüzilliyin 20–30-cu illərində qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim forması:** böyük və kiçik qruplarla is

**Təlim üsulları:** söz assosiasiyası, karusel

**Dərsin mərhələləri**

**Motivasiya.** Şagirdləri motivə etmək üçün söz assosiasiyası üsulundan istifadə etməklə müharibə, sülh, iqtisadi əməkdaşlıq, qlobal problemlərin həlli, dövlətlərarası borc və s. sözləri lövhədə yazandan sonra şagirdlərə aşağıdakı suallar ünvanlana bilər:

– *Bu sözlər sizə nə deyir?*

– *Bu sözləri birləşdirən ümumi cəhət nədir?*

Verilən suallara alınan cavablar ümumiləşdirildikdən sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı:** Birinci dünya müharibəsi başa çatdıqdan sonra dövlətlərarası münasibətlər hansı formada inkişaf etdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasından karusel iş üsulundan istifadə etməklə dərsi qurmaq tövsiyə edilir. Lazım gələrsə, üsu-

lun tətbiqi ilə bağlı şagirdlərə bu üsul haqqında məlumat verə bilərsiniz. Qruplara tədqiqat üçün aşağıdakı yığcam tapşırıqları və ya özünüzün məsləhət bildiyiniz tapşırıqları verə bilərsiniz.

**I qrup**

Qlobal problemlərin həllində Fransa və İngiltərənin rolunu şərh edin.

**II qrup**

Qlobal problemlərin həllində Yaponiya və İtaliyanın təcavüzkarlıq siyasətini qiymətləndirin.

**III qrup**

Qlobal problemlərin həllində Almaniyanın rolunu şərh edin.

**IV qrup**

Münhen konfransı və Molotov-Ribbentrop paktını qiymətləndirin.

Karusel üsulunun birinci mərhələsində qrup işinə ayrılmış vaxt bitdikdən sonra, əslində, siz dərsin yeni mərhələsinə – məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid almış olursunuz. Çünki bu mərhələdə müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların yazdıqları ilə tanış olmaq və "rəqiblərinin" yazdıqlarına münasibət bildirmək imkanına malik olur. Dərsin bu mərhələsi bitəndən sonra mövbəti mərhələyə keçid ala bilərsiniz.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Vaxta qənaət etmək üçün qrup təqdimatlarını dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində edə bilərsiniz. Ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar vermək olar. Verəcəyiniz sualları əvvəlcədən hazırlamağınız məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

- *Daues planının məqsədi nə idi?*
- *1924–1929-cu illər dövlətlərarası münasibətlərdə səciyyəvi cəhət nə idi?*
- *Dünya iqtisadiyyatında baş verən proseslər dövlətlərarası münasibətlərə necə təsir göstərə bilər?*
- *1930-cu illərdə Millətlər Cəmiyyətinin nüfuzunun azalmasına hansı amillər təsir göstərdi?*
- *1920-ci illərin sonu – 1930-cu illərin əvvəllərində dövlətlərarası münasibətlərdə gərginliyin yaranmasının səbəbini necə şərh edərdiniz?*
- *Sizcə, nə üçün Avstriyanın ərazi bütövlüyü təminat altına alındı? Bunun digər dövlətlər üçün hansı geostrateji əhəmiyyəti var idi?*

– *Almanların güc nümayişi qarşısında böyük dövlətlərin narazılığının zəifliyinin səbəbləri nə idi?*

**Yaradıcı tətbiqetmə.** Dərsliyin 88-ci səhifəsindəki mənbələr əsasında təhlillər aparıb tezislər hazırlayın.

**Ev tapşırığı.** Yaponiyanın Mancuriyada oyuncaq dövlət qurması siyasətinin müasir dövrdə Ermənistanın işğalçı siyasəti ilə oxşar cəhətini təhlil edin.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, şərhetmə
Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələdə müxtəlif suallar verməklə də təlim prosesində fəaliyyəti izlənilən şagirdin tədris meyarlarına necə cavab verdiyini dəqiqləşdirmək mümkündür. Yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə şagirdləri qiymətləndirmək mümkündür.
Təqdimat prosesini şagirdlərin özləri də qiymətləndirə bilərlər. Şagirdlərə qiymətləndirmə vərəqi təqdim edilir. Əgər bunu təqdimatı keçirən qrupun üzvləri edirlərsə, o zaman bu, özünüqiymətləndirmə sayılır. Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə şagirdlər həm də qrupun işini bütövlükdə, yəni qrupun onların qarşısında qoyulmuş vəzifənin öhdəsindən necə gəldiyini qiymətləndirə bilərlər.

## Qiymətləndirmə vərəqi

Ad, soyad, ata adı ______________________________
Tarix ____________________

| MEYARLAR | XEYR | QİSMƏN | TAM |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi (fikirlərimi) izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ
## (birinci saat)

"Qəribə müharibə", "İldırımsürətli müharibə", "Barbarossa" əməliyyatı, Lend-Liz qanunu, Birləşmiş Millətlər bəyannaməsi, anti-Hitler koalisiyası, Stalinqrad döyüşü, müharibə iqtisadiyyatı, Tehran konfransı, Potsdam konfransı, Holokost


ABŞ, BÖYÜK BRİTANİYA VƏ FRANSA

60-61

**Qeyd:** Mövcud paraqrafın tədrisi 2 saat üçün nəzərdə tutulmuşdur. Bu paraqraf dərsliyin 90-99-cu səhifələrini əhatə edir. Dərslik müəllifi olaraq biz bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük. Bu bölgü mütləq deyil, sadəcə, məsləhətdir. Müəllim bölgünü təlim strategiyasına, sinfinin və şagirdlərinin səviyyəsinə uyğun olaraq istədiyi formada dəyişə bilər.

– 90-cı səhifədən 94-cü səhifədəki "*Müharibədə dönüş*" yarımbaşlığınadək bütün (*şəkil, sxem, sual, tapşırıq, xəritə, mənbə və s.*) məlumatlar I tədris saatı üçün nəzərdə tutulmuşdur.
– İkinci tədris saatı 94-cü səhifədəki "*Müharibədə dönüş*" yarımbaşlığından başlayıb paraqrafın sonunadək, 100-cü səhifəyədək məlumatları özündə əks etdirir.

**Alt standartlar:**
1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.
3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim məqsədləri:**
1. İkinci dünya müharibəsi dövründə dünyada baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.
2. Beynəlxalq münasibətlərdəki ziddiyyətləri aradan qaldırmaq məsələsində dövlətlərin rolunu şərh edir.

**Təlim forması:** kollektiv, fərdi
**Təlim üsulları:** beyin həmləsi, "karvan üsulu"

**Dərsin mərhələləri**
**Motivasiya.** Əgər texniki imkanlar varsa şagirdlərə "Uzaq sahillərdə" və ya "Əsgər atası" kinofilmindən bir kadr şagirdlərə izlədib onlara aşağıdakı suallarla müraciət edə bilərsiniz:

– *Gördüyünüz kadrlar sizə nə deyir?*
– *Sizcə, burada cərayan edən hadisələr hansı dövrə aiddir?*
– *Texniki imkanlar yoxdursa, "beyin həmləsi" üsulundan istifadə etməklə şagirdləri yeni dərsə motivə edə bilərsiniz. Sualları təklif edirik:*
– *Bir dövlətin ərazisinə müdaxilə edib onu zor gücü ilə işğal etmək istəyi nəyə gətirib çıxarar?*
– *Əgər bu işğalçılıq müharibəsindən ruhlanan "təcavüzkar" dünya ağalığına düşsə və buna digər dünya dövlətləri qarşı dursa, bunun sonu nə ilə bitər?*

Aldığınız cavabları ümumiləşdirib tədqiqat sualınızı elan edin və yeni dərsə keçid edin.

**Tədqiqat sualı:** İkinci dünya müharibəsi necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "Karvan üsulu" ndan istifadə etmək tövsiyə edilir. Bunun üçün şagirdləri 4 qrupa ayırmaq və 4 flipçartda hərəsində mövzu ilə bağlı bir sual (*və ya tapşırıq)* qoymaq lazımdır. Qruplar növbə ilə saat əqrəbi istiqamətində suallara, ən azı, 3 cavab yazmalıdır, bunun ardınca növbə ilə digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazmalıdır. Hər cavabın qarşısında üç işarədən biri qoyulur: *razıyam (✓), razı deyiləm (X), başa düşmədim (?)* işarəsi qoyulur. Qruplara fərqli rəngli qələmlər (*qırmızı, qara, göy, yaşıl və s.*) verilməsi məqsədəmüvafiqdir. Qrup üzvləri arasında vəzifə bölgüsü aparılmasl məqsədəmüvafiqdir.

## I qrup

1. Tapşırığa, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: *razıyam (✓), razı deyiləm (X), başa düşmədim (?)*

**Tapşırıq:** Müharibənin başlanmasını şərh edin.

______________________________
______________________________
______________________________

## II qrup

1. Tapşırığa, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (✓*), razı deyiləm (X), başa düşmədim (?)*

**Tapşırıq:** "Qəribə müharibə"ni şərh edin.

______________________________
______________________________
______________________________

## III qrup

1. Tapşırığa, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: *razıyam (✓), razı deyiləm (X), başa düşmədim (?)*

**Tapşırıq:** ABŞ və Yaponiyanın müharibəyə daxil olmasını qiymətləndirin.

______________________________________________

______________________________________________

______________________________________________

## IV qrup

1. Tapşırığa, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: *razıyam (✓), razı deyiləm (X), başa düşmədim (?)*

**Tapşırıq:** Almaniyanın Böyük Britaniya və SSRİ-yə hücumunu şərh edin.

______________________________________________

______________________________________________

______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Müəyyən edilmiş vaxt ərzində tapşırıqların icrası şagirdlərdə vaxta qənaətetmə bacarığı formalaşdıracaqdır. Qrupların işlərinin cavablarını hazırlamaq üçün şagirdlərə vaxt verilir. Müzakirələr zamanı şagirdlərin cavab vərəqlərindəki qeydləri onların özləri tərəfindən izah edilir. Hər qrup işini müdafiə edir. Tədqiqatın gedişində şagirdlər əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Taqdimat bir növ yeni biliklərin dairəsini cızır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlər əldə etdikləri bilikləri ümumiləşdirməli, gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Bu mərhələdə müəllim şagirdləri son nəticələrə yönəldir, tədqiqat sualına cavab tapılır. Şagirdlərə aşağıdakı suallar verilə bilər:

– *Almaniyanın Polşaya hücumu dünya hərb tarixinə nə üçün "İldırımsürətli müharibə" kimi daxil olmuşdur?*
– *SSRİ-nin Millətlər Cəmiyyətindən çıxarılmasına səbəb nə idi?*
– *Müharibənin ilk dövrünü nə üçün "Qəribə müharibə" adlandırırlar?*
– *Hitler Dünkerkdə mühasirədə olan ingilis-fransız qoşununun Böyük Britaniyaya keçməsinə nə üçün imkan verdi?*
– *Almaniyanın Böyük Britaniyanı məğlub edə bilməməsi hansı amillərlə bağlı idi? Sizcə, bu, müharibənin gedişinə təsir göstərdimi?*
– *ABŞ-nin müharibəyə daxil olması müharibənin gedişinə necə təsir göstərdi?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "müharibəyə yox" afişasının yaradılması tapşırıq kimi verilə bilər.

**Ev tapşırığı.** Dərsliyin 90 və 92-ci səhifələrində verilmiş mənbələrə əsaslanaraq Almaniya – Böyük Britaniya arasındakı müharibədə uduzacaq və ya qalib gələcək tərəflərin hansı dövlət olduğunu əsaslandırın.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, şərhetmə
Şagirdlərin formativ qiymətləndirilməsi zamanı siz daha çox onların informasiyanı anlamaq səviyyəsini, mühakimə yürütmə, təqdimetmə, şərhetmə, təhliletmə, qiymətləndirmə, dəyərləndirmə və s. bu kimi idraki bacarıqlarını, eləcə də hansı problemin həll edilməsi zamanı həmin bilgilərdən istifadə etmək bacarığını nəzərə almalısınız. Formativ qiymətləndirmə meyarları məzmun standartı əsasında müəyyənləşdirilməli və təlim məqsədləri üzrə hazırlanmış meyarlarla aparılmalıdır.
Dərsin sonunda şagirdlərə qrupdakı hər bir şagirdin qiymətləndirilməsi üçün aşağıdakı özünüqiymətləndirmə vərəqini təklif etmək olar.

Qrupun adı ________________________
**Qeyd.** Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə edə bilərsiniz.

| Şagirdin adı, soyadı | Tapşırığa hazırolma | Başqalarını dinləmə | Məsuliyyəti bölüşmə | Qrup yoldaşlarına kömək | Müzakirələrə qoşulma | Fikirlərini reallaşdırma | Fərqli fikirlərə hörmət etmə | Vəzifə almağa həvəsli olma | Zamandan məhsuldar istifadə etmə | Tapşırıqları yerinə yetirmə | Tapşırıqları təxirə salma | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ
## (ikinci saat)

"Qəribə müharibə", "İldırımsürətli müharibə", "Barbarossa" əməliyyatı, Lend-Liz qanunu, Birləşmiş Millətlər bəyannaməsi, anti-Hitler koalisiyası, Stalinqrad döyüşü, müharibə iqtisadiyyatı, Tehran konfransı, Potsdam konfransı, Holokost

94-95



**Alt standartlar:**

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim məqsədləri:**

1. İkinci dünya müharibəsində iştirak edən ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir.
2. Beynəlxalq münasibətlərdəki ziddiyyətləri aradan qaldırmaq məsələsində dövlətlərin rolunu şərh edir.

**Təlim forması:** böyük qruplarla iş, fərdi iş
**Təlim üsulları:** "Bir dəqiqə", diskussiya

**Dərsin mərhələləri**

**Tədqiqat sualı:** İkinci dünya müharibəsinin nəticələri nələr oldu?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunduqdan sonra dərsin tədqiqatın aparılması mərhələsini əvvəlki dərslərdə istifadə etdiyiniz "bir dəqiqə" üsulu ilə keçməyiniz məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilir. Verilən vaxt bitdikdən sonra aşağıdakı tapşırıqlardan istifadə etməklə dərsi davam etdirmək tövsiyə edilir.

– *Müharibədə dönüş yaradan döyüşləri qiymətləndirin.*
– *Anti-hitler koalisiyasının yaradılmasını şərh edin.*
– *Stalinqrad döyüşü haqqında alman döyüşçüsünün qeydlərini qiymətləndirin.*

– *İqtisadi səfərbərlik məsələsini şərh edin.*
– *"Beyin müharibəsi" nin nə olduğunu şərh edin.*
– *İkinci cəbhənin açılmasının əhəmiyyətini qiymətləndirin.*
– *Şarl de Qollun şəxsiyyətini qiymətləndirin.*
– *Avropada müharibənin başa çatmasını şərh edin.*
– *Yaponiyanın təslim olmasını qiymətləndirin.*

Şagirdlərin cavablarını dinlədikdən sonra diskussiya üsulunun köməyilə dərsinizi davam etdirin. Diskussiya şagirdlərə müzakirə olunan bu və ya digər məsələ barədə öz fikirlərini söyləməklə, öz baxışlarını əsaslandırmağı, faktları təhlil etməyi öyrədir. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, başqa baxışlara dözümlülük, diskussiya mədəniyyəti kimi bacarıqlar formalaşır və vərdişə çevrilir. Diskussiya mədəniyyəti olduqca vacibdir. Diskussiya mədəniyyətinin mühüm cəhətlərindən biri başqalarının fikir və əqidəsinə dözümlü münasibətdir. Bu çoxcəhətli anlayış yalnız əxlaqi-normativ məzmuna deyil, həm də dərin sosial-pozitiv məzmuna malikdir. Belə ki o, ilk növbədə, ünsiyyət prosesini pozan mütləq dözümsüzlük amilinin antitezisi kimi çıxış edir.

Diskussiya zamanı şagirdlərin qiymətləndirilməsində aşağıdakı meyarlardan istifadə edə bilərsiniz:

✓ aydın mülahizələr;
✓ yadda qalan və aktual misallar;
✓ sanballı dəlillər;
✓ ümumiləşdirmə aparma və yekun vurma bacarığı;
✓ başqalarını dinləmək bacarığı.

Diskussiyanı dərsliyin 96 və 99-cu səhifələrindəki cədvəl və diaqram əsasında qurmaq məqsədəmüvafiq olardı.

Diskussiyanın aparılması üçün tapşırıqlar:

– *Səhifə 96-dakı cədvəl əsasında dövlətlərin 1941 və 1942-ci illərdəki istehsalını nəzərə alaraq döyüşən tərəflərin müharibədə üstünlük qazanma ehtimalını əsaslandırın.*
– *Səhifə 96-dakı diaqram əsasında təhlillər aparın. Təhlillər zamanı fikir verin (hərbi bloklar üzrə):*

1. itkilərin miqdarı
2. itkilərin növləri
3. itkilərin səbəbləri

Dərsin bu formada qurulması müəllimə məlumatın **mübadiləsi və müzakirəsi** mərhələsini həyata keçirməyə imkan verir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı suallarla müraciət edə bilərsiniz:

– *SSRİ hərbi sənayesinin Urala və Sibirə köçürülməsinin səbəbi nə ola bilərdi?*
– *"Qələbə proqramı"nın məqsədi nə idi?*
– *Müharibə iqtisadiyyatı nədir və elmə necə təsir göstərmişdir?*
– *Holokost nədir? Holokostu Xocalı soyqırımı ilə müqayisə etmək olarmı?*
– *Kursk döyüşünün hansı nəticələri oldu?*

- *Anti-Hitler koalisiyasının yaranması və möhkəmlənməsi müharibənin gedişinə necə təsir göstərdi?*
- *Tehran və Krım konfransının oxşar cəhətləri hansılardır?*

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər İkinci dünya müharibəsində iştirak edən ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirməyi, beynəlxalq münasibətlərdəki ziddiyyətləri aradan qaldırmaq məsələsində dövlətlərin rolunu şərh etməyi bacaracaqlar.

**Ev tapşırığı.** "Hirosimo və Naqasakiyə atom zərbələri" adlı referat hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, şərhetmə
Göstərilən meyarlar əsasında müxtəlif vasitələrdən istifadə etməklə şagirdlərin formativ qiymətləndirməsi həyata keçirilir. Belə vasitələrdən biri şagirdin özünüqiymətləndirmə vərəqi ola bilər.

**Adı və soyadı** ____________________________________
**Sinif** _______________
Gördüyünüz işləri obyektiv şəkildə qiymətləndirin.

## Qiymətləndirmə vərəqi

| MEYARLAR | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| **1.** Başqalarının izahlarını və məsləhətlərini dinlədim. | | | |
| **2.** Təlimata əməl etdim. | | | |
| **3.** Yoldaşlarımla əməkdaşlıq etdim. | | | |
| **4.** Tapşırıqlarımı yerinə yetirdim. | | | |
| **5.** Anlamadığım məsələlərə aid suallar verdim. | | | |
| **6.** Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |
| **7.** Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | | | |

**ŞƏRHLƏR:**

______________________________________________

______________________________________________

# MƏDƏNİYYƏT 1920–1945-ci İLLƏRDƏ

avanqard üslub, sürrealizm, kütləvi mədəniyyət, "danışan mətbuat"




100-101

**Alt standartlar:**

5.1.2. Aqrar *(ənənəvi)*, sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.

5.1.3. Mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair referat və tezislər hazırlayır.

**Təlim məqsədləri:**

1. Aqrar, sənaye və informasiya cəmiyyətlərinin 1920–1945-ci illərdəki mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.
2. 1920–1945-ci illərdəki mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə dair referat hazırlayır.

**Təlim forması:** böyük qruplarla iş, fərdi iş

**Təlim üsulları:** beyin həmləsi, fasiləli oxu

**Dərsin mərhələləri**

**Motivasiya.** Tədris etdiyiniz dərsə motivasiya qurmaq üçün sinfə qəzet, jurnal, kitab, əgər varınızdırsa radio, musiqi aləti və s. gətirib şagirdlərə aşağıdakı sualları ünvanlaya bilərsiniz:

– *Gördüyünüz əşyalar sizə nə deyir?*
– *Bu əşyalardan nə kimi istifadə olunur?*
– *Bu əşyaları birləşdirən ümumi cəhət nə ola bilər?*

Alınan cavabları ümümiləşdirib şagirdlərin diqqətini mədəniyyət mövzusuna yönəldib tədqiqat sualı elan edilir, yeni dərsə keçid olunur.

**Tədqiqat sualı:** Birinci dünya müharibəsindən sonrakı inkişaf mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə necə təsir göstərdi?

**Tədqiqatın aparılması.** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Məlum olduğu kimi, bu usulun tətbiqi zamanı növbə ilə şagirdlərə oxudulur, müəyyən yerlərdə fasilələrə yol verilir. Mövzulararası verilmiş sual və tapşırıqlardan fasilə edilən zaman istifadə etmək olar. Şagirdlərin səviyyəsindən asılı olaraq fasilələrdən mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də

edə bilərsiniz. Bu zaman şagirdlərə dərslikdə verilmiş suallarla müraciət edə bilərsiniz:

– *Birinci dünya müharibəsi mədəniyyətə necə təsir göstərdi?*
– *Sürrealizm üslubu nədir və hansı sahədə yaranmışdır?*
– *Respublika dövründə türk memarlığında hansı xüsusiyyət səciyyəvi idi?*
– *Kütləvi mədəniyyət nədir?*
– *Albert Eynşteyn elmə hansı töhfəni vermişdir?*
– *Birinci dünya müharibəsindən sonra ədəbiyyatda hansı yeniliklər baş verdi?*
– *"Danışan mətbuat" ifadəsini necə başa düşürsünüz?*
– *Mədəniyyətin inkişafında dövlətlər hansı rolu oynaya bilər?*

Sualların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşmaq lazımdır. Şagirdlərə verilən suallar onların əvvəllər əldə etdikləri biliklərinin səviyyəsini yoxlamağa şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onlarda münasibət bildirmə, şərhetmə, əsaslandırma bacarıqlarının da formalaşmasına yardım edəcəkdir.
Tövsiyə edirik ki, şagirdlər öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamları lövhədə və ya flipçartda (*bunu vatman kağızı da əvəz edə bilər*) qeyd etsin. Çünki bu fikirlər sonda, ümumiləşdirmə və nəticələrin əldə olunması lazım olar. Fasiləli oxu zamanı təkcə mövzu ilə bağlı sual və tapşırıqlar deyil, şəkillər, illüstrasiyalar da diqqət mərkəzində saxlanılmalıdır. Fasilə verməklə aparılan müzakirələrdə şagirdlərin qiymətləndirməsini həyata keçirmək tövsiyə edilir. Fasiləli oxu bitdikdən sonra mövzu ilə bağlı yekun müzakirə aparıb məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid əldə edə bilərsiniz. Burada şagirdlərə əlavə olaraq 1920–1945-ci illərdəki mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə, bu əlaqələrin mədəniyyətə təsiri ilə bağlı əlavə sual və tapşırıqlar verə bilərsiniz. Şagirdlərin verdikləri cavablar dinlənilir, deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici sual və tapşırıqlarla müraciət etmək olar:

– *Şəkillər əsasında 1920–1930-cu illər mədəniyyətində hansı yeniliklərin baş verdiyini əsaslandırın.*
– *Ziyalıların öz xalqlarının tarixi inkişafında rollarını və mövqelərini dəyərləndirin.*
– *Mədəniyyət və siyasətin qarşılıqlı əlaqələrini əsaslandırın.*
– *A.Eynşteynin atomu kəşf etməsi nailiyyət, yoxsa fəlakətdir? Fikrinizi əsaslandırın.*
– *Birinci dünya müharibəsindən sonra sizcə, mədəniyyətin hansı sahəsi daha çox inkişaf etdi? Fikrinizi əsaslandırın.*
– *İqtisadi cəhətdən dövlətlərin inkişafının mədəniyyətin inkişafına təsiri varmı? Fikrinizi əsaslandırın.*

Ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər aqrar, sənaye və informasiya cəmiyyətlərinin 1920–1945-ci illərdəki mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandıra biləcəklər.
**Yaradıcı tətbiqetmə.** 1920–1930-cu illərdə elm sahəsində baş vermiş yeniliklərə aid cədvəl tərtib edin.

**Ev tapşırığı.** "1920–1945-ci illərdəki mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələr" adlı referat hazırlayın.

**Qiymətləndirmə meyarları:** əsaslandırma, referat hazırlama
Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Şagirdlərin bilik və bacarıqlarını, əsasən, 4 səviyyə üzrə qiymətləndirmək məqsədəmüvafiqdir. Bu səviyyələrin meyarları təlim nəticələrinə uyğun həyata keçirilməlidir. Bu səviyyələr ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişə bilər.
*Referat hazırlama* meyarı üzrə şagirdlərin qiymətləndirilməsi onlara verilən ev tapşırığının təhvil verilməsi və yoxlanılmasından sonra mümkün olacaqdır.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI

Harri Trumen, "ədalətli xətt", Martin Lüter Kinq, "Uoterqeyt", "Reyqanomika", respublikaçılar, Donald Tramp



104-105

**Alt standartlar:**

1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

4.1.1. Tarixi şəxsiyyətləri *(I Pyotr, Corc Vaşinqton, III Səlim, Nadir şah, Ağa Məhəmməd şah Qacar, I Napoleon, I Aleksandr, Avraam Linkoln, Franklin Ruzvelt, Vladimir Lenin, İosif Stalin, Mustafa Kamal Atatürk, Sun Yatsen, Şarl de Qoll, Konrad Adenauer, Turqut Özal, Mao Tszedun, Cəvahirləl Nehru, Heydər Əliyev)* mənsub olduqları ölkələrin daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim məqsədləri:**

1. Amerika Birləşmiş Ştatlarının mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.
2. Con Kennedi, Ronald Reyqanı Amerika Birləşmiş Ştatlarının daxili və beynəlxalq həyatına təsiri baxımından qiymətləndirir.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, İNSERT

**Dərsin mərhələləri**

**Motivasiya.**

– *Gördüyünüz əsginasın üzərində hansı təsvirlər var?*

ABŞ prezidentinin şəkli cavabı alındıqdan sonra şagirdlərə növbəti sualı (*ABŞ-nin daha hansı prezidentlərini tanıyırsınız?*) verə bilərsiniz. Alınan cavabları ümumiləşdirib şagirdlərin diqqətini keçəcəyiniz dərsə yönəldə və tədqiqat sualını elan edə bilərsiniz. Motivasiyanı hansı yolla quracağınızdan asılı olmayaraq motivasiya düşündürücü və dərsə maraq oyadan olsun.

**Tədqiqat sualı:** Amerika Birləşmiş Ştatları dünyanın super güc dövlətinə çevrilməsinə hansı amillər səbəb oldu?

**Tədqiqatın aparılması.** Dərsin kiçik qruplarla, əvvəlki dərslərdən sizə tanış olan İNSERT iş üsulu ilə keçilməsi məqsədəmüvafiqdir. Kiçik qruplara müxtəlif tapşırıqlar vermək olar:

### I qrup

**Tapşırıq:** Dünya müharibəsinin ABŞ üçün nəticələri

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– *Tanış olduğunuz informasiya sizə yeni deyilsə, – (!)*
– *Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)*
– *Tanış olduğunuz məlumat yenidirsə, – (+)*
– *Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)*

______________________________________________

______________________________________________

### II qrup

**Tapşırıq:** ABŞ Con Kennedi və Lindon Consun prezidentliyi dövründə

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– *Tanış olduğunuz informasiya sizə yeni deyilsə, – (!)*
– *Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)*
– *Tanış olduğunuz məlumat yenidirsə, – (+)*
– *Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)*

______________________________________________

______________________________________________

### III qrup

**Tapşırıq:** ABŞ Riçard Nikson, Ronald Reyqan və Corc Buşun prezidentliyi dövründə

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– *Tanış olduğunuz informasiya sizə yeni deyilsə, – (!)*
– *Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)*
– *Tanış olduğunuz məlumat yenidirsə, – (+)*
– *Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)*

______________________________________________

______________________________________________

### IV qrup

**Tapşırıq:** ABŞ XXI yüzilliyin əvvəllərində

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– *Tanış olduğunuz informasiya sizə yeni deyilsə, – (!)*
– *Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə, – (-)*
– *Tanış olduğunuz məlumat yenidirsə, – (+)*
– *Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə, – (?)*

______________________________________________

______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işi bitdikdən sonra hər qrup işlərini təqdim edir. Oxuduqları məlumatın kənarındakı qeydlərə əsasən fikirlərini əsaslandırırlar. Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və lazım gələrsə, əlavələr edilir, bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (*məntiqi, tənqidi, yaradıcı*) səfərbərliyini tələb edir. Müəllim (*yönəldici və köməkçi suallardan istifadə etməklə*) əldə edilmiş faktların məqsədyönlü müzakirəsini təşkil edə bilər. İnformasiya mübadiləsinin təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilməlidir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin kulminasiyasını isə bilgiləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə siz şagirdlərə yönləndirici suallar verə bilərsiniz. Aparılan müzakirə tədqiqat sualına cavab tapmağa kömək etmiş olar. Aşağıdakı suallar yardımçı ola bilər:
- *H.Trumenin prezident seçkilərində qələbə çalmasına hansı amillər səbəb oldu?*
- *Taft Xartli qanununu necə dəyərləndirərdiniz?*
- *ABŞ-nin SSRİ ilə münasibətlərini necə dəyərləndirirsiniz?*
- *XX əsrin 60-cı illərində irqi ayrı-seçkilik meyillərinin güclənməsinin səbəbləri nələrdir?*
- *C.Kennedinin prezidentliyini necə qiymətləndirirsiniz?*
- *R.Reyqanın iqtisadi siyasətində xüsusi sahibkarlığın inkişafına hansı güzəştlər edildi?*
- *2001-ci il 11 sentyabrda baş verən terror hadisələrinin dünya siyasətinə hansı təsirləri oldu?*

**Yaradıcı tətbiqetmə.** Corc Buş və Donald Trampın xarici siyasətlərini müqayisəli təhlil edin.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, qiymətləndirmə
Formativ qiymətləndirmənin şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün böyük əhəmiyyəti vardır. Belə ki müəllim olaraq dərs prosesində şagirdlərin şifahi cavablarını dinləməli, onun təqdimatını müşahidə etməli, nəinki onun bu və ya digər bilik və bacarıqlara yiyələndiyini, həmçinin düşüncə tərzinin inkişafını, təqdimetmə, fikrini dəqiq ifadə etmə və s. bacarıqlarını müəyyənləşdirməli qiymətləndirməni aparmalıdır.
Bu mərhələdə şagirdləri qrup üzrə də qiymətləndirmək olar. Aşağıdakı qrup qiymətləndirmə vərəqindən istifadə etmək olar.

**Qrupun adı** ___________________
**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hamısı prosesdə fəal iştirak edir. | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqlar icra edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparılır. | | | | | |
| Qrup üzvləri qərarlarını bir-birlərinə bildirir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edir. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinə ehtimad göstərir. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Qrup üzvləri tərəfindən nəticələrin növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edilir. | | | | | |
| Qrupda ziddiyətli fikirləri müzakirə edirlər. | | | | | |
| Qrup üzvləri üzərində işlədikləri mövzuda ortaq bir fikrə gəlir. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyir. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alır. | | | | | |

**ŞƏRHLƏR:**

______________________________

______________________________

# BÖYÜK BRİTANİYA, FRANSA VƏ ALMANİYA

Uinston Çörçill, "Leyboristlər, "Folklend böhranı", Şarl de Qoll, Evian sazişi, Konrad Adenauer, "İqtisadi möcüzə", Helmut Koll


BÖYÜK BRİTANİYA, FRANSA VƏ ALMANİYA

110-111

**Alt standartlar:**

1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri *(Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, ərəb ölkələri)* siyasi quruluşuna, aqrar (*ənənəvi*), sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Böyük Britaniya, Fransa və Almaniyadakı mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.
2. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində Böyük Britaniya, Fransa və Almaniyanın siyasi quruluşuna, aqrar, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim forması:** böyük qruplarla iş, fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, iki hissəli gündəlik

**Dərsin mərhələləri**

**Motivasiya.** Motivasiyanı Avropanın müasir siyasi xəritəsindən istifadə etməklə və müvafiq suallar verməklə qura bilərsiniz. Suallar aşağıdakı formada ola bilər:

– *Gördüyünüz xəritədə ərazisi böyük olan hansı dövlətləri sadalaya bilərsiniz?*
– *Saydığınız bu dövlətlərdən hansıları dünyanın aparıcı dövlətləri sırasına daxil etmək olar?*

Şagirdlərə verilən suallara alınan cavabları ümumiləşdirib lazımi məcraya yönəldərək tədqiqat sualını elan edirsiniz.

**Tədqiqat sualı:** İkinci dünya müharibəsindən sonra Böyük Britaniya, Fransa və Almaniyada inkişaf necə getdi?

| Mövzuda diqqətimi daha çox cəlb edənlər | Səbəblər |
|---|---|
| | |

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "İki hissəli gündəlik texnikası" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə aşağıdakı cədvəl təqdim oluna bilər. Bu gündəlik sizin seçiminizdən və yanaşmanızdan asılı olaraq, müxtəlif formalarda tətbiq oluna bilər. Şagirdlər oxuduqları mətnə əsasən gündəlikdə müvafiq qeydlər aparırlar. Mövzunun oxunması, qeydlərin aparılması başa çatdıqdan sonra şagirdlər yenidən mətnə müraciət edir, qeydlərini zənginləşdirirlər. Bu mərhələdə müəllim şagirdlərin qeydlərini dinləməli, bütün sinfi müzakirəyə cəlb etməlidir. Dərsin daha maraqlı, canlı, nəticə yönümlü olması üçün mətni hissələrə bölüb, hər hissənin oxunması üçün şagirdlərə vaxt verilir. Verilən vaxt bitəndən sonra şagirdlərlə birlikdə müzakirə təşkil edilir. Mətnin Böyük Britaniya, Fransa və Almaniya kimi ayrı ayrı hissələrə bölüb tədris etmək daha məqsədəmüvafiqdir.
Beləliklə, müəllim dərsin tədqiqatın aparılması mərhələsi ilə yanaşı, məlumatın mübadiləsi və müzakirəsi mərhələsini də tamamlamış olur. Şagirdlər çıxışlarını yekunlaşdırdıqdan sonra müəllim lazım gələrsə əlavələrini edir, dərsin növbəti mərhələsinə keçid edir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlər nəinki əldə olunan bilikləri ümumiləşdirməli, həm də gəldikləri nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək.
Bunun üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək məqsədəmüvafiqdir.
– *İkinci dünya müharibəsindən sonra Böyük Britaniyanın iqtisadi geriliyinə səbəb olan amillər hansılardır?*
– *Dünya müstəmləkə sisteminin dağılmasının Böyük Britaniya iqtisadiyyatına təsirlərini necə dəyərləndirirsiniz?*
– *M. Tetçerin iqtisadi siyasətini dəyərləndirin.*
– *Fransada IV Respublikanın süqutunun səbəbləri nələrdir?*
– *Sizcə, Böyük Britaniyanın Avropa Birliyindən çıxmasının səbəbləri nə ola bilərdi?*
– *Şarl de Qollun iqtisadi siyasətini necə dəyərləndirirsiniz?*
– *Müharibədən sonra Almaniyanın parçalanmasının səbəblərini müəyyən edin.*
– *İqtisadiyyatı məhv olmuş Almaniyanın sürətli inkişafını necə dəyərləndirirsiniz?*
– *Almaniyanın birləşdirilməsinə şərait yaradan beynəlxalq vəziyyəti dəyərləndirin.*

**Yaradıcı tətbiqetmə.** T üsulunun köməyilə şagirdlərin hadisələrə yaradıcı yanaşmalarına şərait yaradılır. Bunun üçün lövhədə böyük bir "T" hərfi çəkilir və bu hərfin sağ tərəfinə "+", sol tərəfinə isə "-" işarəsini çəkin. Şagirdlər Fransanın xarici siyasətinin mənfi və müsbət cəhətlərini "T" hərfinin müvafiq tərəflərinə yazır.

**Qiymətləndirmə meyarları:** əlaqədə dəyərləndirmə, dövlətləri vəzifələrinə görə dəyərləndirmə

Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxlaması deyil, bu informasiyanı anlama səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmə bacarığını daha çox nəzərə almalısınız. Tədris prosesində aparılan qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdin əldə etdiyi biliyi tətbiqetmə bacarıqları haqqında obyektiv təsəvvür yaranır. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməli olduğunuzu unutmayın.

Dərsin sonunda vaxt olacağı təqdirdə, refleksiya üçün aşağıdakı suallardan istifadə etmək olar:

– *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*
– *Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz?*
– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*

# SSRİ. RUSİYA FEDERASİYASI

İosif Stalin, "Beşillik plan", kartoçka sistemi, Nikita Xruşşov, "durğunluq", "aşkarlıq", "yenidənqurma", Mixail Qorbaçov, Boris Yeltsin, Vladimir Putin, Krım məsələsi


SSRİ. RUSİYA FEDERASİYASI

116-117

**Alt standartlar:**

1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri (*Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, ərəb ölkələri*) siyasi quruluşuna, aqrar (*ənənəvi*), sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim məqsədləri:**

1. SSRİ və Rusiya Federasiyasındakı sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.
2. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində SSRİ və Rusiya Federasiyasını siyasi quruluşuna, aqrar, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim forması:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** anlayışın çıxarılması, təqdimat

**Dərsin mərhələləri**

**Motivasiya.** Motivasiya qurmaq üçün anlayışın çıxarılması üsulundan istifadə edə bilərsiniz. Verilmiş sxemdən istifadə etmək olar:




Şagirdlərə ünvanlanan suallara alınan cavabları ümumiləşdirib lazımi istiqamətə yönəldilir və tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı:** İkinci dünya müharibəsindən sonra SSRİ-də inkişaf hansı formada getdi?

**Tədqiqatın aparılması.** Dərsin bu mərhələsində təqdimatetmə üsulunun köməyilə mövzu üzərində iş təşkil edilir. Təqdimat etmə fəal təlim üsulları ilə aparılan dərslərin mühüm elementlərindən biridir. Şagirdlər tədqiqat fəaliyyətinin nəticələrini təqdim edirlər. Təqdimat şifahi, yazılı, vizual, rollar üzrə oyun və s. formalarda ola bilər. Şagirdlər təqdimatı fərdi, yaxud qrup şəklində keçirə bilər. Şagirdlərə təqdimatın növü, onun hazırlanması və təqdim edilməsi, qiymətləndirmə meyarlarını əvvəlcədən elan etmək lazımdır. Ünsiyyətin ən vacib ünsürlərindən biri şagirdin öz fikirlərini dəqiq və aydın ifadə edə bilməsidir. Şərhin aydınlığı informasiyanın təşkilindən asılıdır. Yaxşı təşkil edilmiş təqdimatın zəruri şərtləri – problemin mahiyyəti üzərində fikri cəmləyə bilmək bacarığı faktiki informasiyaya əsaslanan başlıca ideya və nəticələrə dəstək verən münasib nümunə və misalların mövcudluğudur. Yaxşı təşkil edilmiş təqdimatın növünə baxmayaraq, şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyəsini göstərir.
Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqları vermək olar:

**I qrup**
SSRİ-nin İ.Stalin və N.Xruşşov dövrlərini sxem formasında təqdim edin.

### II qrup

SSRİ-nin L.Brejnev və ondan sonrakı dövrlərini cədvəl formasında təqdim edin.

### III qrup

Rusiya Federasiyasının daxili və xarici siyasətini tezislər formasında təqdim edin.

### IV qrup

SSRİ və Rusiya Federasiyasının daxili və xarici siyasətlərini müqayisəli cədvəl formasında təqdim edin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir qrupun çıxışı təşkil edilir. Bu zaman digər qruplar öz təqdimatlarını sinfin diqqətinə çatdırırlar. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün müzakirələr zamanı digər qrup üzvlərini suallar verməyə, əlavələr etməyə təşviq edin.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bu mərhələdə şagirdlərin yeni biliklər əldə etməsi üçün konkret nəticəyə gəlinir və ümumiləşdirmələr aparılır. Bu proses zamanı şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılmasına aşağdakı sual və tapşırıqlar yardımçı ola bilər.

– *İkinci dünya müharibəsinin SSRİ-nin iqtisadi vəziyyətinə təsirlərini necə dəyərləndirmək olar?*
– *XX yüzilliyin 40–50-ci illərində tətbiq olunan repressiyaların ölkənin mədəni və iqtisadi inkişafına mənfi təsir göstərməsi müstəvisindən dəyərləndirin.*
– *Nikita Xruşşovun islahatları hansı nəticələrə gətirib çıxardı?*
– *Leonid Brejnevin islahatlar keçirməsinə mane olan səbəblər hansılardır?*
– *Yenidənqurma siyasəti SSRİ-nin süqutunu nə üçün sürətləndirdi?*
– *SSRİ-nin dağılması nə üçün yeni münaqişələrin yaranması ilə müşahidə edilirdi?*
– *Çeçenistan müharibəsi Rusiyanın siyasi həyatına hansı təsirləri göstərdi?*
– *Müasir dövrdə Rusiya Federasiyasının yürütdüyü xarici siyasəti necə dəyərləndirmək olar?*

**Yaradıcı tətbiqetmə:** SSRİ və ABŞ qoşunlarının Əfqanıstana müdaxiləsinin nəticələrini müqayisə edin.

**Ev tapşırığı:** Krımın tarixi haqqında araşdırma aparmaqla problemin yaranma səbəblərini araşdırın.

**Qiymətləndirmə meyarı:** əlaqədə dəyərləndirmə, vəzifələrinə görə dəyərləndirmə
Yuxarıda verilmiş meyarlar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxlaması deyil, bu informasiyanı anlama səviyyəsini və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmə bacarığı daha çox diqqətdə saxlamasıdır.

Qrupları qiymətləndirən zaman aşağıdakı qrup qiymətləndirmə vərəqindən istifadə etmək olar:

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |



# TÜRKİYƏ VƏ İRAN

Trumen doktrinası, Marşall planı, Kıbrıs sülh hərəkatı, "Ağ inqilab", İslam inqilabı, İran–İraq müharibəsi




122-123

**Standartlar:**

1.1.1. Ölkədəki sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

3.1.3. Mənbələr əsasında dövlətlərin tarixinə dair təhlillər aparır, referat və tezislər hazırlayır.

**Təlim məqsədləri:**

1. Türkiyə və İrandakı sosial-iqtisadi həyat faktlarını onun iqtisadi inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.
2. Mənbələr əsasında Türkiyə və İran tarixinə dair təhlillər aparır.

**Təlim forması:** böyük və kiçik qruplarla iş
**Təlim üsulları:** "tərcüməçi" üsulu

**Dərsin mərhələləri**

**Motivasiya.** Açar sözlərdən də istifadə etməklə dərsin motivasiyasını qurmaq mümkündür. Bunun üçün dərsliyin 12-ci mövzusundan çıxış etmək və aşağıdakı açar sözlərdən istifadə etmək olar: Atatürk, Etatizm, Rza xan, Pəhləvilər sülaləsi. Əvvəlki mövzuya müraciət etmək şagirdlərin hafizəsinin yenilənməsinə və yeni mövzunun mənimsənilməsinə kömək etməklə yanaşı, bir yüzillik ərzində bir dövlətin tarixinin onların təfəkküründə inikasına şərait yaradar.

Verəcəyiniz suallar belə ola bilər:

– *Bu sözlərlə harada rastlaşmısınız?*
– *İkinci dünya müharibəsindən sonra Türkiyə və İranda iqtisadi və siyasi proseslərin necə inkişaf etməsi haqqında hansı məlumata maliksiniz?*

Alınan cavablar lazımi məcraya yönəldilir və tədqiqat sualı elan edilir.

**Tədqiqatın aparılması.** "Tərcüməçi" üsulunun köməyilə kiçik qruplarla iş formasından istifadə etməklə dərsi qurmaq tövsiyə edilir. Şagirdlərə mənbələrdən hissələr təqdim

edilir və bu mənbəni öz sözləri ilə izahlı şəkildə nəql etmək tapşırığı verilir. Dərsin keçilməsini tədrisini bütünlüklə mənbələr əsasında təşkilinin mümkün olması nəzərə alınır, hər qrupa bir xırda mənbə ilə işləməklə yanaşı, digər tapşırıqların verilməsi də məqsədəmüvafiqdir.

### I qrup

**Tapşırıq 1.** Dərsliyin 122-ci səhifəsindəki mənbəni təhlil edin.
**Tapşırıq 2.** Türkiyənin 1945–1960-ci illər tarixini dəyərləndirin.

### II qrup

**Tapşırıq 1.** Dərsliyin 124-cü səhifəsindəki mənbəni təhlil edin.
**Tapşırıq 2.** Türkiyənin 1960-cı ildən sonrakı tarixini dəyərləndirin.

### III qrup

**Tapşırıq 1.** Dərsliyin 126-cı səhifəsinin, birinci sütunundakı mənbəni təhlil edin.
**Tapşırıq 2.** İslam inqilabına qədərki İran tarixini dəyərləndirin.

### IV qrup

**Tapşırıq 1.** Dərsliyin 126-cı səhifəsinin ikinci sütunundakı və 127-ci səhifəsindəki mənbələri təhlil edin.
**Tapşırıq 2.** İslam inqilabı və İranın inqilabdan sonrakı tarixini dəyərləndirin.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsin bu mərhələsində qruplara təqdim edilir və müəyyən vaxt verilir. Təqdimat zamanı qrupların əməkdaşlığına və bir-birlərinə sual vermələrinə şərait yaradılır. Beləliklə, təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması vacibdir. Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə ümumiləşdirmə aparılır. Şagirdlərə aşağıdakı sual və tapşırıqlar da vermək olar:

- *Trumen Türkiyənin əhəmiyyətini necə əsaslandırır? Türkiyənin gələcəyi hansı dövlət üçün önəmli hesab edilir?*
- *İsmət İnönü Türkiyədə demokratiyanın genişlənməsinə hansı amilin təsir edəcəyini irəli sürürdü?*
- *İkinci dünya müharibəsindən sonra yaranmış beynəlxalq vəziyyətin Türkiyənin daxili siyasətinə təsirini dəyərləndirin.*
- *1961-ci ildə Türkiyədə qəbul edilən yeni Konstitusiyanın önəmli cəhəti nədən ibarət idi?*
- *"Ağıllı borclanma" anlayışını dəyərləndirin.*
- *1940-cı illərin sonlarında şah hökumətinin həyata keçirdiyi siyasətin mahiyyətini təhlil edin.*
- *1960-cı illərin əvvəllərində şah hökumətinin islahatlar keçirməyə məcbur olmasının səbəbləri nə olmuşdur?*
- *1962-ci ildə keçirilən aqrar islahatın nəticələrini dəyərləndirin.*

**Yaradıcı tətbiqetmə:** Yunan millətçilərinin Kiprin türk əhalisinə və işğalçı Ermənistanın Qarabağda azərbaycanlılara qarşı törətdiyi soyqırımı və terror siyasətlərini müqayisə edin.

**Ev tapşırığı:** Türkiyə və İranda baş verən mühüm hadisələrlə bağlı sinxron cədvəl tərtib edin.

**Qiymətləndirmə meyarları:** dəyərləndirmə, təhliletmə
Tədris prosesindəki qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdin əldə etdiyi biliyi tətbiqetmə bacarığı haqqında obyektiv təsəvvür yaranır.
Yuxarıda verilmiş meyarlar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsini həyata keçirir. Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxlaması deyil, bu informasiyanı anlama səviyyəsini və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmə bacarığı daha çox diqqətdə saxlamasıdır.

**Qrup özünüqiymətləndirmə vərəqi:**

Qrupun iş əhvali-ruhiyyəsi necə idi?

___

Problemin həllində hamı fəallıq göstərə və öz töhfəsini verə bildimi?

___

Kimlər passiv, kimlər fəal oldu?

___

Qrupun işi hamını təmin etdimi?

___

Qrup öz vəzifəsinin öhdəsindən gələ bildimi? Nə dərəcədə?

___

# HİNDİSTAN, PAKİSTAN VƏ ƏRƏB ÖLKƏLƏRİ

Kəşmir münaqişəsi, ərəb-İsrail münaqişəsi, altıgünlük müharibə, ilk neft böhranı, Kemp-Devid sazişi, İran-İraq müharibəsi, Körfəz müharibələri, Vaşinqton sazişi




128-129

**Alt standartlar:**

1.1.2. Ölkədəki siyasi həyat faktlarını onun siyasi inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

1.1.3. Ölkədəki mədəni həyat faktlarını onun mədəni inkişafının müəyyən mərhələsi ilə əlaqədə dəyərləndirir.

**Təlim məqsədləri:**

Hindistan, Pakistan və ərəb ölkələrinin siyasi və mədəni həyat faktlarını onun siyasi və mədəni inkişafının müəyyən mərhələsi baxımından qiymətləndirir.

**Təlim forması:** böyük  və kiçik qruplarla iş

**Təlim üsulları:** "üç cümlə"

**Dərsin mərhələləri**

**Motivasiya.** Tədris olunan mövzuda bir sıra müharibə və münaqişələr haqqında məlumat olduğu üçün dərsin motivasiyasının bu hadisələrdən çıxış edərək qurulması daha məqsədəmüvafiqdir. Bunun üçün lövhədə *Kəşmir münaqişəsi, ərəb-İsrail münaqişəsi, altıgünlük müharibə, İran-İraq müharibəsi, Körfəz müharibəsi* açar sözləri yazılır və şagirdlərə;

– *Bu sözlər sizə nə deyir?*
– *Sizcə, bu gün tədris ediləcək mövzu hansı ölkələrdən bəhs edər?* kimi suallarla müraciət edilir. Alınan cavablar ümumiləşdirilir şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir.

**Tədqiqat sualı:** Münaqişə və müharibə edən tərəflərdən olan Hindistan, Pakistan və ərəb ölkələrində dəyişikliklər necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını fəal təlimin "üç cümlə" üsulundan istifadə etməklə həyata keçirmək olar. Bu üsulla keçilən dərs zamanı şagirdlərə verilmiş tapşı-

rığı əsaslandırılmış şəkildə daha qısa həcmdə təqdim etmək tapşırılır. Hekayəni ilk təqdim edən qrup qalib sayılır. Bu zaman məzmun əsas götürülür. Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar verilir.

### I qrup

Hindistanın siyasi və mədəni inkişafını qiymətləndirin.

______________________________

______________________________

### II qrup

Pakistanın siyasi və mədəni inkişafını dəyərləndirin.

______________________________

______________________________

### III qrup

Ərəb-İsrail münaqişəsini qiymətləndirin.

______________________________

______________________________

### IV qrup

İraqın siyasi və mədəni inkişafını dəyərləndirin.

______________________________

______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim etməlidirlər. Cavablar diqqətlə dinlənilir, onların müzakirə olunmasına, əlavələr edilməsinə şərait yaradılır. Müzakirələrdə bütün sinif şagirdlərinin iştirakını təmin etmək tövsiyə edilir. Çünki müzakirələrdə çox sayda şagirdin iştirakı sizə ümumi nəticəyə gəlməyə yardım etməklə yanaşı, qiymətləndirməni rahat həyata keçirməyə, şagird fəallığını təmin etməyə, ümumilikdə, dərsi maraqlı etməyə kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan tədqiqatın ümumi nəticəsini çıxartmaq üçün bu mərhələdə şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:
- *Hindistanda milli azadlıq hərəkatını zəiflətmək üçün İngiltərə hökumətinin yürütdüyü siyasəti dəyərləndirin.*
- *Kəşmir məsələsinin mahiyyəti nədir?*
- *Müasir Hindistanın hansı siyasi və sosial-iqtisadi problemləri var?*
- *İkinci dünya müharibəsindən sonra Yaxın Şərqin siyasi vəziyyətində hansı dəyişiklik baş verdi?*
- *Ərəb dövlətləri arasında birliyin zəifləməsinin səbəbini qiymətləndirin.*

– *Soyuq müharibənin başa çatması Yaxın Şərqdə münaqişənin həllinə necə təsir göstərdi?*
– *İranın qonşu dövlətlərinin daxili işlərinə qarışma siyasətini necə dəyərləndirirsiniz?*

**Yaradıcı tətbiqetmə:** Hindistan, Pakistan və ərəb ölkələrinin tarixinə aid mühüm hadisələri müəyyən edib cədvəlləşdirin.

**Ev tapşırığı:** Birinci və ikinci Körfəz müharibələrini müqayisə edin.

| Birinci Körfəz müharibəsi | | İkinci Körfəz müharibəsi |
|---|---|---|
| Fərqli cəhətlər | Oxşar cəhətlər | Fərqli cəhətlər |
| | | |

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə
Qiymətləndirmə sizin dərsi izləməniz nəticəsində baş verməlidir. Yuxarıda verilmiş meyarı nəzərə alınmaqla əvvəlcədən müəyyən etdiyiniz səviyyələr üzrə şagirdləri həm fərdi şəkildə, həm də **qrupun özünüqiymətləndirmə vərəqinə** uyğun qiymətləndirə bilərsiniz.

**Qrupun adı** ____________________________________________

Hər meyara 1-dən 5-dək ballar verin.

| | |
|---|---|
| Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi. | |
| Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi. | |
| Qruplar əməkdaşlıq edirdi. | |
| Qrup bütün sinfi fəal olmağa sövq edirdi. | |
| Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi. | |
| Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etdi. | |

# ÇİN, YAPONİYA VƏ KOREYA

"Böyük sıçrayış", "Mədəni inqilab", "Dörd modernləşmə", "Tyananmen hadisəsi", Yapon möcüzəsi, Koreya müharibəsi



134-135

**Alt standartlar:**

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

3.1.1. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində dövlətləri *(Almaniya, İngiltərə, Fransa, ABŞ, SSRİ, Rusiya, Türkiyə, Yaponiya, Çin, Koreya, Hindistan, İran, Qafqaz, Mərkəzi Asiya, Krım, Volqaboyu, Sibirin türk xalqları, ərəb ölkələri)* siyasi quruluşuna, aqrar *(ənənəvi)*, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Çin, Yaponiya və Koreyanın sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.
2. Cəmiyyətin inkişafının yeni və müasir mərhələsində Çin, Yaponiya və Koreyanı siyasi quruluşuna, aqrar, sənaye və informasiya cəmiyyətlərində vəzifələrinə görə dəyərləndirir.

**Təlim forması:** böyük qruplarla iş, fərdi iş
**Təlim üsulları:** beyin həmləsi, "bir dəqiqə"

**Dərsin mərhələləri**

**Motivasiya.** Yeniyetmələrin avtomobil markalarını tanmaq baxımından bacarıqlarının yüksək olduğunu nəzərə alaraq lövhədə – Haval, Geely, Kia, Daewoo, Hyundai, Honda, Mazda, Nissabuna uyğun suallar verməniz məqsədəmüvafiqdir. Verəcəyiniz suallar aşağıdakı formada ola bilər.

– *Bu sözlər sizə nə qədər tanışdır?*
– *Bu avtomobil markalarını üç qrupa necə bölərdiniz?*

Aldığınız cavabları ümumiləşdirib yeni dərsə keçid edilir.

**Tədqiqat sualı:** İkinci dünya müharibəsindən sonra Çin, Yaponiya və Kareyada inkişaf necə baş verdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunduqdan sonra tədqiqatın aparılması mərhələsi "bir dəqiqə" üsulundan istifadə edilməklə təşkili məqsədəmüvafiqdir. Şagirdlərə materialla tanışlıq üçün vaxt verilir. Verilən vaxt bitdikdən sonra aşağıdakı sual və tapşırıqlardan istifadə etməklə dərsinizi davam etdirə bilərsiniz:

– *Çin Xalq Respublikasının necə yaradıldığını müəyyən edin.*
– *SSRİ və ÇXR-in iqtisadi və hərbi əlaqələrini qiymətləndirin.*
– *Kommunistlərin islahatlarını necə dəyərləndirirsiniz?*
– *"Böyük sıçrayış" planını qiymətləndirin.*
– *"Mədəni inqilab"ın başlanma səbəblərini şərh edin.*
– *"Mədəni inqilab"ın nədən ibarət olduğunun izahını verin.*
– *Çinin iqtisadi inkişafını qiymətləndirin.*
– *"Dörd modernləşmə" islahatlarını qiymətləndirin.*
– *Tyanenmen hadisəsini şərh edin.*
– *Yeni minillikdə Çinin durumunu qiymətləndirin.*
– *Yaponiyanın 1945–1950-ci illər tarixini necə dəyərləndirirsiniz?*
– *"Yapon iqtisadi möcüzəsi"ni dəyərləndirin.*
– *Yapon iqtisadiyyatının sürətli inkişaf səbəblərini necə qiymətləndirirsiniz?*
– *Yaponiyanın uğuru ilə bağlı üç fikri dəyərləndirin.*
– *İkinci dünya müharibəsindən sonra Koreyanın iqtisadi və siyasi inkişafını qiymətləndirin.*

**Qeyd:** Hörmətli müəllimlər! Yuxarıda verilmiş tapşırıqlar azlıq təşkil edərsə, siz özünüz əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı *(təbii ki, tam cavablandırılmayan tapşırığı)* təkrarən digər şagirdə verə bilərsiniz.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlərin bütün bilik, bacarıq və vərdişlərinin, təfəkkürünün müxtəlif növlərinin *(məntiq tənqidi, yaradıcı)* səfərbərliyini tələb edir. Bu zaman müəllimin əldə edilmiş faktların məqsədyönlü müzakirəsi təşkil edilir. Diqqətinizi, əsasən, faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlərin yeni biliklərin əldə edilməsi üçün son addımı ataraq konkret nəticəyə gəlmək və ümumiləşdirmənin aparılması təşkil edir. Aparılan araşdırmalarının yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə təşkil edilən müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə ümumi qənaətlərə istiqamətləndirir.
Bunun üçün şagirdlərə aşağıdakı ümumiləşdirici sual və tapşırıqlarla müraciət edə bilərsiz:

– *Mao Tszedun və Stalinin fəaliyyətində hansı oxşar xüsusiyyətlər var?*
– *Müasir dövrdə Çinin siyasi və sosial-iqtisadi inkişafını təhlil edərək müsbət və mənfi cəhətləri müəyyən edin.*
– *Çində "Dörd modernləşmə" adlanan islahatın əsas istiqamətləri hansılar idi?*

- *1947-ci ildə Yaponiyada qəbul edilən yeni Konstitusiya ölkənin sonrakı siyasi inkişafına necə təsir göstərdi?*
- *Yapon iqtisadiyyatının sürətli inkişafının səbəblərini təhlil edin.*
- *İkinci dünya müharibəsindən sonra Koreyanın parçalanmasının səbəbi nə idi?*
- *1960-cı illərin ortalarından başlayan "Koreya möcüzəsi"nin səbəblərini necə dəyərləndirmək olar?*
- *XX əsrin ikinci yarısında Yaponiya və Cənubi Koreyanın siyasi və iqtisadi inkişaf xüsusiyyətlərini  müqayisə edin.*

**Yaradıcı tətbiqetmə:**

1. Çin, Yaponiya və Koreyanın İkinci dünya müharibəsindən sonrakı tarixi üçün sinxron cədvəl tərtib edin.
2. Mao Tszedun və Den Syaopinin sosial-iqtisadi siyasətini müqayisə edin. Çində "Dörd modernləşmə" islahatlarının Azərbaycan SSR-də YİS-in oxşar cəhətlərini dəyərləndirin.

| **Mao Tszedunun sosial-iqtisadi siyasəti** | | **Den Syaopinin sosial-iqtisadi siyasəti** |
|---|---|---|
| Fərqli cəhət | Oxşar cəhət | Fərqli cəhət |
| | | |

3. Çində "Dörd modernləşmə" islahatları ilə Azərbaycan SSR-də YİS-in oxşar cəhətlərini dəyərləndirin.
4. 1950-ci illərdə Çində iqtisadi sahədə həyata keçirilən tədbirlərə aid cədvəli tamamlayın.

| **Kənd təsərrüfatı** | **Sənaye** |
|---|---|
| | |

# SOYUQ MÜHARİBƏ VƏ MÜASİR DÖVRDƏ DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR (birinci saat)

"Soyuq müharibə", Trumen doktrinası, Marşall planı, "yumşalma dövrü", "Üçüncü dünya ölkələri", bloklara qoşulmayanlar hərəkatı, Berlin divarı, Kuba böhranı, strateji müdafiə təşəbbüsü, "Yeni dünya nizamı", 11 sentyabr hadisəsi, Rusiya–Gürcüstan müharibəsi, qloballaşma, ərəb baharı

140-141




**Qeyd.** Bu paraqrafın tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 140–148-ci səhifələrini əhatə edir. Dərslik müəllifləri olaraq bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada təqdim edirik:

– *Birinci dərs səhifə 140-dan başlayıb 145-ci səhifədəki regional müharibələr yarımbaşlığına olan məlumatları əhatə edir.*
– *İkinci dərs saatı 145-ci səhifədəki regional müharibələr yarımbaşlığından 149-cu səhifəyədək məlumatları özündə əks etdirir.*

Mövcud bölgünü nəzərə almaqla bu səhifələrdə yer alan xəritə, sxem, əyani vasitələri, karikaturaları, mənbədən hissələri, sual və tapşırıqları diqqətdə saxlamaq lazımdır. Onu da qeyd edək ki, bu bölgü mütləq deyil. Bu bölgünü siz dəyişə bilərsiniz.

**Alt standartlar:**

2.1.2. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda *(xəritə, sxem, cədvəl, diaqram)* təqdim edir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim məqsədləri:**

1. Müasir dövrdə baş verən geosiyasi dəyişiklikləri cədvəl formasında təqdim edir.
2. Qlobal problemlərin həllində ABŞ və SSRİ-nin rolunu şərh edir.

**Təlim forması:** böyük qruplarla iş, cütlərlə iş
**Təlim üsulları:** söz assosiasiyası, bir-birini öyrətmək

**Dərsin mərhələləri**

**Motivasiya.** Trumen doktrinasından bir parçanı *("ABŞ ... xarici təzyiqlərə müqavimət göstərən azad xalqları müdafiə etməlidir. ... Edəcəyimiz yardım əsas olaraq iqtisadi və maliyyə sahəsində olmalıdır. Artıq hər bir xalq iki zidd həyat tərzi arasında seçim qarşısındadır. Bunlardan biri çoxluğun iradəsinə əsaslanır və azad təşkilatlar, təmsilçiliyə əsaslanan hökumət, azad seçkilər, insan hüquqlarının, fikir və vicdan azadlığının təmin*

*edilməsi və hər cür siyasi təzyiqlərin olmaması kimi xüsusiyyətlərə malikdir. Digəri isə güc tətbiq etmək yolu ilə çoxluğun məcbur edildiyi azlığın iradəsinə əsaslanır, qorxu və təzyiq, mətbuata nəzarət, saxta seçkilər və insan azadlıqlarının ləğvi üzərində qurulur. Totalitar rejimlərin əkdiyi toxumlar səfalət və yoxsulluqla bəslənir. ... Dünyanın azad xalqları bizdən azadlıqlarını qorumalarına yardım etməyimizi gözləyirlər")* şagirdlərə dinləndirilir və buna uyğun müvafiq suallar hazırlamaqla motivasiyanı qurmaq olar. Suallar aşağıdakı formada ola bilər:

– *Trumen doktrinasından nə anlaşılır?*
– *Sizcə, bu nəyə gətirib çıxara bilər?*

Alınan cavablar ümumiləşdirilir, şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir.

**Tədqiqat sualı:** XX yüzilliyin ikinci yarısında qlobal problemlərin həllində ABŞ və SSRİ-nin rolu nədən ibarət oldu?

**Tədqiqatın aparılması.** Bu mərhələdə bir-birini öyrətmək üçün məsləhətlər üsulundan istifadə etmək təklif olunur. Şagirdlərin bir-birlərini öyrətməyə sövq etmək, istəmək, önəmli nailiyyət əldə etmək yoludur. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.
Şagirdlərə tədqiqatçılıq xarakterli tapşırıq verilir. Onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamağı öyrətmək üçün istiqamət verilir. Şagirdlərin öyrənməsi onların mövzunu mənimsəməsinə işarədir. Bunun üçün şagirdlərə aşağıdakı tapşırıqları verə bilərsiniz:

**I cüt**
Soyuq müharibənin başlanmasını şərh edin.

______________________________
______________________________

**II cüt**
Böyük ittifaqın dağılması problemini şərh edin.

______________________________
______________________________

**III cüt**
Sosialist blokunun yaranması məsələsini şərh edin.

______________________________
______________________________

**IV cüt**
Almaniyanın parçalanması problemini şərh edin.

______________________________
______________________________

## V cüt
Koreya müharibəsini şərh edin.

## VI cüt
Süveyş, Berlin və Karib böhranlarını şərh edin.

## VII cüt
Mülayimləşmə məsələsini şərh edin.

## VIII cüt
Dünyadakı geosiyasi dəyişikliklər fonunda "Üçüncü dünya ölkələri"nin rolunu şərh edin.

**Qeyd.** Əgər sinifdə şagirdlərin sayı çoxdursa, tapşırıqların sayını artırmaq mümkündür. Bu, eyni problemə müxtəlif yanaşmaların ortaya çıxmasına yardım edəcəkdir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir cütün təqdimat etməsi təşkil edilir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bir-birini öyrətmək üçün verilmiş vaxt bitdikdən sonra hər bir cüt öz təqdimatını edir. Onların bir-birilərini öyrətmə bacarığının hansı səviyyədə olduğu müəyyən edilir. Müzakirələr zamanı cütlərdən kimin "öyrədən", kimin "öyrənən" olduğunun diqqətdə saxlanması vacibdir. Təqdimat üçün də konkret vaxtın verilməsi və ona əməl edilməsinin diqqətdə saxlanması vacibdir. Təqdimat zamanı şagirdləri lazımi istiqamətə yönəltmək üçün suallar vermək də yaxşı olar. Cütlərin də təqdim edilmələrlə bağlı sual verməsi qəbul ediləndir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin kulminasiyasını bilikləri məhz özləri "kəşf" etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir. Aşağdakı sual və tapşırıqlar yardımçı ola bilər:
- *"Soyuq müharibə" nin səbəbləri nə idi?*
- *Müasir ATƏT-in əsas məqsədini təşkil edən bu şərtlərin Azərbaycan torpaqlarını uzun müddət işğal altında saxlayan Ermənistan tərəfindən pozulmasına qarşı bu təşkilatın heç bir tədbir görməməsini necə dəyərləndirirsiniz?*
- *"Üçüncü dünya ölkələri"nin yaranması hansı prosesin nəticəsi idi?*
- *Sizcə, hansı problemin həllində ABŞ-nin rolu olmuşdur? Fikrinizi əsaslandırın.*
- *Sizcə, hansı problemin həllində SSRİ-nin rolu olmuşdur? Fikrinizi əsaslandırın.*

**Yaradıcı tətbiqetmə.**

1. Qlobal problemlərin həllində (və ya yaradılmasında) ABŞ və SSRİ-nin rolunu cədvəl formasında təqdim edin.
2. İkinci dünya müharibəsindən sonra yaranan sosialist ölkələrini cədvəl formasında təqdim edin.

**Qiymətləndirmə meyarları:** təqdimetmə, şərhetmə.

Formativ qiymətləndirməni yaxşı aparmaq üçün müəllim yuxarıdakı meyarları nəzərə almaqla qiymətləndirəcəyi şagirdləri dərsboyu diqqətdə saxlamalı və onların fəaliyyətlərini izləməlidir. Dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla əvvəlcədən müəyyən etdiyiniz səviyyələr üzrə şagirdlər qiymətləndirilir. Qiymətləndirmə zamanı şagirdin fəaliyyəti ilə bağlı müəyyən suallar yaranarsa, şagirdə əlavə suallar da vermək olar. Dərsin sonunda şagirdlərə refleksiya üçün aşağıdakı suallar verilə bilər:

– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Dərsdə hansı yeniliyi öyrəndiniz?*
– *Hansı suallarınız var?*
– *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*
– *Dərs prosesində qarşıya qoyulan hədəfə çatdınızmı? və s.*

# SOYUQ MÜHARİBƏ VƏ MÜASİR DÖVRDƏ DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR (ikinci saat)

"Soyuq müharibə", Trumen doktrinası, Marşall planı, "yumşalma dövrü", "Üçüncü dünya ölkələri", Bloklara qoşulmayanlar hərəkatı, Berlin divarı, Kuba böhranı, Strateji müdafiə təşəbbüsü, "Yeni dünya nizamı", 11 sentyabr hadisəsi, Rusiya–Gürcüstan müharibəsi, qloballaşma, ərəb baharı

142-143



**Alt standartlar:**

2.1.1. Ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında, beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.

3.1.2. Qlobal problemlərin həllində dövlətlərin rolunu şərh edir.

**Təlim məqsədləri:**

1. Müasir dövrdə beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir.
2. Dövlətlərarası münasibətlərin nizama salınmasında dövlətlərin rolunu şərh edir.

**Təlim forması:** böyük qruplarla iş, fərdi iş

**Təlim üsulları:** fasiləli oxu, müzkirə

**Tədqiqat sualı:** Müasir dövrdə beynəlxalq münasibətlər necə tənzimlənir?

**Tədqiqatın aparılması.** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Mətn növbə ilə şagirdlərə oxudulur, müəyyən hissələrdə fasilələrə yol verilir. Mətnarası verilmiş sual və tapşırıqlar fasilə ediləcək hissələr ola bilər. Şagirdlərin səviyyəsindən asılı olaraq bu fasilələri mürəkkəb görünən, düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də edə bilərsiniz.

– *"Yeni dünya nizamı" anlayışının mahiyyəti nə idi?*
– *1979-cu ildə SSRİ-nin Əfqanıstanı işğal etməkdə məqsədi nə idi?*
– *1980-ci illərin ikinci yarısında SSRİ-ni münasibətləri yumşaltmağa sövq edən amillər hansılardır?*
– *2001-ci il 11 sentyabr hadisəsi beynəlxalq münasibətlərə necə təsir göstərdi?*
– *148-ci səhifədəki mənbədə "Ərəb baharı" nın daxili və xarici səbəbləri necə dəyərləndirilir?*

Dərslikdə əksini tapmış bu kimi sual və tapşırıqları şagirdlərlə müzakirə edilir. Onların fikirlərinə hörmətlə yanaşın. Çünki bu yaş dövrünün şagirdləri söylədikləri fikrin rədd olunması ilə barışmaya bilər və bu da şagirdin həvəsdən düşməsinə şərait yaradar. Şagirdlərə verilən suallar onların əvvəllər əldə etdikləri biliklərinin üzə çıxmasına şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onlarda əlaqələndirmə bacarığını da formalaşdırmaq üçün istiqamət verəcəkdir.
Mətnin oxusu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin dəyərləndirilməsi həyata keçirilir. Tövsiyə edirik ki, şagirdlər öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamlar lövhədə və ya qeyd edilir. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olar. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, xəritə, şəkillər, illüstrasiyalar da diqqət mərkəzində saxlanılmalıdır. Qeyd etmək istərdik ki, 16-cı mövzunun tədrisi zamanı bu dərs üsulundan istifadə edilməsi dərsin daha uğurlu alınmasına yardımçı olar.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Fasiləli oxu bitdikdən sonra mövzu ilə yekun müzakirə aparıb dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid əldə edə bilərsiniz. Burada siz şagirdlərə əlavə olaraq sual və tapşırıqlar verə bilərsiniz. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da dərsin bu mərhələsi yekunlaşdırılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici suallarla müraciət etmək olar:
- *ABŞ-nin Vyetnama hərbi qüvvə göndərməsi ilə SSRİ-nin Əfqanıstana müdaxiləsi arasında hansı oxşarlıqlar var?*
- *Nə üçün 1989-cu il "Soyuq müharibə" də dönüş nöqtəsi hesab edilir?*
- *"Soyuq müharibə" dövründən sonrakı beynəlxalq münasibətlərin hansı xüsusiyyətləri var?*
- *Çoxqütblü dünya nizamında dünyanın geosiyasi, geoiqtisadi və geostrateji vəziyyətində hansı dəyişikliklər baş vermişdi?*
- *Müasir dövrdə qloballaşma dövlətlərarası münasibətlərə necə təsir göstərir?*
- *Nə üçün "Ərəb baharı" nın nəticəsində bölgədə demokratiya əvəzinə xaos yarandı?*

**Yaradıcı tətbiqetmə.** *Mənbə əsasında müasir beynəlxalq münasibətlərdə Azərbaycanın geosiyasi mövqeyini təhlil edin. Azərbaycanın geosiyasi əhəmiyyəti nədir? Qafqazda rəqabət mübarizəsi Azərbaycan üçün hansı təsirlərə malikdir? Azərbaycan ərazilərinə qarşı Ermənistanın işğalçılıq siyasətini bu mübarizə ilə əlaqələndirmək olarmı?*

**Qiymətləndirmə meyarları:** qiymətləndirmə, şərhetmə
Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Şagirdlərin bilik və bacarıqlarını, əsasən, 4 səviyyə üzrə qiymətləndirmək lazımdır. Bu səviyyələr meyara uyğun hazırlamaqla yanaşı, zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişə bilər. Eləcə də sinfə şagirdin özünüqiymətləndirmə vərəqi paylanır, onların özlərini qiymətləndirməsinə şərait yaradılır.

**Şagirdin adı və soyadı** ________________________

| Öyrənmə sahələri | Müvəffəqiyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|---|
| | | Bəli | Qismən | Xeyr |
| Tarixi məkan | Müasir dövrdə beynəlxalq münasibətlərdə baş verən dəyişiklikləri, inteqrasiya prosesi ilə bağlı informasiyaları məkan baxımından qiymətləndirir. | | | |
| Dövlət | Dövlətlərarası münasibətlərin nizama salınmasında dövlətlərin rolunu şərh edir. | | | |
| | CƏMİ | | | |

# MƏDƏNİYYƏT

informasiya cəmiyyəti, "beyin axını", ilk süni peyk, nanotexnologiyalar, rok-n-rol



149-150

**Alt standartlar.**

5.1.1. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətin inkişafına təsirini izah edir.

5.1.2. Aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.

**Təlim məqsədləri:**

1. İkinci dünya müharibəsindən sonrakı dövrün aqrar, sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətin inkişafına təsirini izah edir.
2. İkinci dünya müharibəsindən sonrakı dövrün aqrar, sənaye və informasiya cəmiyyətlərinin mədəniyyətlərarası və sivilizasiyalararası əlaqələrə təsirini əsaslandırır.

**Təlim forması:** böyük qruplar və kiçik qruplarla iş
**Təlim üsulları:** "iki həqiqət və bir yalan", anlayışın çıxarılması

**Dərsin mərhələləri**

**Motivasiya.** Anlayışın çıxarılması üsulundan istifadə edərək şagirdləri dərsə maraqlandıra bilərsiniz. Bunun üçün lövhədə *(əgər texniki imkanınız varsa "PowerPoint" proqramının köməyilə elektron formada hazırlayın.)* aşağıdakı formada dairələr cızmalısınız. Bunun ardınca açar sözləri səsləndirib şagirdlərə aşağıdakı sualla müraciət edin:

– *Gördüyünüz bu ifadələri birləşdirən ümumi cəhət nədir?*
– *Bu sözləri hansı ümumi ad altında birləşdirə bilərik?*

Səsləndirdiyiniz izahlar bitdikdən sonra mərkəzdəki sualın cavabını şagirdlərin köməyilə elan edin.

**Nümunə:**




**Tədqiqat sualı:** İkinci dünya müharibəsindən sonrakı dövrdə dünya mədəniyyəti necə inkişaf etdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsi "iki həqiqət və bir yalan" üsulunun köməyilə həyata keçirilə bilər. Hər birinə bir mövzu verməklə sinif dörd kiçik qrupa bölünür və onlara tapşırıqlar verilir.

– *Bu mövzu haqqında üç fikir yazın.*
– *Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yalan olmalıdır. Bu zaman yalan doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.*
– *Yazdığınız fikirlər kitabdan olmasın.*

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqları verə bilərsiniz:

**I qrup**
Dünya mədəniyyətinin mərkəzinin dəyişməsini əsaslandırın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**II qrup**
İkinci dünya müharibəsindən sonrakı dövrdə elmin inkişafını əsaslandırın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

### III qrup

İkinci dünya müharibəsindən sonrakı dövrdə ədəbiyyatın inkişafını izah edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

### IV qrup

İkinci dünya müharibəsindən sonrakı dövrdə incəsənətin inkişafını izah edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutduğunuz vaxt bitdikdən sonra hər bir qrupun təqdimatını etməsini təşkil edin. Bu zaman digər qruplar təqdim edilən bu üç fikirlərdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də mövzu ilə bağlı üç fikir söyləməsi *(təbii ki, ikisi doğru, biri yalan)* məqsədəmüvafiq olardı. Bu, müəllimə qarşısına qoyduğu məqsədə çatmasına kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə dərs yekunlaşdırılır. Bunun üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət emək olar:

– *İkinci dünya müharibəsi mədəniyyətə necə təsir göstərdi?*
– *Müxtəlif ölkələrin mətbuatı insanın kosmosa ilk uçuşunu necə dəyərləndirmişdir?*
– *Nanotexnologiyaların inkişafını üçüncü elmi-texniki inqilab hesab edilməsinin izahını verin.*
– *XX yüzilliyin ikinci yarısında elm və texnika sahələrində inkişafın xüsusiyyətlərini izah edin.*
– *XX yüzilliyin ikinci yarısında ədəbiyyat sahəsindəki inkişafı əsaslandırın.*
– *Televiziyanın inkişafının hansı nəticələri olmuşdur?*
– *İnformasiya cəmiyyətinin mədəniyyətin inkişafına təsirinin müsbət və mənfi cəhətlərini əsaslandırın.*
– *Müasir dövrdə dövlətlərarası əlaqələrin inkişafında idmanın rolunu əsaslandırın.*

**Yaradıcı tətbiqetmə.** Şəkillər əsasında XX əsrin ikinci yarısında elm, texnika və mədəniyyət sahəsində yenilikləri şərh edin.

**Qiymətləndirmə meyarları:** izahetmə, əsaslandırma

Yuxarıda verilmiş meyarlar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Bu mərhələdə müxtəlif suallar verməklə təlim prosesində fəaliyyəti izlənilən şagirdin hansı meyarın tələbinə cavab verdiyini dəqiqləşdirə və müəyyən edilən səviyyələr üzrə qiymətləndirilməsini həyata keçirmək olar. Şagirdlərə aşağıdakı qrup qiymətləndirmə vərəqi də təqdim edilə bilər.

**Qrupun adı** ___________________

**Təlimat.** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmətlə yanaşır. | | | | | |
| Qrup üzvləri qərarlarını  bir-birlərinə bildirir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edir. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinə ehtimad göstərir. | | | | | |
| Üzərində işlənilən mövzuda, qrup üzvləri ortaq bir fikrə gəlir. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyir. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alır. | | | | | |

**ŞƏRHLƏR:**

___________________________________________

___________________________________________

































**1. Krım müharibəsinin başa çatmasından bir il sonra:**
**A)** Yaponiyada burjua inqilabı başladı.
**B)** Gədəbəydə misəritmə zavodu inşa olundu.
**C)** İkinci tiryək müharibəsi başa çatdı.
**D)** Rusiyada təhkimçilik hüququ ləğv edildi.
**E))** Sipahilər üsyanı başlandı.

**2. Türkiyənin XX əsrin 20-ci illər tarixi ilə 60-cı illər tarixinin oxşarlığı:**
**A)** hərbi çevrilişin baş verməsi
**B)** beynəlxalq təşkilatlara üzv qəbul olunması
**C)** ABŞ-dən maliyyə yardımı alması
**D)** boğazlar məsələsində böyük üstünlüyü qazandıran müqavilələrin imzalanması
**E))** konstitusiya qəbul edilməsi

**3. İngiltərənin XXI əsr tarixinə aiddir:**
**A))** "Brext" planı ilə Avropa birliyindən ayrılması
**B)** Folklend böhranının baş verməsi
**C)** Avropa İqtisadi Birliyinə qoşulması
**D)** Marqaret Tetçerin başçılığı ilə yeni hökumətin qurulması
**E)** Hindistan və Pakistana müstəqillik verilməsi

**4. Soyuq müharibə dövrünə aid deyil:**
**A))** Ərəb Baharı adlı hadisənin baş verməsi
**B)** Ərəb-İsrail münaqişəsinin baş verməsi
**C)** Varşava Müqaviləsi təşkilatının yaradılması
**D)** Berlin səddinin çəkilməsi
**E)** Tyananmen hadisəsinin baş verməsi

**5. Hadisə-nəticə əlaqəsinin düzgün olduğu cavabı müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| 1. | Potsdam konfransının keçirilməsi | Beynəlxalq hərbi tribunalın yaradılması |
| 2. | Brest-Litovsk müqaviləsinin imzalanması | SSRİ-nin Birinci Dünya müharibəsini tərk etməsi |
| 3. | Berlin konqresinin çağırılması | Qars, Ərdəhan və Batumun Rusiyaya ilhaq edilməsi |
| 4. | I Tiryək müharibəsinin başa çatması | İngiltərənin Çinə təzminat ödəməsi |

**A)** 3, 4 **B))** 1, 3 **C)** 1, 2
**D)** 2, 4 **E)** 2, 3

**6. Avraam Linkoln:**
**A)** Abolisionistlər hərəkatının yaradıcısı idi.
**B)** İngiltərə ilə Gent müqaviləsini imzalamışdır.
**C))** "Azadolunma haqqında Bəyannamə" yə imzalamışdır.
**D)** ABŞ-nin ilk prezidenti olmuşdur.
**E)** "İstiqlaliyyət Bəyannaməsi"ni qəbul etmişdir.

**7. Rus alimi Aleksandr Popov və italiyan alimi Qulyelmo Markoni:**
**A)** tarix elmi sahəsində araşdırmalar aparmışdılar.
**B)** fəlsəfə sahəsində görkəmli alim olmuşdular.
**C)** ədəbiyyat sahəsində Nobel mükafatı almışdılar.
**D)** ayrı-ayrılıqda radionu ixtira etmişdilər.
**E)** psixoanalizin yaradıcıları olmuşdular.

**8. Montre konfransına aiddir:**
**1.** Osmanlı imperiyasının tarixi ilə bağlı olması
**2.** XX əsrin 30-cı illərində çağırılması
**3.** Qara dənizə çıxışı olmayan dövlətlərin hərbi gəmilərinə boğazlardan keçmək qadağan edilməsi
**4.** Mudros və Sevr müqavilələrinin ləğv edilməsi
**A)** 3, 4 **B))** 2, 3 **C)** 1, 2
**D)** 2, 4 **E)** 1, 3

**9. XX əsrin 90-cı illərinin əvvəllərində həyata keçirilmiş "Səhrada tufan" adlanan hərbi əməliyyatın nəticəsində:**
**A)** Səddam Hüseynin hakimiyyəti devrildi.
**B)** SSRİ İraq ərazisini işğal etdi.
**C))** İraq məğlub olub Küveyt ərazisini tərk etdi.
**D)** Misirin Süveyş kanalını milliləşdirmək cəhdinin qarşısı alındı.
**E)** Küveyt ərazisi SSRİ və ABŞ arasında bölüşdürüldü.

**10. Xronoloji ardıcıllığı müəyyən edin.**
**1.** Somma döyüşü **2.** Kursk döyüşü
**3.** Marna döyüşü **4.** Moskva döyüşü
**A))** 3, 1, 4, 2 **B)** 1, 2, 3, 4 **C)** 4, 3, 2, 1
**D)** 1, 2, 4, 3 **E)** 3, 2, 1, 4

**11. I Dünya müharibəsi illərinə aid sxemi:**



1. Çanaqqala döyüşü baş vermişdir.
2. Tannenburq döyüşündə rus qoşunları məğlub edilmişdir.
3. Belçika alman ordusu tərəfindən işğal olunmuşdur.
4. Rusiyada monarxiya devrilmişdir.

**A)** 1, 2 **B)** 1, 3 **C)** 2,4 **D))** 2, 3 **E)** 1, 4

**12. İkinci dünya müharibəsi ərəfəsində Almaniya və İtaliyanın işğalçılıq siyasətlərini genişləndirməyə şərait yaradan amil:**

**A)** ABŞ-dən aldıqları maliyyə yardımı
**B)** SSRİ ilə ittifaqda olmaları
**C)** İngiltərə və Fransanın passivliyi və sakitləşdirmə siyasəti yürütmələri
**D)** Dünya iqtisadi böhranının başlanması
**E)** ölkədə faşistlərin hakimiyyətə gəlməsi

**13.**

> 1806-cı ildə Prussiya ordusunu məğlub edib Berlinə daxil olan I Napoleon "Kontinental blokada haqqında" dekret imzaladı. Bu dekretə görə, Fransa imperiyasına və ondan asılı olan ölkələrə İngiltərə ilə ticarət qadağan edildi.

*Verilən mətnə əsasən Fransanın məqsədini müəyyən edin.*

**A)** Rusiya imperiyasına son qoymaq
**B)** Almaniyada siyasi dağınıqlığa son qoymaq
**C)** İngiltərə ilə Rusiyaya qarşı ittifaq yaratmaq
**D)** Fransanı imperiya elan etmək
**E))** İngiltərəni iqtisadi cəhətdən zəiflətmək

**14. Türkiyə Böyük Millət Məclisinin (TBMM) açıldığı il Azərbaycanda:**

**A))** Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.
**B)** Yuxarı Zəngəzur Ermənistana verildi.
**C)** "Müsavat" partiyası yaradıldı.
**D)** Mart soyqırımı baş verdi.
**E)** Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

**15. Xəritədə ştrixlənmiş dövlətin tarixinə aiddir:**



1. XX əsrin 50-ci illərində respublika elan edilməsi
2. Xocalı soyqrımını tanıyan ilk dövlət olması
3. XX əsrin 40-ci illərində müstəqil olması
4. Uyğurlara qarşı qətliam həyata keçirməsi

**A)** 3, 4 **B))** 1, 3 **C)** 2,4 **D)** 2, 3 **E)** 1, 2

**16. Lokarno və Streza konfranslarının oxşarlığı:**

**A))** İngiltərə və Fransanın iştirak etməsi
**B)** Avstriyanın ərazi bütövlüyünün təminat altına alınması
**C)** Reyn Təminat paktının imzalanması
**D)** Beynəlxalq kommunizmə qarşı birgə mübarizə aparmaq üçün ittifaqın bağlanması
**E)** XX əsrin 20-ci illərində çağırılmaları

**17. 1922-ci ilin dekabrında I Sovetlər qurultayı:**

**A)** Yeni iqtisadi siyasətə (YİS) keçilməsinə qərar verdi.
**B))** SSRİ-nin yarandığını təsdiq etdi.
**C)** "qalib gəlmiş sosializm" konstitusiyasını qəbul etdi.
**D)** "Əks-inqilabi cinayətlər"ə görə həbs olunanlara bəraət verdi.
**E)** kolxoz və sovxozların ləğv olunması haqqında qərar verdi.

**18. Cədvəldə sual işarəsinin yerinə yazılmalıdır: Fransa Osmanlı dövləti: Yaponiya XVIII əsrin 90- cı illərində XIX əsrin 70-ci illərində XIX əsrin 80-ci illərində?**

| Fransa | Osmanlı dövləti | Yaponiya |
|---|---|---|
| XVIII əsrin 90- cı illərində | XIX əsrin 70-ci illərində | XIX əsrin 80-ci illərində |
| | ? | |

**A)** Monarxiyaya son qoyulmuşdur.
**B)** Yeni sülalə hakimiyyətə gəlmişdir.
**C)** Rusiya ilə müharibə aparmışdılar.
**D)** Vətəndaş müharibəsi baş vermişdir.
**E))** Konstitusiyalı monarxiyaya çevrilmişdir.

**19. SSRİ-nin XX əsrin 20-30-cu illəri tarixi ilə Çinin XX əsrin 50-ci illəri tarixlərinə aid oxşar tədbirlər:**

**A))** kəndlilərin məcburən kollektiv təsərrüfatda birləşdirilməsi
**B)** represiyalara məruz qalanlara bəraət verilməsi
**C)** iri torpaq sahiblərinin vergilərdən azad edilməsi

D) vətəndaş müharibəsinin baş verməsi
E) fərdi kəndli təsərrüfatlarının yaradılması

**20.** İkinci dünya müharibəsi zamanı;
**1.** Türkiyənin müharibə edən tərəflərə boğazları bağlaması
**2.** Egey adalarının alman işğalının altında olması
*Verilənlər səbəb olmuşdur:*
**A)** SSRİ-nin müttəfiqlərinə kömək edə bilməməsinə
**B)** ABŞ-nin müharibə edən tərəflərə silah-sursat çatdırmaqda çətinlik çəkməsinə
**C))** ABŞ və Böyük Britaniyanın SSRİ-yə yardım edə bilməməsinə
**D)** Avropada ikinci cəbhənin açılmasına
**E)** Fransanın Almaniya tərəfindən işğal olunmasına

**21.** "Kuba böhranı"nın yaranmasının səbəbi:
**A)** SSRİ-nin Kubaya müdaxilə etməsi
**B)** ABŞ-nin Kubanı blokadaya alması
**C))** SSRİ-nin Kubada nüvə raketləri yerləşdirməsi
**D)** Fidel Kastronun ABŞ meyilli siyasət yürütməsi
**E)** ölkədaxili iqtisadi böhranın yaranması

**22.** Verilən xüsusiyyətlərin aid olduğu Asiya ölkəsi:
**1.** 1929–1933-cü illəri əhatə edən iqtisadi böhran iqtisadiyyatının hərbiləşdirilməsinə yol açdı;
**2.** XX əsrin 30-cu illərində Çin ərazisində müstəqil Mançjou-Qo dövlətini yaratdı;
**A)** Hindistan **B)** İran **C)** Koreya
**D))** Yaponiya **E)** İraq

**23.** "Polad paktı"nı imzalamış dövlətlər:




**3,4**

**24.** İkinci dünya müharibəsinin əvvəllərinə aid olan hadisələr:
**1.** "Qəribə müharibə"
**2.** Yalta konfransının keçirilməsi
**3.** ABŞ-nin Xirosimaya atom bombası atması
**4.** Qış müharibəsinin baş verməsi
**5.** Fransanın Almaniya tərəfindən işğal edilməsi
**1,4,5**

**25.** Xronoloji ardıcıllığı müəyyən edin:
**1.** Tilzit sülhünün imzalanması
**2.** "Gənc türklər" üsyanının başlanması
**3.** Taypinlər hərəkatının yatırılması
**4.** İngiltərənin Hindistanın işğalını başa çatdırması
**1, 4, 3, 2**

**26.** Eyni ildə yaranmış təşkilatlar:
**1.** QİYŞ **2.** NATO **3.** BMT **4.** AİB
**1, 2**

**27.** Müqavilələrin aid olduğu dövlətlər:

| | |
|---|---|
| **1.** Neyi | **a.** Osmanlı imperiyası |
| **2.** Sen-Jermen | **b.** Macarıstan |
| **3.** Trianon | **c.** Bolqarıstan |
| **4.** Sevr | **d.** Avstriya |

**1-b; 2-d; 3-b; 4-a**

*Sizə təqdim olunmuş mənbə əsasında 28-30 saylı tapşırıqları Cavab vərəqində cavablandırın.*

"XIX əsrin ikinci yarısında baş vermiş bu üsyan təsadüfi bir hadisə deyildi, bu üsyan xalq kütlələrinin əvvəlki mübarizəsi və illərlə toplanan nifrətin qəzəbi nəticəsində hazırlanmışdır. Üsyançılar yeni patron işlədilməsinə etiraz etdilər. Onlar güman edirdilər ki, bu patronların büküldüyü qabıq inək və ya donuz piyi ilə yağlanmışdır. Bu patronlar işlədilərkən patronların qabığını dişlə qoparmaq lazım gəlirdi. Müsəlman mənşəli əsgərlər donuz piyini, hindus mənşəli əsgərlər isə inək piyini haram bilirdilər. Patron məsələsi narazılığın aşkara çıxması üçün yalnız bir bəhanə oldu".

**28.** Mənbədə haqqında bəhs edilən üsyan hansıdır?
**(Sipahilər üsyanı)**

**29.** Tarixi biliklərinizə əsasən üsyanın məğlubolma səbəblərini müəyyən edib yazın.
**(vahid rəhbərliyin və komandanlığın olmaması, üsyançıların maraq müxtəlifliyi, nizamsızlıq)**

**30.** Üsyanın başlıca nəticələrini qeyd edin.
**(Böyük Moğol dövlətinə rəsmən son qoyuldu, Hindistanın idarəçiliyində dəyişikliklər edildi, Ost-Hind kompaniyası ləğv edildi.)**

## ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


**Azərbaycan dilində**

1. A.Bakıxanov. "Gülüstani-İrəm". Bakı, 2000
2. İsgəndər bəy Münşi Türkman. "Tarix-i aləmara-yi Abbasi ("Dünyanı bəzəyən Abbasın tarixi"). I cild. Farscadan tərcümə, ön söz, şərh və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor O.Əfəndiyev və tarix elmləri namizədi N.Musalı. Bakı, 2009
3. Mahmudov M. "Dünyada təhsil sistemləri". Bakı, 2014
4. "Mədəniyyət tarixi və nəzəriyyəsi". Manafova M., Əfəndiyeva N., Şahhüseynova S., Bakı, 2010
5. Məmmədağa Baxışov. "İngiltərənin yeni tarixi". Bakı, 2012
6. Mustafazadə Tofiq. Ümumi tarix, I kitab. Bakı, 2009
7. Mustafazadə Tofiq. Ümumi tarix. II kitab. Bakı, 2012
8. M.Baxtadze, V.Vaçnadze, V.Quruli. Gürcüstan tarixi (ən qədim dövrlərdən indiyə qədər) Tbilisi, 2004 (rus dilində)
9. R.Qurbanov. "Türk xalqlarının tarixi". II cild. Bakı, 2011
10. Ş.F.Fərzəlibəyli. "Azərbaycan və Osmanlı imperiyası". Bakı, 1995
11. Tahir Baxşəliyev. "Rusiya tarixi ən qədim zamanlardan günümüzədək". Bakı. 2021
12. Z.Həsənəliyev, Z.Bayramlı. "II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvilər dövlətinin daxili və xarici siyasəti". Bakı, 2011.

**Türk dilində**

1. Akdes Nimes Kurat. "Rusya tarihi". Ankara 1987
2. Allan Nevins və Henry Steele Commager. "ABD tarihi". İlk çeviri Halil İnalcık. İstanbul 1961
3. "Bizimkiler" (Anadolu merkezli dünya tarihi). cilt 23, 24, 25, 26
4. Chrıstopher Hıll. "İngiltere'de Devrim Çağı" 1603-1714. İstanbul 2016
5. Clive Ponting. "Dünya tarihi". İstanbul 2011
6. Eric J. Hobsbawm. "Fransız devrimine bakış". İstanbul 2015
7. Fahir Armaoğlu. !"19 yüzyıl siyasi tarihi". Ankara 1997
8. İhsan Burak Birecikli. "Amerikanın kuruluşu və ABD-Avrupa ilişkileri" (1776–1876).History Studies tarih dergisi. 2011
9. Jacques Bainville. "Fransa tarihi". İstanbul 1938
10. J.M. Roberts. "Avrupa tarihi". İstanbul 2015
11. Murray Bookchin. "Köylü isyanlarından Fransız devrimine". Ankara 2011
12. Oral Sander. "Siyasi tarih" (İlk çağlardan 1918e). Ankara 2012
13. Rifat Uçarol. "Siyasi tarih" (1789–2014). İstanbul 2014
14. "Rusya tarihi". Anadolu Universitesi. Eskişehir 2013
15. William H. McNeill. "Dünya tarihi". Ankara 2001

**Rus dilində**

16. 1. Алаев Л. Б. Средневековая Индия. СПб. 2003
17. 2. Васильев Л, С. История Востока. Том 2. Москва 2013
18. 3. Великие империи мира. Москва, 2011
19. 4. Новая история Индии. Москва 1951
20. 5. Новая история стран Азии и Африки XVI-XIX вв. Ч. 2 М., 2010
21. 6. Синха Н. К., А. Ч. Банераджи История Индии. Москва 1954

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT
### Azərbaycan dilində


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // "Azərbaycan məktəbi" jurnalı, 2013, N°5
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. //"Kurikulum", 2009, N°2
3. Abbasov Ə. "Qiymətləndirmə keyfiyyətin idarə olunma vasitəsidir". // "Təhsil problemləri" qəzeti, 2009, 11–20 iyun
4. Abbasov Ə. "Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri". // "Kurikulum" jurnalı, 2008, N°1
5. Abbasov Ə. "Kurikulum islahatının əsas istiqamətləri". // "Azərbaycan məktəbi" jurnalı
6. Ağayev Əjdər. "Öyrədən öyrənən əməkdaşlığı interaktiv vasitə kimi". // "Təhsil" jurnalı, 2016, N°16
7. Ağayev S. Tarixin tədrisində interaktiv təlim metodunun tətbiqi təcrübəsindən. Bakı, 2009.
8. Bəylərov E. "Formativ qiymətləndirmə". // "Kurikulum" jurnalı, 2011, N°3
9. Bəylərov E. "Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair"
10. Cavadov İ. "Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsinə dair". // "Kurikulum" jurnalı, 2012, N°2
11. Cavadov İ. "Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar". // "Azərbaycan məktəbi" jurnalı, 2014, N°4
12. Cavadov İ. "Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə". "Azərbaycan müəllimi" qəzeti, 2014, 30 may
13. Cəbrayılov İ. "Azərbaycan tarixinin tədris metodikası", Bakı, 2006
14. Dəmirov A.H., Məmmədov S.M., İsmayılov Ş.N. Yeni təlim texnologiyaları və müasir dərs. Bakı, 2017
15. Əhmədov A. "Ümumtəhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru". // "Kurikulum" jurnalı, 2008, N°1
16. Əhmədov A., Şərifov T., Abbasov Ə. "Şagird nailiyyətlərinin qiymətləndirilməsi". // "Kurikulum" jurnalı, 2008, N°1
17. Əliyeva K. "Yekun (summativ) qiymətləndirmənin təşkili üsulları". // "Azərbaycan məktəbi" jurnalı, 2011, N°5
18. Əliyeva T. "Yeni qiymətləndirmə təhsildə inkişaf deməkdir". // "Azərbaycan müəllimi" qəzeti, 2013, 5 aprel
19. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001
20. Əsədova M. "Diaqnostik qiymətləndirmənin əsas mahiyyəti və ədəbiyyat dərslərində ondan istifadə". // "Azərbaycan müəllimi" qəzeti, 2012, 28 sentyabr
21. Əsgərov R., Qurbanov M. "Qiymətləndirmə prosesi". // "Təhsil problemləri" qəzeti, 2015, 24–30 noyabr
22. Əsgərov R., Qurbanov M. "Qiymətləndirmə vasitələri". // "Təhsil problemləri" qəzeti, 2014, 1 yanvar
23. Əsgərov Ş. "Qiymətləndirmənin yeni kriteriyası, şagird-müəllim nisbəti prosesi". // "Azərbaycan məktəbi" jurnalı, 2012, N°2
24. Hacıyeva T. "İbtidai təhsil pilləsində qiymətləndirmənin aparılması barədə". // "Azərbaycan müəllimi" qəzeti, 2010, 29 oktyabr
25. Hacıyeva T. "Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti". // "Azərbaycan müəllimi" qəzeti, 2011, 18 mart
26. Hüseynov E. "Fəal interaktiv təlimin üstünlükləri". // "Azərbaycan müəllimi" qəzeti, 2016, 15 oktyabr

27. Hüseynov R. "Azərbaycan tarixi tədrisinin bəzi məsələlərinə dair". // "Azərbaycan məktəbi" jurnalı, 2010, №1
28. Hüseynov R. "Formativ qiymətləndirmə sahəsində mövcud olan bəzi problemlər və onların aradan qaldırılması yolları". // "Azərbaycan məktəbi" jurnalı, 2013, №4
29. İnteraktiv təlim ensiklopediyası. Bakı, 2010
30. Qəniyeva N. "Təlimdə səviyyəyə görə qiymətləndirmə". // "Təhsil problemləri" qəzeti, 2015, 8 mart. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə
31. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı, "Azmaşkom-Tex" Ltd. MMC, 2007, 184 s
32. Məlikov R., Nəcəfli T. Tarixin interaktiv təlimi. Bakı, 2002
33. Paşayev T. Pedaqoji fəaliyyətin qiymətləndirilməsi. Bakı, 2011
34. Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014
35. Təhsil Qanunu. Bakı, 2009
36. TGC. Təlim və İnkişaf Mərkəzi. Tarix fənni üzrə paylama materialı. Bakı, 2013
37. "Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair müvəqqəti təlimat" // "Təhsil problemləri" qəzeti, 2013, 08–15 sentyabr
38. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları" // "Kurikulum" jurnalı, 2009, №4
39. Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim vəsaiti. Xəzər Universiteti-Bakı-2012
40. Veysova Z. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. UNİCEF, 2007
41. Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. Bakı, "Adiloğlu" nəşriyyatı, 2006
42. Əhmədova M., Əliyev M., Qasımlı M. və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri ( Qərb təhsil sisteminin təcrübəsi əsasında)
43. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Pedaqogika", 2004
44. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı, "Adiloğlu", 2001
45. Kərimova F., Əhmədova M.C. və b. İnteraktiv kurikulum: mahiyyəti və nümunələr. Bakı, "Adiloğlu", 2005
46. Qədimova X. İnteraktiv təlim metodları, Bakı, 2005
47. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı, "Nurlan", 2007
48. Hüseynov E., Quliyev N., Ağalarov P., Ümumi tarix 6, Metodik vəsait, Bakı, Şərq-Qərb, 2021
49. Hüseynov E., Quliyev N., Ağalarov P., Ümumi tarix 7, Metodik vəsait, Bakı, Şərq-Qərb, 2022

**Rus dilində**

50. Алексашкина Л.Н., Боголюбов Л.Н., Ворожейкина Н.И. Учебник стандарты школ России (государственнные общеобразовательные стандарты начального общело, основного общего и среднего (полного) общего образования). Книга первая. М., "Прометей", 1998.
51. Алиева А., Магомедова З, Меликов Р. Инновационная методика преподавания общественных наук в школе (на примере истории, граждановедения и конфликтологии). Баку, 2001.
52. Амонашвили Ш.А. Воспитательная и образовательная функция оценки учения школьников: Экспериментально-педагогическое исследование. М., "Педагогика", 1984, 296 с.
53. Амонашвили Ш.А. Основы гуманной педагогики. Книга четвертая. Об оценках, Москва, Амри-та-Русь, 2012.
54. Анатолий Гин Приемы педагогической техники. Москва, 2013.

55. Безрукова В.С. Педагогика. Ростов-на-Дону, 2013.
56. Величко В.В., Карпиевич Е.Ф., Кирилюк Л.Г. Инновационные методы обучения в гражданском образовании. Минск, 2001.
57. Вяземский Е.Е. Историческое образование в современной России, Справочно-метадическое пособие для учителей. М., 2002.
58. Довгялло М.С., Козик Л.А., Сальков А.П. Методика преподавания истории. Минск, 2010.
59. Крикунова Т.К. Практическая педагогика. М., 2001.
60. Никулина Н.Ю. Методика преподавания истории в средней школе: Учебное пособие, М., 2000.
61. Радугин А.А. Психология и педагогика. М., 2001.

**İngilis dilində**

62. Andrew Flint and Stuart Jack. Approaches to learning and teaching History a toolk it for international teachers. Cambridge Assessment International Education, 2018.
63. Borich.G.D. Efective teaching methods/Upper Saddle River, 1996.
64. Chris Husbands, What is History Teaching? Bristol, USA.1996.
65. History-social science framework for California Public schools. Education with Criteria for Instructional materials. Sacramento, 2005.
66. History 7-11 developing primary teaching skills. London, 1997.
67. Linda S. Levistik, Keith C. Barton. Doing history, New York, 2011.
68. Russel Tarr. A history teaching tool box. Copyright, 2016.
69. Thomas G. Devine. Teaching student skills, Boston, 1997.

**İnternet resursları**

70. http://1905.az/
71. http://cebhe.info/
72. http://www.history.az/
73. http://www.history.ru/
74. 74. http://www.history.en/
75. 75. http://www. testlerim.org
76. 76. http://portal.edu.az/
77. 77. http://www.muallim.edu.az/